SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

# MÜASİR DÖVLƏT AİLƏ SİYASƏTİ:

*Problemə familistik araşdırmalar kontekstindən baxış*

ata ana nənə
baba sevgi ailə övlad
qız oğlan sağlıq xoşbəxtlik
qohum tərbiyə bacı yaşam
qadın kişi hüquq tərəqqi əxlaq
evlilik gender güvən bağlılıq
dəyərlər ər bərabərliyi inkişaf analıq
uşaq nənə hörmət həyat dayaq körpə vaxt
atalıq ana AZƏRBAYCAN yoldaşı dayə din
nəzarət iş mədəniyyət inanc ata arzu dayı təhsil
qardaş əlaqə xala bibi nəsil vaxt keçirmək anlam qazanc
inam dəyər vermək çətinlik öhdəlik qonşu əhatə mühit azad
çevrə ilə övlad qız oğlan sağlıq xoşbəxtlik kredit
borc qohum tərbiyə bacı yaşam qadın kişi hüquq
tərəqqi əxlaq evlilik güvən bağlılıq and
dəyərlər ipoteka pul inkişaf analıq sevgi
kiçik dövlət maraq ailə büdcəsi yaşayış
asudə vaxt xəyanət pandemiya qapanma
zərər dost qısqanclıq ər-arvad müqavilə
ailə məsuliyyəti uşaq qarşılıq sosial insan
tanışlıq əlaqə kişi qadın dayaq yaşam

## TƏDQİQAT ÜZRƏ TƏRƏFDAŞLAR:

## AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli Fərmanı ilə yaradılmış Komitə 1998-ci ildən etibarən qadın problemləri ilə iş sahəsində fəaliyyət göstərmiş başqa bir dövlət orqanını - Qadın Problemləri üzrə Dövlət Komitəsini əvəz etmişdir. "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın (CEDAW) yerinə yetirilməsi ilə yanaşı AQUPDK qadın hüquqları və səlahiyyətlərinin genişləndirilməsinə aid bütün aspektlər üzrə dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsinə məsuliyyət daşıyan yeganə milli mexanizm hesab olunur.

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

## SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır. STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

# MÜASİR DÖVLƏT AİLƏ SİYASƏTİ:
## *Problemə familistik araşdırmalar kontekstindən baxış*

ANALİTİK HESABAT

**Tədqiqat qrupu:**
Sosial Tədqiqatlar Mərkəzinin
Daxili siyasətin təhlili departamenti

Bakı - 2021

**Analitik hesabatın tədqiqat qrupunun üzvləri:**

Tahirə Allahyarova,
*Daxili siyasətin təhlili departamentinin müdiri, professor*

Aqşin Məmmədov
*Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi*

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

# MÜNDƏRİCAT


**GİRİŞ** .......................................................................................4

**I HİSSƏ. AİLƏ TƏDQİQATLARI AİLƏ SİYASƏTİNİN ƏSASIDIR**..........................................6
1.1. Azərbaycanda familistik araşdırmaların vəziyyəti.............................................6
1.2. Sosial institut kimi ailənin missiyası və mahiyyəti..........................................7

**II HİSSƏ. XXI ƏSRDƏ AİLƏ İNSTİTUTUNDA BAŞ VERƏN PROSESLƏR: QLOBAL BÖHRAN, YOXSA TRANSFORMASİYA**..............................................8
2.1. Ailə münasibətlərinin və ailə dəyərlərinin transformasiyası: hazırkı mərhələnin çağırışları..............................................8
2.2. Ailənin sosial funksiyalarının böhranı və sıradan çıxması - arzuolunmaz tendensiyanın təzahürləri..............................................10
2.3. Alternativ ailə modelləri ailənin transformasiyasında böhranın vektoru kimi...................12
2.4. Alternativ nikah/evlilik formaları sırasında “eynicinsli nikahlar”.......................................13
2.5. Beynəlxalq Ailənin İnkişafı Federasiyasının (IFFD) “Ailənin trendləri” (“Family trends”) adlı qlobal hesabatından əsas tezislər...............................................15
2.6. Beynəlxalq Ailə QHT-lərinin ailə problemlərinə baxışı...................................................19
2.7. Ailə institutunun dinamikasında qlobal və lokal tendensiyalara dair bəzi statistik məlumatlar..............................................22
2.8. Nikah-evlilik və boşanmalar kontekstində Şərq və Qərb ailə modelinin vəziyyəti...........24
2.9. İnternet və sosial şəbəkələrin ailədaxili münasibətlərə təsiri. Ailə informasiya inqilabının episentrində..............................................29

**III HİSSƏ. MÜASİR DÖVLƏT AİLƏ SİYASƏTİ: ÜMUMİ MƏQSƏDLƏR, FƏRQLİ STRATEGİYALAR**..............................................32
3.1. Ailə siyasətində ən yeni yanaşmalar və istiqamətlər......................................................34

**IV HİSSƏ. AZƏRBAYCANDA AİLƏ İNSTİTUTU VƏ AİLƏDAXİLİ MÜNASİBƏTLƏR: SON İLLƏRİN TENDENSİYALARINA QISA NƏZƏR**..........................................37
4.1. Ailə siyasətinin institusionallaşması. Ailə məsələləri üzrə administrasiya.......................39
4.2. Azərbaycan ailə institutunun dinamikasında bəzi tendensiyalarla bağlı statistik mənzərə..............................................41

**NƏTİCƏ**.......................................................................................47

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT VƏ İSTİNADLAR**..............................................49

# Giriş

Müasir ailənin problemlərinin kifayət qədər geniş olduğunun sübuta ehtiyacı yoxdur. Mühüm məsələlərdən biri real vəziyyətin təhlili əsasında görülməli ən mühüm tədbirlərin müəyyən edilməsidir. Ailə ilə bağlı sosial tədqiqatlar bu baxımdan son illərdə olduqca sürətlə inkişaf edir.

Ötən əsrin ikinci yarısından - 1960-70-ci illərdən ailə sosiologiyası elmindən ayrılaraq müstəqil tədqiqat sahəsinə çevrilən “Familistika” sürətlə inkişaf etməkdədir. “Familistika” (latıncadan: "familia - qohumluq, ailə, nəsil yaxınlığı ilə bağlı olan şəxslər qrupu") ailə institutunu öyrənən kompleks bir elm sahəsidir. "Familistika" termininin sinonimi kimi " Ailə araşdırmaları", "Ailəşünaslıq", "Ailə tədqiqatları", "Ailə elmi" və s. də tətbiq edilir.[1] Familistika/ailəşünaslıq müasir ictimai elmin ən mühüm sahələrindən biri olmaqla yanaşı, dövlət ailə siyasətinin də əsasını təşkil edir. Hazırda ailəşünaslıq tədqiqatlarının intensivləşməsinin səbəbi də bununla bağlıdır.

Familistika elmi çərçivəsində ailə cəmiyyətin sosial-mədəni bir elementi kimi öyrənilir. Familistika bütövlükdə ailənin problemlərini, eləcə də uşaqların, qadınların, valideynlərin sosial-iqtisadi müdafiəsini öyrənən interdissiplinar elmi istiqamətdir. Sosioloji elmin diferensiasiyası prosesində yaranan ən gənc elm sahələrindən biri kimi familistikanın intensiv inkişafı onun araşdırma metodlarının zənginliyi və imkanları ilə şərtlənib.

Sosiologiyada ailə interdissiplinar istiqamət kimi şaxələndiyi, nikah və ailə problemlərinin öyrənilməsi iqtisadi, tarixi, etnoqrafik, hüquqi, demoqrafik, gender, pedaqoji, psixoloji, tibbi və digər aspektlərin təhlilini əhatə etdiyi üçün sadalanan və digər sahələri ailə tədqiqatları-familistika öz çətiri altına alaraq, çoxşaxəli, dərin və hərtərəfli araşdırmalara imkan yaradır. Nəticədə isə ailə problemlərinin dar çərçivədə, fraqmentar deyil, vahid mənzərəsinin yaradılmasına nail olunur. Müvafiq olaraq, problemlər dairəsi də natamam qalmır.

Ailənin sosial tədqiqi yönündə çoxsaylı elm sahələri - ailənin sosiologiyası, sosial pedaqogika, sosial psixologiya, ailə psixologiyası, ailə hüququ, ailə pedaqogikası, pedaqoji psixologiya və s. mövcuddur. Familistika - ailə haqqında elmlərin kompleks sistemi, ailədə tərbiyə proseslərini öyrənən elm sahəsi kimi problemlərin ortaq təhlilinə imkan verir.

Vacib məqamlardan biri də budur ki, familistik ailəni cəmiyyətin sosial-mədəni elementi kimi qəbul edir və öyrənir. Ailə vahid sosial-mədəni fenomen, sosial institut və sistem olduğundan onun funksiyalarının kompleks şəkildə araşdırılması bu sahədə daha uğurlu mümkün olur. Familistik tədqiqatlar məhz ailənin mahiyyətini ifadə edən "sosial institut" və "kiçik sosial qrup" kateqoriyalarının tətbiqinə ailənin, dolayısilə cəmiyyətin makro və mikrosəviyyələrdə birgə öyrənilməsinə imkan verir. Ailə birliyinin əsasında sosial və psixoloji bağlılıq durur.

Sosial birlik kimi bənzərsiz fenomen olan ailə eyni zamanda sosial struktur, sosial təşkilat və mədəniyyət olmaqla cəmiyyətin tarixi inkişafının subyektidir.

Ailə sosial struktur qismində 3 aspektdə özünü göstərir:

1. nikah münasibətləri, qohumluq əlaqələri ilə birləşmiş fərdlər toplusu;
2. sosial rolların və statusların toplusu;
3. norma və dəyərlərin toplusu kimi.

Ailə insanların həyatının sosial təşkilatı kimi tarix boyu insanların məsuliyyət, qarşılıqlı fəaliyyət və qarşılıqlı yardımı əsasında formalaşıb, mövcud olub. Bu baxımdan, ailə üç səviyyədən ibarət olan sosial-mədəni sistemdir:

a) sosial institut qismində çıxış edən sosietal səviyyə;

b) kiçik bir sosial qrup səviyyəsində;

c) insanın sosial, mənəvi və bioloji tələbatlarını qarşılayan şəxsiyyət səviyyəsi.[2]

Familistikada ailə problemlərinin sosial diaqnostika texnologiyaları, qarşılıqlı-bir-birini tamamlayan metodlar tətbiq edilir. Sosial diaqnostika ilk növbədə ailə həyatında ən çox nəyin narahatlıq doğurduğunu, hansı sahəyə xüsusi dəstək tədbirlərinin tələb olunduğunu aşkara çıxarır. Xəstəlik zamanı ilk ola-

[1] Шилов И.Ю. Фамилистика (Психология и педагогика семьи). Практикум. 2012; Формирование фамилистической культуры студентов педагогических вузов.2008; Шубович М. Семейная педагогика в системе междисциплинарной интеграции гуманитарного знания; https://core.ac.uk/download/pdf/197369095.pdf

[2] Семья как объект и предмет социологического анализа. // Известия Российского государственного педагогического университета им. А.И.Герцена. – № 132, 2011, с.169–179

raq diaqnoz müəyyən edildiyi kimi, cəmiyyətdə də mövcud vəziyyətin dəyərləndirilməsi görüləcək ilk işlərdəndir.

Ailə institutunun sosial diaqnostikası aşağıdakı suallara və məsələlərə cavab tapmağa çalışır:

**1.** Doğum səviyyəsində azalma və onun nəticəsi kimi depopulyasiya təhdidi mövcuddurmu;

**2.** Ailənin qaydasız-intizamsız tərzi şəraitində uşaqların qeyri-qənaətbəxş sosiallaşması hara gətirib çıxara bilər;

**3.** Məişət zorakılığının, uşaqlarla qəddar rəftarın səbəbləri və çarələri nələrdir;

**4.** Reproduktiv sağlamlığın qənaətbəxş olmaması;

**5.** Ailələrin yaşayış səviyyəsinin aşağı düşməsinin aşkarlanması və onun lazımi səviyyəyə qaldırılması;

**6.** Boşanma sayının artması, təkvalideynli ailələrin say dinamikası yüksələn, yoxsa azalan dinamika nümayiş etdirir;

**7.** "Sosial yetimliyin" (uşaq evlərində körpələrin sayının artması; övladlardan imtina, yaxud qəddar və s. davranışa görə valideynlərin övladdan məhrum edilməsi və s.) əhəmiyyətli dərəcəyə çatmasının təhdidləri;

**8.** Həssas-risk qrupuna daxil olan ailələrin dinamikasının müşahidə edilməsi və s.

Ailə tədqiqatlarında sosial diaqnostika əsasında arzu olunan ailə modeli haqqında gözləntilərin mədəni və sosial-iqtisadi amillərin təsiri altında nəsildən-nəslə dəyişməsinin mümkün perspektivləri, proqnozları hazırlana, ailə siyasətinin yeni istiqamətləri müəyyənləşdirilə bilər.

Bu tədqiqatda Azərbaycanda və dünyada familistik araşdırmaların vəziyyəti, sosial institut kimi ailənin missiyası və mahiyyəti, ailə münasibətlərinin və ailə dəyərlərinin transformasiyası, alternativ ailə modelləri ailənin transformasiyasında böhranın vektoru kimi, internet və sosial şəbəkələrin ailədaxili münasibətlərə təsiri, ailə siyasətində ən yeni yanaşmalar və istiqamətlər, ailə siyasətinin institusionallaşması, Azərbaycan ailə institutunun dinamikasında bəzi tendensiyalarla bağlı statistik mənzərə və s. məsələlər ətraflı təhlil edilmişdir.

# I HİSSƏ.

## Ailə tədqiqatları ailə siyasətinin əsasıdır

### 1.1. Azərbaycanda familistik araşdırmaların vəziyyəti

Azərbaycanda bir çox ölkələrdən fərqli olaraq, ailə problemlərinin tədqiqi ilə bağlı ayrıca elmi-tədqiqat mərkəzi, yaxud qurumu mövcud deyil. Buna rəğmən, məsələni müxtəlif aspektlərdən təhlil edən tədqiqatçıların, eləcə də mediada əksini tapan mövqelərin ümumiləşdirilməsi əsasında ümumi mənzərə ilə bağlı təsəvvür və qənaətləri əldə etmək olar.

Ölkəmizdə ailə institutunun müxtəlif aspektlərini təhlil edən araşdırmalar aparılır.[3] Bununla yanaşı, ailə problemlərinin kompleks və sistemli-familistika istiqamətində araşdırılmasına rast gəlinmir. Azərbaycanda nəinki "familistika"-ailə tədqiqatları aparılır, ümumiyyətlə, bu terminin özü hələ yerli elmi leksikona daxil olmayıb. Belə ki, “Google” axtarış sistemində sözün axtarışı “sıfır” nəticə verir. “Ailə tədqiqatları” söz birləşməsinin axtarışları da lazımi səviyyədə ürəkaçan nəticə vermir.

Ölkədə ailə tədqiqatları ilə bağlı araşdırmaların, yerli və beynəlxalq layihələrin böyük qismi AQUPDK tərəfindən həyata keçirilib.

2006-cı il 9 avqust tarixli Fərmana əsasən, ölkədə dövlət ailə siyasətini həyata keçirən AQUPDK-nin Əsasnaməsində Komitənin vəzifələri sırasında: “8.13. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə müasir elmi nailiyyətləri tətbiq etmək, habelə elmi-tədqiqat işlərinin aparılması və tətbiqini təmin etmək” əksini tapıb.[4]

Komitə tərəfindən 2013-cü ildə “Ailə, qadın və uşaq problemləri üzrə elmi-tədqiqat institutunun yaradılması təklif olunub”.[5]

Təbii ki, Azərbaycandakı 2 milyon 62 mindən çox ailənin problemlərinin az sayda işçi heyətinə malik Komitə tərəfindən əhatə edilməsinin qeyri-mümkünlüyünü sübut etməyə ehtiyac yoxdur. Azərbaycanda bu sahədə çoxsaylı problemləri araşdırmaq üçün ailə, qadın və uşaq problemləri üzrə elmi-tədqiqat institutunun yaradılması məqsədəuyğun addım olardı. Bununla yanaşı, təəssüf ki, bu təklif reallaşdırılmayıb.

Sözügedən sahədə araşdırmaların bir qismi vətəndaş cəmiyyəti institutları tərəfindən aparılıb. Azərbaycan Respublikasında qadın problemləri ilə məşğul olan 90-na yaxın QHT-nin olduğu bildirilir. Adlarından göründüyü kimi, onların təhlil istiqaməti əsasən bütövlükdə ailə problemlərinin deyil, əsasən qadın məsələlərinin öyrənilməsidir.

QHT-lər sırasında “Himayədar” Humanitar Tərəqqi İctimai Birliyinin son dövrdəki fəaliyyətində ailə tədqiqatlarına yer verilir. İctimai birliyin 300 nəfər arasında apardığı sosioloji araşdırma nəticəsində gəldiyi əsas qənaət bundan ibarətdir ki, “Azərbaycanda avtoritar ailə modelinin demokratik ailə modelinə çevrilməsi prosesi gedir.”

Son onilliklərdə müstəqilliyin bərpası və demokratikləşmə prosesləri ilə müşayiət olunan milli quruculuq dövründə ailə problemlərinin tədqiqində bu institutun vahid sistem kimi qarşılıqlı əlaqədə tədqiqi ilə müqayisədə əsas aparıcı istiqamətini gender bərabərliyi məsələləri, qadın və uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığı və s. mövzular təşkil etmişdir. Bu mövzular, xüsusilə də beynəlxalq təşkilatların ölkəmizdə həyata keçirdiyi tədqiqat və sorğu layihələri çərçivəsində demək olar ki, yeganə aktuallıq kəsb edən sahəyə çevrilmişdir. Özlüyündə böyük elmi əhəmiyyətə malik olan bu tədqiqatlarda məntiqi olaraq Azərbaycan ailəsi, onun mənəvi təməl və dəyərləri, modernləşməsi və transformasiyaya uğramasına ailədaxili münasibətlərin müstəsna olaraq məişət zorakılığı prizmasından baxılmışdır.[6]

Təbii olaraq, problemlərin əsasən bir istiqamətdə - gender və hüquqlar aspektində təhlili natamam qalmaqla yanaşı, ailə institutumuzda baş verən proseslərin, dinamika və tendensiyaların bütöv mənzərəsini yarada bilməzdi.

Digər tərəfdən, müxtəlif ali məktəblərdə “Gender Araşdırmaları Mərkəzləri"nin yaradılması, ümumilikdə psixologiya, o cümlədən “Ailə psixologiyası” sahəsində barmaqla sayılacaq dərəcə-

[3] Məmmədov R. Azərbaycan ailəsi: dünən, bu gün və sabah. Bakı, 2018; Mehdiyev E. Azərbaycanda ailə dəyərləri. Bakı, 2018. 65 s. Quliyeva N. Azərbaycanda müasir kənd ailəsi. Bakı: Elm, 2005, 176 s.; Əlizadə H., Mahmudov R. Sosial pedaqogika. Bakı, 2014; Dəmirçiyeva M.D. Ailə hüquqlarının məhkəmə müdafiəsi (kazuslar). Bakı: Şərq-Qərb, 2012, 120 s.

[4] http://scfwca.gov.az/page/komitenin-esasnamesi

[5] https://apa.az/az/xeber/sosial-xeberler/xeber_aile__qadin_ve_usaq_problemleri_uzre_elm_-303307

[6] Azərbaycan Respublikasında illik qanunvericilik və dövlət siyasətinin gender aspektinin qiymətləndirilməsi üzrə hesabat, 2020; Azərbaycanda qadınların ədalət mühakiməsinə çıxışı üçün maneələr, hüquqi müdafiə vasitələri və ən yaxşı təcrübələr, 2017; Azərbaycanda özəl sektorda qadınlar: imkanlar və çətinliklər gender qiymətləndirməsi hesabatı, 2018; The Child Protection System in Azerbaijan: Situation Analysis Available Resources, UNİCEF. 2005; https://azerbaijan.unfpa.org/az/publications/demoqrafik-proqnozlar-2014-2050-az%C9%99rbaycanda-do%C4%9Fulanlar%C4%B1n-cins-nisb%C9%99tinin-m%C3%BCxt%C9%99lif; Demoqrafik Proqnozlar, 2014-2050: Azərbaycanda doğulanların cins nisbətinin müxtəlif ssenariləri; https://www.nhc.no/en/growing-domestic-violence-endangers-womens-lives-in-azerbaijan/?fbclid=IwAR1sH7Usg2BV1x27CimKKa8dmHGIxSJSP55PMyl-8kcIO18A-oYdndIijakQ//Growing Domestic Violence Endangers Women’s Lives in Azerbaijan20.05.2021; // Gender Based Violence in Azerbaijan 2020.Norwegian Helsinki Committee20-05-2021; Azerbaıjan Country Gender Assessment December 2019

də yüksək ixtisaslı mütəxəssislər olduğu halda, 2 həftəlik ödənişli kurslar keçərək sertifikat alan, anidən "ailə psixoloquna" çevrilən "ekspertlərin" sayı həddən artıq çoxalıb ki, bu vəziyyətin ailələrin sosial-psixoloji problemlərinin həllinə töhfə verəcəyini düşünmək yanlışlıq və sadəlövhlük olardı.

Boşanma və ailə münaqişələrinin sayının artması, ailələrdə baş verən mənfi tendensiyaların son dövrdə hissediləcək dərəcədə qabarıq üzə çıxması cəmiyyətdə və elmi ictimaiyyətdə ailə problemlərinin vəziyyətinə bağlı kəskin reaksiyalar doğurdu, demək olar ki, ictimai rəydə "qəfil yaxalanma" effektini yaratdı.

Təqdim edilən hesabat Azərbaycanda ailədaxili münasibətlərin sosial fenomen kimi kəmiyyət və keyfiyyət əsaslı araşdırılması, digər sosial institutlar, sosial proseslər və onların bütövlükdə cəmiyyətin sosial dəyişikliklər və dinamikası, insan-cəmiyyət münasibətlərinin qanunauyğunluqlarının familistik tədqiqi yönündə ilk addımlardan sayıla bilər. Belə ki, tədqiqat işi xarici qrant layihəsi, yaxud sorğusu şəklində deyil, yerli rəsmi qurumlar tərəfindən, dar profilli "gender", qadın, uşaq hüquqları mövzusunda deyil, Azərbaycan ailəsində baş verən transformasiya proseslərinin araşdırılmasını hədəfə alıb.

## 1.2. Sosial institut kimi ailənin missiyası və mahiyyəti

Ailənin dövlət və cəmiyyətin fundamental sosial institutu kimi əhəmiyyətini dərk etmək üçün "sosial institut" termininin məzmununu xatırlatmaq lazım gəlir. "Sosial sistem, sosial institutlar" (lat. "institutum" - quruluş, təsisat) termini həmişə mövcud olmayıb. İngilis alimi H.Spenser tərəfindən sosiologiya elminə gətirilən anlayış, T.Parsons tərəfindən geniş tədqiq edilib. İnstitusional sosiologiyanın nümayəndələrindən olan T.Parsons "sosial sistemləri" dəyərlərdən, normalardan, kollektiv təşkilatlardan və rollardan ibarət bir struktur kimi təqdim edir, onu insanı əhatə edən bütün sahələrə tətbiq edilə bilən universal anlayış hesab edirdi.

Sosial sistemlər bir sıra həyati vacib funksiyaları yerinə yetirdiyi üçün burada baş verən proseslərin izlənilməsi, təhlili və elmi əsaslarla tənzimlənməsi alternativi olmayan əhəmiyyətə malikdir.

Fundamental sosial sistem və altsistem institutları: iqtisadi, siyasi, hüquqi və sosial sistemlərin özləri də altsistemlərə - institutlara şaxələnir, bir sıra aşkar və latent funksiyaları yerinə yetirir. Sosial sistem kimi ailənin bəzi əsas funksiyaları: reproduktiv, təhsil, məişət-təsərrüfat, iqtisadi, rekreativ və emosional-psixoloji, kommunikativ-nəsillərarası ötürücü və s.-dir. Sosial institutlar aşağıdakı unikal funksiyalara malikdir:

- Xarici və daxili dəyişikliklərə uyğunlaşma kimi başa düşülən adaptiv funksiya;
- Sistem qarşısına müəyyən məqsəd qoyması və ona nail olması ilə ifadə edilən məqsədyönlülük funksiyası;
- Sistemin öz tərkibindəki elementləri və funksiyaları bir araya gətirməsində ifadə olunan inteqrativ funksiya;
- Sistemin ilk baxışda aşkar sezilməyən, sosial-mədəni, mənəvi, hüquqi sosial davranış normalarını, insanların motivasiya və stimullaşdırıcı mühitini yaratmaq, qorumaq və təkmilləşdirməkdə ifadə olunan latent-gizli funksiyası.

**Cədvəl 1. Bütün tip sivilizasiyalara xas olan sosial institutlar**

| | Sosial institutlar | Funksiyalar |
|---|---|---|
| 1. | **Ailə və nikah** | Nəsilartırma, sosiallaşma və uşaqların qorunması, nəsillərarası varislik |
| 2. | **Dövlət** | Hakimiyyət iyerarxiyasının yaradılması |
| 3. | **Bazar** | Mallar və xidmətlərin, istehsalı və paylanması |
| 4. | **Hüquq** | Qanun və qaydanın təminatı və icrası |
| 5. | **Konfessional/din məzhəb təşkilatları** | Cəmiyyətin mənəvi əsaslarını qorumaq, fəaliyyətinə məna vermək, məqsədyönlülük aşılamaq |

# II HİSSƏ.

## XXI əsrdə ailə institutunda baş verən proseslər: qlobal böhran, yoxsa transformasiya

Artıq qeyd edildiyi kimi, müasir ailə institutunun böhranı ilə bağlı proseslər qlobal miqyaslıdır. İnformasiya sivilizasiyası və sosial şəbəkələr fenomeninin cəmiyyət həyatına aşırı təsiri və müdaxiləsi nəticəsində ailənin üzləşdiyi böhran müxtəlif dövlətlərdə bənzər cəhətlərə malikdir.

Azərbaycan ailəsi sözügedən proseslərin bilavasitə nüfuz dairəsindədir və baş verən transformasiya prosesləri qarşılıqlı bağlılıq təşkil edir. Dünyada sürətlə dəyişən ailədaxili münasibətlərin aparıcı meyillərinə, təzahürlərinə, göstəricilərinə bələd olmaq, Azərbaycanda ailədaxili münasibətlərlə bağlı yerli statistik və qlobal indekslərdə əksini tapan indikatorların müqayisəli təhlilinə ümumi və qısa nəzər salmaq bu baxımdan tədqiqatın zəruri məqsədləri sırasına daxildir.

**Müasir dövrdə ailə institutunun böhran yaşaması qənaətini qəbul edən və araşdıran tədqiqatçıların problemə iki yanaşması mövcuddur:**

***1.“Liberal-mütərəqqi”-transformasiya konsepsiyası;***

***2. “Mühafizəkar-böhran konsepsiyası”.***

Birinci yanaşma tərəfdarları hesab edirlər ki, köhnə ənənəvi ailənin dağılması və yerində yeni strukturların meydana çıxması kimi obyektiv proses baş verir.

İkinci yanaşma təmsilçilərinə görə, ailənin XXI əsrdə böhranı elə bir həddə çatıb ki, sosial bir struktur olaraq onun tamamilə yox olması baş verə, bəşəriyyətin gələcəyinə təhdid yaradacaq həddə çata bilər. Bu səbəbdən də ailəni, ailə dəyərlərini, ailə həyat tərzini möhkəmləndirmək, ənənələri qorumaq yönündə bütün səyləri səfərbər etmək lazımdır.[7]

Maraqlı, eyni zamanda narahatlıq doğuran tendensiyalardan biri də ailənin "sosial institut" statusunda böhranının onun "kiçik sosial qrup" statusu ilə müqayisədə daha dərin və daha genişmiqyaslı, sürətli keçirməsidir. Başqa sözlə deyilsə, kiçik sosial qrup statusunda ailənin nüfuzu hələlik kritik həddən aşağı düşməyərək qalmaqdadır. Bu, ailənin olduqca sürətli templərlə dəyişən, xaotik proseslərin xas olduğu dünyada və cəmiyyətdə hələlik mənəvi bir sabitlik, rahatlıq məkanı olması ilə bağlıdır.

Ailə modelinin iki statusunun yaşadığı böhran arasındakı bu fərq dövlət siyasətində nəzərə alınmalı ən vacib məqamdır. Ailənin sosial funksiyalarının, sosial missiyasının azalması fərdlər səviyyəsində deyil, cəmiyyət, dövlət səviyyəsində perspektivlər baxımından arzuolunmaz nəticələrə səbəb ola bilər.

### 2.1. Ailə münasibətlərinin və ailə dəyərlərinin transformasiyası: hazırkı mərhələnin çağırışları

Qərb dünyasında XIX əsrin sonlarından başlayaraq və XX əsrin üçdə biri müddətində davam edən “ilk demoqrafik keçid” aşağı doğum və ölüm sayı, həmçinin daha uzun ömür meyilləri ilə xarakterizə olundu. Bu da əhalinin doğum səviyyəsinin azalması və qocalma prosesləri ilə nəticələndi. 1960-cı illərdə başlayan və XXI əsrin əvvəllərində davam edən “ikinci demoqrafik keçid” boşanmaların, nikahsız birgəlik, nikahdankənar doğumlar və tək valideynlərin sayında nəzərəçarpacaq dərəcədə artıma səbəb oldu.

Ailə institutunun "deinstitusionalizasiyası" ənənəvi dəyər sistemlərindən, kollektiv məsuliyyət və öhdəliklərdən postmodern-ifrat fərdiyyətçilik, hüquq və azadlıqlar konsepsiyasına doğru keçid kimi ağrılı proseslərlə müşayiət olunur, hazırda davam edən dərin böhran vəziyyəti ilə səciyyələnir.

**Həm ümumilikdə dünyada, həm də Azərbaycanda son bir əsrdə ailənin kiçik bir sosial qrup olaraq təkamül dinamikası aşağıdakı ardıcıl modellər və onların transformasiyası şəklində meydana çıxıb:**

***1) patriarxal ailə;***

***2) mərkəzində uşaqlar olan-***

[7] Микросоциология семьи (методология исследования структур и процессов). М. : Издательский Дом «Nota Bene», 1998. – 360 с.

***uşaqmərkəzli müasir/modern ailə;***

***3) postmodern ailə-nikah modeli.***

Ailənin sosial institut kimi tarixi transformasiyasının birinci mərhələsində familizm (ailə) dəyərləri individualizm (fərdiyyətçilik) üzərində tamamilə üstünlük təşkil edib. Çoxuşaqlı (uşaqmərkəzli) ailə modeli legitim-norma hesab edilib. Nikahdankənar uşaqların dünyaya gəlməsi sosial baxımdan qeyri-məqbul sayılıb. Nikahdankənar uşaqlara cəmiyyətdə mənfi münasibət olub. Evlilik yalnız valideynlərin iradəsi ilə və ictimai rəyin (qınağın) təzyiqi altında cəmiyyətdə cinsi münasibətlərin tənzimlənməsinin yeganə məqbul və qanuni yolu kimi həyata keçirilib. Subaylıq insanın sosial davranışının anormal forması kimi qınanıb. Uşaqsız evli cütlüklər sosial statusları baxımından və psixoloji cəhətdən əziyyət çəkib və sosial vəziyyəti "aşağı ranqa" sahib olub. Boşanmalar qəbuledilməz sosial davranış forması hesab edilib. Ümumiyyətlə, ailələrin bütövlüyü və bölünməzliyi təsəvvürləri üstünlük təşkil edib. Ailə genişlənən və şaxələnən obraza malik olub.

Ailənin sosial institut kimi tarixi transformasiyasının ikinci mərhələsində familizm (ailə) dəyərlərinin fərdiyyətçilik üzərində qismən üstünlüyü baş verir. Orta uşaq sayı (bir ailədə üç və ya dörd uşaq) qanuni norma halına gəlir. Nikah şəxsi seçim üzrə, eyni zamanda valideynlərin razılığı ilə bağlanır. Cəmiyyətin bütün təbəqələrində sosial akt olaraq boşanmalara yalnız obyektiv qəbul edilən səbəblərə görə icazə verilir. Ailə strukturu ailələrin qismən nuklear (ata, ana və övladdan ibarət) formaya meyilliliyi ilə xarakterizə olunur.

Ailə institutunun tarixi transformasiyasının üçüncü mərhələsində əksistiqamətli proseslər - fərdiyyətçiliyin ailə dəyərləri ilə müqayisədə önə çıxması, qismən üstünlük təşkil etməsi meyli baş verir. Uşaqların azsaylı olması geniş yayılmış şərti sosial normaya çevrilir. Nikah artıq sırf şəxsi seçimlə edilir. Boşanma subyektiv, lakin cəmiyyət tərəfindən qəbul edilə bilən səbəblərdən (ər-arvadın ayrılması və ev idarəçiliyi, ər-arvaddan birinin anormal sosial davranışı, ağır sağalmaz xəstəliklər və s.) baş verir. Boşanmaların səbəbləri hələlik azalmağa meyilli proses olsa da, cəmiyyətin sosial nəzarəti altında qalmaqdadır.

Dördüncü mərhələdə ailə institutunun transformasiyası təməl sosial institut kimi ailə funksiyalarının bütün inkişaf parametrlərini əhatə etməklə pik səviyyəyə çatır. Dəyərlər sistemində fərdiyyətçiliyin tam üstünlüyü baş tutur. Ailə (familizm) dəyərləri artıq keçmişin qalığı hesab edilir. Ənənəvi konvensional normalar sıradan çıxır. Şəxsiyyətin əhəmiyyəti və müstəqilliyi ailə strukturunda bütün seçimləri və sosial fəaliyyəti müəyyən edən hakim funksiyaya çevrilir. Cütlərin ailədə uşaqlara hökmən-mütləq ehtiyacın olması ilə bağlı təsəvvürləri arxa plana keçir. Ailənin və evliliyin alternativ - nikahdan imtina, eynicinsli nikahlar, könüllü tənhalıq, təkvalideynlilik və s. formaları ortaya çıxır. Ailə davranışının bütün növlərinin bir-birindən ayrılması baş verir. Cinsi davranış artıq mütləq olaraq nikah, reproduktiv və valideynlik davranışı ilə əlaqəli olmur. Kişi və qadınların nikaha daxil olmasının orta yaşı ardıcıl olaraq artmaqda davam edir.

İctimai rəydə boşanma artıq "sosial fəlakət" kimi qəbul edilmir və həyat yoldaşlarından birinin tələbi ilə irəli sürülən insanın normal, qanuni hüququ hesab edilir. Ailə strukturu və sistemində "bütöv ailə" qavramı dəyişikliyə məruz qalır. Yeni ailə strukturları meydana çıxır. Ən mənfi cəhət odur ki, ailə institutu və dəyərlər sistemi tamamilə dəyişir, insanlar nikah barədə düşünərkən mütləq olaraq potensial boşanma perspektivini də götür-qoy etməli olur. Güvənsizlik bəri başdan münasibətləri müşayiət edir.

Cütlüklərin əminlik və güvən təsəvvürləri aşınmaya məruz qalır. Yeni yaranan alternativ nikah formalarının hamısı - "sınaq", "müvəqqəti", "vətəndaş", "tələbə", "qonaq" və s. əslində insanların həm özündən, həm də bir-birindən ehtiyatlanmasını, mümkün boşanmalardan "sığortalanmaq" səylərini əks etdirir. Qərbdə yaranan və bütün dünyaya aqressiv şəkildə yayılan seksual inqilab qadınların bioloji gücünü də azad edir.

"Erotik açıq-saçıqlıq, rahatlıq" nə qədər təşviq edilsə də, ailənin yaranmasında təməl olan gender kimliyinin ən çox qabarıq ifadə edilən sahəsini - ekzistlensial sevgi/məhəbbət proble-

mini həll edə bilmir. Nəticədə arzuolunmaz sosial təsəvvürlər, məsələn, kişinin gözündə qadın, yaxud əksinə "özgə" - bir təhdid, mümkün aşkar təhlükənin təcəssümü" kimi" formalaşır."[8]

Ailə institutunun vəziyyətinin və transformasiyasının təhlili gözlənilən meylləri müəyyənləşdirməyə imkan verir. Belə ki, müasir ailə yaş, yaxud gender və s. subordinasiyasına əsaslanan patriarxal ailə modelindən tamamilə uzaqlaşmaqdadır.

"Müasir ailə" modeli isə sənayeləşmə-modernləşmə dövründə formalaşmağa başlayıb. Ötən əsrin sonlarına doğru vəziyyət kəskin şəkildə dəyişib və bütün sənayeləşmiş ölkələrdə qadınlar kütləvi şəkildə əmək bazarına qayıtmağa başlayıb. Doğum səviyyəsi azalmağa, uşaqların planlaması sonrakı uyğun zamanlara qədər təxirə salınıb. Təhsil, səhiyyə, xidmətlər və s. sahələrdə qadınların sayı sürətlə artıb. 1990-cı illərdə ilk dəfə universitetlərdə təhsil alan qızların sayı oğlanların sayını ötüb keçib.

Ailənin bir sosial institut olaraq yalnız Azərbaycan cəmiyyətində deyil, həm də postmodern inkişaf mərhələsinə qədəm qoymuş bütün cəmiyyətlərdə də ciddi dəyişikliklərə uğraması göz önündədir. Qərbdə - Avropa, ABŞ, Kanada və s. yerlərdə ailənin ənənəvi patriarxal modeldən nuklear (ər-arvad, valideyn) ailə modelinə keçidi daha əvvəl baş verib. Əsrlər boyu davam edən ənənəvi kollektivçilik dəyərləri ifrat individualizm və şəxsiyyətin eqoist maraqlarına köklənən liberal dəyərlərlə ziddiyyət təşkil etdiyindən geniş ailə modeli sıradan çıxıb.

**Ailə sosial dəyər oriyentasiyası baxımından iki əsas yol ayrıcındadır:**

***1) ənənəvi ailə dəyərlərini qorumaqla, yeniliklərin mənəvi təməllər əsasında uyğunlaşması və qəbulu yolu ilə böhrandan çıxması;***

***2) çoxsaylı alternativ nikah modellərinə malik qeyri-ənənəvi ailənin formalaşması yönündə radikal transformasiyaya uğraması.***

Ailənin birinci sosial yönümlü yolu qlobal yanlış ideologiyalara qarşı müqavimətin təmin edilməsinə, tarixi, mənəvi və dini dəyərlərin bərpasına xidmət edə bilər.

Ailənin ikinci sosial oriyentasiyası isə son nəticədə cəmiyyətin özülünün laxlaması və özünüməhvə aparan yoldur.

## 2.2. Ailənin sosial funksiyalarının böhranı və sıradan çıxması - arzuolunmaz tendensiyanın təzahürləri

Ailənin funksiyalarına toxunmaq o mənada xüsusilə vacibdir ki, funksional struktur tarixi inkişafın müxtəlif mərhələlərində ailədə baş verən dəyişikliklərin dinamikasını əks etdirən ən vacib cəhətlərdən biridir. Müasir cəmiyyətdə baş verən dəyişikliklər fonunda ailə funksiyalarının transformasiyasının öyrənilməsi bu baxımdan aktuallıq kəsb edir. Rus əsilli amerikalı sosioloq Pitirim Sorokin ailə böhranının getdikcə artacağını proqnozlaşdırmışdı. O, "Dövrümüzün başlıca meyilləri" adlı kitabında sənaye-urbanizasiya sivilizasiyasının ailə institutuna mənfi təsir göstərdiyini və onun sosial-mədəni funksiyalarının azalmasına səbəb olduğunu bildirirdi.

Hazırkı əsrdə modern/postmodern ailə modelinin ənənəvi ailə ilə müqayisədə üstünlük təşkil etməsinin yüksələn xətt üzrə getməsinin ailənin funksional strukturunda dərin dəyişikliklərə səbəb olması göz önündədir.[9]

Qeyd edildiyi kimi, ailənin funksiyaları dərin tarixi xarakter daşıyır və zaman keçdikcə onların məzmunu və iyerarxiyası da dəyişir. Bəzi funksiyalar tamamilə itir, digərləri isə yeni sosial şəraitdə daha uyğun funksiyalarla əvəz olunur. Son onilliklərdə həyat səviyyəsindəki dəyişikliklər gənclərin düşüncə tərzində, ailə institutu və dəyərləri ilə bağlı dəyişikliklərə səbəb olub. Bu da öz növbəsində ənənəvi ailəni tamamilə əvəz etmək iddiasında olan müasir ailə modelinin ortaya çıxmasına kömək edib.

Ailənin ənənəvi/klassik modeli dedikdə, qohumluq və qan əlaqələrinə əsaslanan, yaxın əhatə ilə davamlı ünsiyyət saxlanılan bir model başa düşülür. Müasir ailə tipi öz növbəsində əsasən insanın şəxsi həyatı, evliliyin həssaslığı kimi cəhətlərlə xarakterizə olunur. Ənənəvi və müasir ailə modeli çərçivəsində funksional strukturdakı dəyişikliklərin təhlili bu baxımdan zəruridir.

[8] Вах: Голод С. Современная семья: мачизм, феминизм, трибадизм // Человек, 2006, № 6, с. 69-81; Лактюхина Е. Г. Развод в молодых семьях в условиях трансформации ценностей: автореф. дис. ... канд. социол. наук. - Волгоград, 2013, 28 с.

[9] Рябова В. Трансформация функций семьи в современном российском обществе.// https://brstu.ru/static/unit/journal_2/docs/number-17/106-112.pdf

**Cədvəl 2. Ənənəvi və müasir ailə modelinin əsas funksiyalarının fərqi**

| Funksiyalar | Ənənəvi ailə modeli | Müasir (modern/postmodern) ailə modeli |
|---|---|---|
| **Reproduktiv** | Ana və atanın nikah-evliliyinə əsaslanan çoxuşaqlı ailə. Yaşlı uşaqlar kiçiklərlə himayəçi-müəllim kimi davranırlar | Kiçik ailə (1-2 uşaq)<br><br>Uşaqsız ailələrin sayının artması<br><br>Nikahdankənar uşaqların sayında artım |
| **Tərbiyəvi-sosiallaşdırma** | Valideynin mütləq hakimiyyəti və avtoritar tərbiyə sistemi<br><br>Tərbiyə bir neçə nəslin (nənə-baba və s.) birgə yaşadığı, onlardan birinin əsas söz sahibi olduğu geniş ailədə baş verir<br><br>Valideynlər uşaqlara işçi qüvvəsi, ailənin sosial vəziyyətinin sabitliyi və "sığortalı" qocalıq zəmanəti kimi ehtiyac duyur<br><br>Həyat tərzinin, peşələrin, ənənələrin varisliyi və davamlılığı<br><br>Tərbiyədə cəza və mükafatlar sistemi ailənin ənənələrinə və ailə başçısının səlahiyyətlərinə əsaslanır | Uşaqlar birnəsilli ailələrdə tərbiyə olunurlar (yalnız valideynlərlə ünsiyyətdə, nənə və babanın tərbiyəvi təsiri azalır)<br><br>Uşaqlar valideynlər üçün özlərini reallaşdırmaq, təhsil, moda, yeni davranış və istehlak vərdişləri ilə tanış olmaq, yeni peşələr və kitablar, mədəni tədbirlər və sosial imkanlar haqqında məlumat mənbəyi olmaq, öz şəxsiyyətlərini inkişaf etdirmək vasitəsi qismində mövcud olur<br><br>Uşaqlar ailə dəyərlərinin daşıyıcısı olmaqdan kənarlaşır<br><br>Cəzalar və mükafatlar sistemi baş verənlərin mənəvi qiymətləndirilməsinə əsaslanır |
| **Təsərrüfat-məişət** | Ər-arvad arasında funksiyaların dəqiq bölünməsi, müəyyənliyi | Ər-arvad arasında funksiyaların qeyri-müəyyənliyi |
| **Rekreativ (bərpaedici)** | Şənliklər, qonaqlar ilə ünsiyyət, əyləncə | Uşaqlı ailələr üçün istirahət, sağlamlığın bərpası və asudə vaxtın təşkilini təmin edən, ailəyə yönümlü infrastrukturun olmaması<br><br>İstirahətin əsasən alış-veriş prosesi kimi anlamının üstünlük təşkil etməsi |
| **Emosional-psixoloji (psixoterapevtik)** | Qadın kişiyə münasibətdə dost rolunda çıxış edir | Emosional ünsiyyət-əlaqələrin zəifləməsi<br><br>Ər-arvadın ailənin mənəvi və psixoloji iqlimini yaxşılaşdırmaq, qarşılıqlı güzəştə getmək istəməməsi, yaxud bacarmaması səbəbindən ailədaxili münasibətlərdə münaqişənin artması |
| **İqtisadi** | Həyat yoldaşlarının müəyyən rollara malik olması<br><br>Arvad uşaqların anası və evin sahibəsidir, ər ailənin maddi rifahından məsuldur | Ər-arvadın hər ikisinin iqtisadi müstəqilliyinin artması ailədə bərabərliyə səbəb olur<br><br>Müxtəlif sahələrdə ailə biznesinin/müəssisələrinin artması |
| **Sosial-status** | Patriarxal ailə tipi (kişinın üstünlüyü/qaydaları əsasında) | Biarxat-ikitərəfli (ər-arvadın bərabərliyinə əsaslanan) ailə tipi<br><br>Yeni mədəni bir stereotipin - cəmiyyətdə qadınların üstünlük təşkil etməsi baxışının ortaya çıxması |

Cədvəldən göründüyü kimi, müasir ailə modeli ənənəvi modeldən xeyli dərəcədə fərqlənir. Zamanın gedişində ailənin bir çox ənənəvi funksiyaları dəyişib, bəziləri isə sıradan çıxmaqdadır. Xüsusən də, XX əsrdə bu proseslər açıq şəkildə özünü göstərdi: köhnə ənənələr unudulur, yeniləri isə hələ tam formalaşmayıb.

Qeyd edilməli olan ilk və ən vacib fərq ailənin struktur dəyişikliyinə uğramasıdır. Azərbaycan üçün nəsillərin varisliyinə əsaslanan ənənəvi geniş ailə (baba, nənə, ata və anaların birgə olduğu) modeli əsrlər boyu səciyyəvi olmuşdur. Hazırda bu model artıq tarixə qovuşmaqdadır.

Ailənin digər institutlardan fərqi odur ki, makrososioloji aspektdə ailə cəmiyyətdə ən vacib - reproduktiv və sosiallaşma funksiyalarının yerinə yetirilməsini təmin edir ki, bunlar olmadan bəşər sivilizasiyasının mövcudluğu ümumiyyətlə mümkünsüz olardı. Beləliklə, ailə dolayısilə həm də bütün sosial institutların təməlini təşkil edir. Bu mənada ailənin inkişaf və problemlərindən bəhs edildikdə, bütövlükdə cəmiyyətin inkişafındakı məsələlər və problemlər əhatə edilir.

Ailə insan-vətəndaş və dövlət arasında vasitəçi, nəsildən-nəslə keçərək yaşayan fundamental dəyərlərin ötürücüsü kimi unikal sosial funksiyalara malikdir. Ailə özündə sosial inkişaf, əməyin təkrar istehsalı və vətəndaş münasibətlərinin formalaşması proseslərinə təsir etmək üçün güclü bir potensial ehtiva edir.

Ailə sosial qarşıdurmaya və gərginliyə müqavimət göstərərək, birlik, ahəng/konsolidasiya funksiyasını yerinə yetirir. Bu baxımdan müasir cəmiyyətdə ailə institutu ilə baş verən dəyişikliklərin nəzərdən keçirilməsi fövqəladə əhəmiyyətə malikdir.

## 2.3. Alternativ ailə modelləri ailənin transformasiyasında böhranın vektoru kimi

**Ötən əsrdən etibarən intensivləşən ailə tədqiqatlarında ailə institutu ilə bağlı baş verən problemlərin tədqiq edilməsinə münasibətdə iki nəzəri-metodoloji yanaşma fərqləndirilir:**

***1. Ailənin mövcud vəziyyəti dünyada monoqam ailə modelinin böhranı aspektində öyrənilir;***

***2. Ailə fenomeni onun struktur elementlərinin transformasiyası nöqteyi-nəzərindən araşdırılır.***

Çoxsaylı mövqelərdən biri də bundan ibarətdir ki, reallıqda ailənin deyil, nikah-evlilik institutunun böhranından danışmaq daha uyğun yanaşmadır. Çünki baş verən proseslərdə daha çox dəyişikliklərə uğrayan məhz nikah münasibətləridir. Ailənin tarixən formalaşan sosial birlik, dəyər obrazı nikah münasibətlərindən ayrı qavranmaqda, dünyagörüşlərdə qalmaqdadır.

Müasir ailənin təkamül və dinamikasının əsas istiqamətlərindən biri ailənin kollektiv-sosial institut formatından qrup formatına doğru meyillənməsidir. Bu o deməkdir ki, müasir ailədə iqtisadi funksiyaların zəifləməsi baş verir. Ailədə aparıcı yeri psixoloji atmosfer, ər-arvadın şəxsi qarşılıqlı münasibətləri tutur. Maraqlı məqam kimi tədqiqatçılar tərəfindən ailənin ən vacib funksiyaları qismində tanınan reproduktiv (nəsil artımı) və tərbiyə funksiyalarının zəifləməsi ilk növbədə ailənin sosial statusunun tənəzzülü və böhranı kimi ifadə edilirsə, başqa ailə funksiyalarında baş verən dəyişikliklər daha çox transformasiya kimi qiymətləndirilir.

Klassik sosiologiyanın yaradıcılarından olan, struktur funksionalizm nəzəriyyəsinin banisi Emil Dürkheymin proqnozları XXI əsrdə özünü doğrultmuş kimi görünür. O hesab edirdi ki, "ailədə həyat yoldaşlarının, valideynlərin həmrəyliyi" cinslər arasında əmək bölgüsü əsasında yaranır. Dürkheymə görə, əmək bölgüsü "müəyyən bir mümkün həddən də aşağıya doğru gerilsəsə ...nikah-evlilik birliyi yox olacaq, öz yerini müvəqqəti cinsi münasibətlərə verəcək; əgər cinslər ekzistensial-gender varlıq olaraq bir-birindən tamamilə fərqli olmazsa, sosial həyatın bütöv bir forması ortaya da çıxmazdı, yaxud da bu baş verərsə, yox olacaq".

Təəssüflər olsun ki, alternativ ailə formalarının meydana çıxması və sürətlə artması prosesləri E.Dürkheymin bu uzaqgörən proqnozunu təsdiqləyə bilər.

Belə ki, Dürkheymin məntiqindən çıxış etsək, təkvalideynli ailələrin çoxalması, ailələrdə ata iştirakının zəifləməsi ilə müşayiət olunan "monoqam nikah modelinin" böhranı, alternativ - “eynicinsli nikah” modelinin ortaya çıxması və s. tendensiyalar ilk növbədə gender cinsiyyət rollarının universalizasiyası, modifikasiyası, feminizmin, cinsi azlıqların (LGBTİ-Lesbian, Gay, Bisexual, Trans and İntersex) radikal qollarının güclənməsi, təbliği və yayılması ilə bilavasitə əlaqəlidir.

Ailə strukturundakı son dəyişikliklər, ənənəvi ailənin tənəzzülünü göstərən əlamətlərdən biri də alternativ ailə formalarının ortaya çıxması və yayılmasıdır. Alternativ ailə formalarına birvalideynli (natamam) birgə yaşayan cütlüklər, eynicinsli ailələr, könüllü övladsız evliliklər (subay valideynlik), nikahsız birgə yaşayan cütlüklər və s. aiddir. Bu yeni formalar bir tərəfdən birgə yaşamaq, ortaq yaşayış məkanını bölüşməklə, heç bir hüquqi-qanuni, mədəni və ya dini sanksiya olmadan mövcud olan yaxın münasibətlərə əsaslanır. Digər tərəfdən, “eynicinsli nikahlar” kimi qanuni-leqal əsaslar tələb edən alternativ ailə formaları da mövcuddur.

Tədqiqatçılar tərəfindən yeni ailə formalarının heç də mütərəqqi sayılması təsadüfi deyil. Belə ki, yeni “ailə innovasiyaları” ilə ailənin tarixən formalaşan sosial funksiyalarının sıradan çıxmasını heç nə əvəz etmir, ortada böyük və təhlükəli bir boşluq yaranır. Təsadüfi deyil ki, artıq araşdırmalarda belə bir qənaət də qəbul edilir ki, “XXI əsrdə ailənin üzləşdiyi ən böyük problem ailənin ümumiyyətlə olmaması, tədricən yoxa çıxmasıdır”.[10] Məsələn, Yaponiya kimi iqtisadi cəhətdən inkişaf etmiş bir ölkədə artıq iqtisadi böhran deyil, ailənin böhranı ilə ortaya çıxan demoqrafik problemlərin iqtisadiyyatı çökdürmə potensialı “kabus” hesab edilir. Rekord dərəcədə aşağı doğum nisbəti, yaşlı əhali sayının çoxalması, “subaylıq sindromu” (34 yaşınadək gənclər yaxın münasibətlərdən “çəkinir”) nəticəsində ölkədə artıq işçi qüvvəsi çatışmır.

Qərb ölkələrində ər-arvadın ortaq qərarla ayrı şəkildə, çox vaxt müxtəlif şəhərlərdə və hətta ölkələrdə yaşaması geniş yayılmışdır. Ər-arvad qanuni nikahda ola da, olmaya da bilər, yaxud da ortaq bir uşağa sahib ola və olmaya da bilər. Bu münasibət forması Avropalı mütəxəssislər tərəfindən "qonaq, səfər nikahı" adlanır, LAT ("living apart together" - "birlikdə ayrı yaşamaq") kimi müəyyən edilir.[11]

Hesab edilir ki, XXI əsrdə birgəyaşayışın bu ailə forması yeni bir sosial institut kimi, xüsusən də karyera və professional seçimə üstünlük verən həyat yoldaşları arasında geniş yayıla bilər. Əsas kimi əmək bazarındakı coğrafi disbalans səbəbinə görə ər-arvadın başqa bölgələrdə, hətta ayrı ölkədə işləmək üçün ayrılmaq məcburiyyətində qalması gətirilir. Amerikada familistik tədqiqatlarda, xüsusilə də imkanlı, tanınmış şəxslərin "serial nikah-evlilik" termini ilə ifadə edilən proseslər geniş yayılmışdır. Sözügedən kateqoriya şəxslərin evlilik tərəfdaşının ardıcıl dəyişməsi norma halına gəlib. Son vaxtlara qədər uşaqlar təkrar evlilik üçün maneə sayılırdısa, artıq vəziyyət dəyişib.

## 2.4. Alternativ nikah/evlilik formaları sırasında “eynicinsli nikahlar”

Ailənin transformasiyası amillərindən biri kimi alternativ nikah/evlilik formalarının ortaya çıxması və yayılması vurğulanır. "Eynicinsli nikah" anlayışı ilk dəfə 2000-ci ildə Oksford Lüğətində əksini tapıb. "Eynicinsli nikah" klassik-ənənəvi ailə dəyərlərini alt-üst edən, tamamilə fərqli əxlaqi və etik normalara, fərqli məntiqə əsaslanan hadisədir. Cinsi azlıqların qlobal sosial hərəkat adı altında mütəşəkkil şəbəkələşməsi hazırkı temp, miqyas və sürətlə davam edərsə, son nəticədə bütün cəmiyyətin, ən pisi isə ailə institutunun, həyat tərzinin, nəticədə siyasi elitaların həyat strategiyasına çevrilmə tendensiyası gerçəkliyə çevrilə bilir. Bu "məntiq"in cəmiyyətin sosial davranışında aparıcı meyilə çevrilməsi şəraitində proseslərin özünü məhv etməyə yönəldiyinə şübhə yeri qalmır. Belə ki, "azlıqların" mütəşəkkil səfərbərliyinin son nəticədə çoxluqları sıxışdıraraq yoxa çıxarması ehtimal deyil, tarixdən məlum olan reallıqdır.

Bu tendensiyaların güclənməsi, si-

[10] Главная проблема семьи XXI века: отсутствие семьи. // https://regnum.ru/news/society/2522716.html

[11] Trost, J. LAT relationships now and in future. In: K. Matthijs (Ed.), The family:Contemporary perspectives and challenges. Leuven University Press,1998, p.210.

**Eyni cinsli birliklərə qanunla icazə verən ölkələr**

**2000**
- Niderland

**2003**
- Belçika

**2005**
- Kanada
- İspaniya

**2006**
- Cənubi Afrika

**2009**
- Norveç
- İsveç

**2010**
- Argentina
- İslandiya
- Portuqaliya

**2012**
- Danimarka

**2013**
- Braziliya
- İngiltərə / Uels
- Fransa
- Yeni Zelandiya
- Uruqvay

**2014**
- Lüksemburq
- Şotlandiya

**2015**
- Finlandiya
- İrlandiya
- ABŞ

**2016**
- Kolumbiya
- Qrenlandiya

**2017**
- Avstraliya
- Malta
- Almaniya

**2019**
- Avstriya
- Tayvan
- Şimali İrlandiya

**2020**
- Kosta Rika

vilizasiyaların, yaxud Böyük Roma imperiyasının süqut taleyini təkrarlaya biləcəyi deməkdir. Məlum olduğu kimi, süqut və iflasın səbəbləri sırasında həlledici amil mənəvi böhranlarla şərtləndirilən demoqrafik böhranın da sürətləndirdiyi çöküş prosesləridir. Hazırda Qərbin - artıq bütün Avropa sivilizasiyasının oxşar problemləri yaşaması çoxsaylı tədqiqatçılar tərəfindən qeyd edilir.

İlk dəfə alternativ nikahı leqallaşdıran ölkələr müvafiq qanun qəbul edən Niderland (2000), Belçika (2003) və Kanada (2005) olub. Belə ki, artıq dünyanın 29 ölkəsində eynicinsli nikah leqallaşdırılıb ki, bu, kiçik rəqəm hesab edilmir. Bu ölkələrin 16-sı Avropada, 9-u Amerika qitəsində, 3-ü Asiya və Okeaniyada,1-i Afrikada yerləşir.

Qeyd edilən dövlətlər eynicinsli evlilik formasını leqallaşdırmaq üçün əsas arqument kimi “insan hüquqları” siyasətini, o cümlədən “fərqli” olmaq hüququnu göstərirlər. Burada ən arzuolunmaz tendensiya həmin əsasın sivilizasion baxımdan fərqli olan bütün dövlətlərdə tətbiq etmək səyləridir. Bu istiqamətdə bəlli mərkəzlər bütün dünyada aşkar təbliğat aparır. İnsan haqlarını geosiyasi təzyiq vasitəsinə çevirməklə, daxili işlərə müdaxilə edirlər.

"Pyu" Araşdırma Mərkəzinin (Pew Research Center) məlumatına görə, Avropada eynicinsli birliklərə qanunla icazə verməyən yalnız İtaliya və İsveçrə qalıb. Orta və Şərqi Avropada isə heç bir ölkə hələlik bu addımı atmayıb. Afrika qitəsində Cənubi Afrika Respubikası (CAR) “eynicinsli nikahları” leqallaşdıran yeganə ölkə olaraq qalır.

**Xəritədəki yaşıl rənglənmiş ölkələr dünyada cinsi azlıqların hüquqlarının qorunması ilə bağlı qanunvericiliyi qəbul edən ölkələrdir.**




## 2.5. Beynəlxalq Ailənin İnkişafı Federasiyasının (IFFD) "Ailənin trendləri" ("Family trends") adlı qlobal hesabatından əsas tezislər

2024-cü ildə BMT tərəfindən təsis edilən "Beynəlxalq Ailə İli"nin 30-cu ildönümü qeyd ediləcək (Thirtieth Anniversary of the International Year of the Family, 2024 - IYF+30). Bu yubileyə hazırlıq tədbirləri çərçivəsində Birləşmiş Millətlər Təşkilatı və onun yanında məsləhətçi statusuna malik olan Beynəlxalq Ailənin İnkişafı Federasiyası"(International Federation for Family Development-BAİF-IFFD) ailə institutu ilə bağlı qlobal meqatrendlər və onların həlli üçün həssas ailə yönümlü dövlət siyasətinin həyata keçirilməsi məqsədilə üzv dövlətlərdə məlumatlılığı artırmağı hədəfə alıb.

Beynəlxalq Ailənin İnkişafı Federasiyası bu məqsədlə "Ailənin trendləri" (Family trends) adlı Qlobal Hesabat hazırlayıb.[12] Federasiya bütün dünyada dövlətin ən yaxşı sosial strategiyasının ailə mərkəzli və ailə perspektivli olmasını əsas göstərici kimi qəbul və müdafiə edir.

BAİF-in "Beynəlxalq Ailə İli"nin (IYF + 30) otuzuncu ildönümünü qeyd etmək üçün hazırlanan tədbirlər planında BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin qlobal ekspertləri ilə birgə, BMT Baş katibinin müəyyən etdiyi, XXI əsrdə ailələrə təsir edən, dəyişikliklərə təkan verən əsas tendensiyaları müəyyən etmək qərara alınıb. [13]

**Hesabatda başlıca tendensiyalar kimi aşağıdakılar vurğulanıb:**

***1. Yeni texnologiyalar;***

***2. Urbanizasiya (şəhərləşmə);***

***və beynəlxalq miqrasiya:***

[12] https://www.un.org/en/observances/international-day-of-families

[13] https://iffd.org/

*3. Demoqrafik dəyişikliklər;*

*4. İqlim dəyişiklikləri.*[14]

**BAİF 2024-cü il və sonrakı illərə nəzər salarkən müasir dünyada ailə institutunun qarşılaşdığı aşağıdakı problemləri hədəfə alır:**

***1. Ailənin üzləşdiyi qlobal megatrendlər və üzv dövlətlər üçün bununla bağlı tövsiyələrin hazırlanması;***

***2. Davamlı İnkişaf üçün Minilliyin İnkişaf Məqsədləri (MİM-SDG);***

***3. Ailələr üçün pandemiyadan öyrənilən dərslər;***

***4. Strateji tərəfdaşlıq kampaniyası.***

2019-cu ilin sonunda Beynəlxalq Ailə İnkişafı Federasiyasının (IFFD) Londonda keçirilən beynəlxalq konqresi zamanı qlobal miqyasda fəaliyyət göstərən Beynəlxalq ailə profilli QHT zirvəsi baş tutub. Konqresdə ailə problemləri sahəsində çalışan qlobal vətəndaş cəmiyyəti təşkilatları "Beynəlxalq Ailə İli"nin 30-cu ildönümü ilə bağlı hazırlıqlara başlamağı qərara alıblar. Həmçinin, dünya miqyasında strateji tərəfdaşlarla əlaqəli kampaniyanı reallaşdırmaq yönündə 2024-cü və sonrakı illərdə müəyyən fəaliyyətin təbliği üçün "Vətəndaş Cəmiyyəti Bəyannaməsi" qəbul edilib.

**Bəyannaməni imzalayan beynəlxalq ailə təşkilatları aşağıdakılardır:**

- Beynəlxalq Ailə İnkişafı Federasiyası (International Federation for Family Development-IFFD)
- Birləşmiş Nəsillər Təşkilatı (Generations United-GU)
- Milli Geniş Ailələr Assosiasiyası (National Association of Large Families-NOE)
- Doha Beynəlxalq Ailə İnstitutu (Doha International Family Institute-DIFI)
- Avropanın Evdə Valideynlər və Qayğı Sistemi (European at-home Parents and Carers -FEFAF)
- Haro Ailə Siyasəti Platforması (Haro's Platform on Family Politics-Haro)
- Avropanın Geniş Ailə Birliyi (European Large Family Association-ELFAC)

Bundan əlavə, regional ekspert qruplarının görüşləri və fokus qruplar və s. də sözügedən istiqamətdə cəlb edilir.

**"Ailə siyasəti və yeni texnologiyalar: rəqəmsal dövrdə ailə mərkəzli siyasət" mövzusunda I Beynəlxalq Konfrans "Projekt PL" təşkilatı tərəfindən BAİF-lə birgə təşkil edilib. Konfransda cavabları axtarılan əsas suallar bu şəkildə olub:**

*- Yeni texnologiyalar və rəqəmsallaşdırma ailələrlə necə bir araya gətirilə bilər?*

*- Cəmiyyətlərin rəqəmsallaşması ailə həyatına hansı çətinliklər gətirir?*

*- Dövlət bu sahəni tənzimləməlidirmi?*

*- Ailə yönümlü siyasət tətbiq edən sahibkarlara hansı güzəştlər edilməlidir?*[15]

Yekdilliklə qəbul edilən qənaət bütün dünyadakı ailələrin dəyişikliyə uğraması, çoxuşaqlı ailələrin sayının azalması, təkvalideynli ailələrin sayının isə getdikcə yüksələn xətt üzrə çoxalması olmuşdur. Geniş ailələrin sayının azalması və təkvalideynli ailələrin sayında yüksək artım qlobal miqyasda sosial müdafiə məsələsini daha da kəskinləşdirib.

Getdikcə daha çox qadın rəsmi və qeyri-rəsmi işçi qüvvəsi rolunda iştirak etdikcə, kişilərlə müqayisədə ev işinin qeyri-mütənasib ağır yükünü də öz üzərinə götürməkdə davam edir ki, bu da ailə və iş arasında tarazlığa nail olmağı çətinləşdirir. Bu səbəbdən ailədaxili münasibətlərin tənzimlənməsinə, anlaşmanın təmin edilməsinə ehtiyac daha da artır. Ailələrə təsir edən sürətli şəhərləşmə (urbanizasiya) və "evsiz ailələr" (family homelessness) probleminin davamlı artması kimi əlavə tendensiyalar daha çox narahatedici meyillərdəndir. Aşağıdakı alt hissələrdə bu məsələlər daha ətraflı müzakirə olunur. Evsiz ailələrin problemi - "Ailə evsizliyi" (family homelessness) ilə bağlı araşdırmalar göstərir ki, bu sahədə ümumi tendensiya artmağa doğru gedir. Bəzi Avropa ölkələrində evsiz ailələr ümumi evsiz əhalinin 20%-indən çoxdur. Bənzər tendensiyalar evsizlərin 33%-nin uşaqlı ailələr olduğu Amerikada, ev təsərrüfatlarının 37%-nin mənzillərinin təmin edilmədiyi, bundan daha çox ailənin müvəqqəti mənzillərdə yaşadığı Kanadada da müşahidə edilə bilər.[16] Evsiz ailələr arasında həmin ölkələrdə onillərlə yaşamalarına baxmayaraq, evlə təmin edilə bilməyən miqrant ailələri

[14] https://familyperspective.org/2021/01/21/towards-2024-beyond/

[15] 1st International Conference "Family-responsive policies in the Digital Era"// https://www.youtube.com /watch ?v=wA8Io-SapyIE

[16] National Alliance to End Homelessness, State of Homelessness database, available at https://endhomelessness.org/homelessness-in-america/homelessness-statistics/state-ofhomelessness-report/ (accessed on 27 August 2019); and Quinn, "The impact of personal and family circumstance on homelessness"

çoxluq təşkil edir.

İnkişaf etmiş ölkələrdə evsiz ailələrin problemlərinin səbəbləri daha çox işsizlik, ailə münasibətlərinin pozulması və zorakılıqdan xilas olmaqdır. İnkişaf etməkdə olan ölkələrdə isə ailə evsizliyinin səbəbləri daha mürəkkəbdir. Burada ailənin dəstək ənənəsi və zəncirləri qırılarsa, uşaqlar və yaşlı insanlar ən həssas riskli, evsizlər qrupuna çevrilir. Boşanma, qadınların ayrılması və tərkedilmə səviyyəsinin çoxalması da qadın evsizliyinin (female homelessness), təkanalı-valideynli ailələrin sayının artmasına səbəb olur. Bu isə ən yoxsul təbəqələşməyə aparan meyilə çevrilir.[17]

BMT konfransında səslənən digər fikirlərə görə, evsiz ailələrin sayı və təcrübəsi haqqında dünya üzrə statistik data baza boşluğu var. Rəsmi xidmətlər ilə təmasda olmayan evsiz insanlar haqqında məlumatlar etibarsız və natamamdır, reallıqda vəziyyət daha acınacaqlıdır. Şimali Amerikada aparılan bəzi araşdırmalar göstərir ki, tək ana-valideynli evsiz və uşaqlı qadınlar rəsmi qurumlar, evsizlərə yardım xidmətləri ilə əlaqə qurmaqdan daha çox əhatəsi, ailələri və dostlarının köməyi ilə dolanmağa çalışırlar.

Ailə evsizliyi problemini həll etmək üçün bəzi hökumətlər həssas ailələrə sosial müdafiə və sosial evlər təklif edirlər. Bu sahədəki yaxşı təcrübələr arasında Niderlanddakı bütün ixtisaslı kirayəçilərə birbaşa maliyyə yardımı etməklə bağlı tədbirlər, ABŞ-dakı vauçer sistemi, həmçinin şəhərdəki yoxsullara əlverişli mənzillər təqdim edən Hindistandakı "Pradhan Mantri Awas Yojana" evlə təminat sxemi qeyd edilir. İrlandiyadakı "Sophia Housing" və Avstraliyadakı "Şiddətə Qarşı Mübarizə Mərkəzi" kimi xidmətlər ailə evsizliyinin azalmasına töhfə verə bilirlər.

Finlandiyanın "İlk öncə mənzil" prinsipi ilə qısa vaxtda mənzil seçimlərinin, sığınacaqların və təcili yaşayış yerlərinin əvəzlənməsi üçün dəstəklənən kirayə evlərin təmin edilməsi ilə bağlı Milli Fəaliyyət Proqramı uğurlu nəticələrə nail olub.

Cənubi Afrikada hökumət ailə evsizliyinin artmasının qarşısını almaq və mənzil çatışmazlığını həll etmək üçün "İctimai İş Proqramı"nı tətbiq edir və bununla da evsizləri ictimai iş müddətində pulsuz mənzillə təmin edir.[18]

Dövlətin ailə mərkəzli siyasətinin milli səviyyədə yoxsulluğun azaldılması və sosial müdafiəyə töhfə verə biləcəyini qeyd edən BMT-yə üzv dövlətlər "Beynəlxalq Ailə İli"nin əsas hədəflərindən birinin ailələrin qarşılaşdığı problemlərə reaksiya verilməsində müvafiq siyasətlərin hazırlanması və həyata keçirilməsi üçün milli qurumları daha da gücləndirmək olduğunu vurğulayıb. Bu hədəfə çatmaq üçün milli səviyyədə irəli sürülən təşəbbüslər alqışlanır. Üzv dövlətlər uşaqlı ailələr üçün "iş-ailə balansının" yaxşılaşdırılmasına yönəlmiş bir sıra təşəbbüsləri həyat keçirib. Məsələn, valideynlərin işlərini ailə vəzifələri ilə daha yaxşı tarazlaşdırmalarına kömək etmək üçün Avropa Birliyi tərəfindən yeni "İş balansı" təlimatı qəbul edilib. Yaxud Avropa Birliyinə üzv bəzi dövlətlər valideynlik məzuniyyətinə dair qanunvericiliyi təkmilləşdirib; yeni atalığa görə məzuniyyətin müddətini artırıb və valideyn məzuniyyətinə çıxma müddətini uzadıb.

Bir sıra orta gəlirli ölkələrdə hamiləliyə görə müavinətlərin siyahısı genişləndirilib və qadınların işçi qüvvəsində iştirakını artırmaq üçün uşaq baxımı qaydalarında dəyişikliklər edilib.

Bəzi üzv dövlətlər evdə uşaqlara qulluğun valideynlər arasında bölüşdürülməsinin qarşılıqlı "iş və ailə" məsuliyyətlərini tarazlaşdırmasına kömək etdiyi fikrini də qəbul ediblər. Bəziləri özəl sektorda fəaliyyət göstərən şirkətlərə azyaşlı uşaqları olan valideynləri məşğulluğa cəlb etmək üçün stimullar paketini hazırladıqlarını bildiriblər.

Bəzi ölkələrdə analar və ya atalar üçillik valideyn məzuniyyəti və məzuniyyətdən əvvəl işə qayıtmaq üçün zəmanətli fürsət əldə edə bilərlər. Bu cür tədbirlər qadınların işçi qüvvəsində iştirakının artmasına kömək etmişdir. Bundan əlavə, bəzi üzv dövlətlər gənc atalar üçün yeni sosial proqramlar və yeniyetmə anaların formal məktəb sisteminə inteqrasiyasını təmin etdikləri barədə məlumatlar təqdim ediblər.

BMT-nin Beynəlxalq Ailənin İnkişafı Federasiyası üzv dövlətlərdə ailələr üçün sosial proqramlar sahəsində həyata keçirilən yeni təcrübə və təşəbbüslərin icmalını da hazırlayıb. Qeyd edilir

[17] Suzanne Speak, “The state of homelessness in developing countries”, paper presented at the expert group meeting on affordable housing and social protection systems for all to address homelessness, Nairobi, May 2019; European Observatory on Homelessness (EOH), Family Homelessness in Europe: EOH Comparative Studies on Homelessness (Brussels, 2017).

[18] Jean Quinn, “The impact of personal and family circumstance on homelessness ”, paper presented at the expert group meeting on affordable housing and social protection systems for all to address homelessness, Nairobi, 22–24 May 2019.

ki, məsələn, İndoneziyada qəbul edilən dövlət ailə siyasəti - "Ailə Ümid Proqramı" (Family Hope Programme) yeni sosial müdafiə təşəbbüsüdür. Proqram çərçivəsində aşağıgəlirli ailələrə pulsuz sağlamlıq sığortası, 12 illik pulsuz təməl təhsil, əlillər və yaşlı insanlar üçün yardım imkanı təmin edən sosial güzəştlər verilir. Proqramın reallaşdırıldığı ilk dövrdə - 2016-2018-ci illər arasında yoxsulluq səviyyəsinin 0,52% azalması müşahidə edilib.

Küveyt dövlətində "2030-Məqsədlər (Gündəlik)" (2030-Agenda) çərçivəsində ailələr üçün sosial proqramlar hazırlanıb. Xüsusilə iqtisadi və sosial cəhətdən imkansız əhali üçün ailə rifahını təşviq etmək məqsədilə yeni sosial siyasət tətbiq edilir.

Keniyada "Analıq və Sağlamlıq Sığortası" proqramları tətbiq olunur, əlillər və yaşlı insanlar da daxil olmaqla həssas üzvləri olan ailələrə maddi dəstək verilir.

Paraqvayda ailə başçısı qadın olan ailələr həssas qrup hesab edilir. Yoxsulluğun nəsildən-nəslə ötürülməsinin qarşısını almaq üçün azgəlirli ailələrə mənzil subsidiyaları təklif edilir.

Filippində ailələrə sosial vəziyyətinə görə ünvanlı pul köçürmələri təmin edilir

Seneqal hökuməti “Milli Ailə Sığortası Qrant Proqramı”nı həyata keçirir.

Fələstində kasıb ailələrə sosial müavinətlər verilir. Proqram yerli və beynəlxalq yardımlar vasitəsilə maliyyələşdirilir. İsveçrədə azyaşlı uşaqları olan aşağıgəlirli həssas ailələrə yardım göstərilməsi milli prioritetdir. Ukraynada 18 yaşınadək uşağı olan bütün ailələrin 38%-ini təşkil edən 2,1 milyon ailəyə uşaq pulu verilir. Taylandda yeni doğulmuş körpələri olan, aztəminatlı və yoxsulluq riski altında olan ailələrə sosial dəstək proqramları mövcuddur.

BMT-nin Beynəlxalq Ailənin İnkişafı Federasiyasının hazırladığı Qlobal Hesabatda ölkəmizin də adı çəkilir. Burada yeni təşəbbüs və yanaşmaların olması ilə bağlı heç bir məlumat əksini tapmayıb: “Digər ölkələr arasında Azərbaycan, Banqladeş, Cibuti, Misir, Gvineya, Myanmar, Pakistan və Rumıniyada həssas ailələrin sosial müdafiə təminatları mövcuddur. Macarıstan və Polşa da daxil olmaqla bəzi ölkələr uşaqların məktəbə getdiyi illərdə ailələrə sosial güzəştlər edirlər.”

Avropa Birliyinə gəldikdə, burada ailənin iş və ailə həyatının balanslaşdırılması bir çox ailə üçün başlıca problem olaraq qalır. Bu sahədə ailələr üçün uşaqlara və yaşlı insanlara qulluqla yanaşı olaraq, həm də öz həyatı və karyerasını necə qurmaq yönündə problemlərdən çıxış yolları ilə bağlı tədbirlər və həllərin tapılması üzərində davamlı iş gedir.

Qlobal Hesabatda əksini tapan məsələlər sırasında müxtəlif ölkələrdə ailədə zorakılığın qarşısının alınması tədbirləri də gündəmdədir. Mərakeşdə qadınları məişət zorakılığından qorumaq üçün yeni tədbirlər görülüb. Həmrəylik, Sosial İnkişaf, Bərabərlik və Ailə Nazirliyinin nəzdində uşaq hüquqlarının qorunması ilə bağlı Milli Monitorinq Mərkəzinin yaradılması dövlət uşaq siyasətində yeni addımdır. Qırğızıstanda uşaqların qorunması da daxil olmaqla ailə qanunvericiliyinin təkmilləşdirilməsi yönündə tədbirlər görülüb. İngiltərədə inklüziv və çevik, konkret ailələrə diferensial yanaşmanı nəzərdə tutan ailə siyasətinə önəm verilir (bazar iqtisadiyyatı yönümlü ailə siyasət modeli).

BMT-nin BAİF təşkilatının hesabatına görə, “Ailə siyasətinin təkmilləşdirilməsində əsas diqqət qlobal trend olaraq, analıq məzuniyyətindən valideyn(lərin) məzuniyyətinə keçid alınması, uşaqlara qulluqla bağlı bütün sosial tədbir və infrastrukturun diqqət mərkəzində saxlanılması, sahənin ardıcıl dəstəklənməsinə yönəldilmişdir.[19] "İş və ailə tarazlığının" təmin edilməsində, fərdi məsuliyyətdən ortaq məsuliyyətə keçid, ailə-fərdi məsələ kimi yanaşmadan "dövlət, özəl sektor, işəgötürənlər və ailələr arasında paylaşılan ortaq kollektiv məsuliyyət" olaraq yanaşılan siyasətə keçid hədəf olaraq görülür. Valideyn qayğılarını və stresini azaltmaq yolu ilə ailə rifahını artırmağa yönələn ailə mərkəzli siyasət, "daha xoşbəxt ailə, daha sağlam uşaqlar və daha uğurlu sahibkarlıq" formatının təşviqi yeni səviyyə olaraq müəyyən edilir.[20]

BMT-nin gender bərabərliyi uğrunda "O - Onun üçün" (HeForShe) qlobal həmrəylik hərəkatı çərçivəsində ataların ailələrdə malik olduğu həlledici ye-

[19] UNICEF, “Family-friendly policies: redesigning the workplace of the future”, policy brief, July 2019

[20] United Nation. General Assembly Economic and Social Council. Seventy-fifth session.Implementation of the objectives of the International Year of the Family and its follow-up processes Report of the Secretary-General. Economic and Social Council Seventy-fifth session 2020 session 25 July 2019–22 July 2020// https://undocs.org/A/75/61%E2%80%93E/2020/4

rinin və rolunun əhəmiyyəti qəbul edilmişdir.[21]

Bu hərəkat tərəfdarları valideynlərin gələcək nəsli birlikdə yetişdirmələrini stimullaşdırmaq üçün valideynlik təcrübələrini və sosial dəstək güzəştlərini ortaq bölüşməyi təşviq edir, yalnız analığın deyil, ümumi valideyn-atalıq məzuniyyətinin təmin edilməsini müdafiə və təşviq edir. BMT-nin Gender Bərabərliyi və Qadınların Hüquq və İmkanlarının Genişləndirilməsi Təşkilatı (UN-Women) qadınların 2019-2020-ci illərdəki inkişafına dair hesabatında dəyişən dünyadakı ailələrə diqqət yetirilməsini, ailə institutunun ümumbəşəri mədəni və iqtisadi inkişaf üçün əhəmiyyətini vurğulayaraq xəbərdarlıq edir. Ailələrdə zorakılığın geniş yayılması, qadınlara qarşı ayrı-seçkilik vəziyyətinin aradan qaldırılmasını şərtləndirən ailə qanunvericiliyi sahəsində islahatların hələ də ləng sürətlə aparılması qeyd edilir.

## 2.6. Beynəlxalq Ailə QHT-lərinin ailə problemlərinə baxışı

İstər milli dövlətlər, istərsə də beynəlxalq təşkilatlar ailə məsələlərinin həllində vətəndaş cəmiyyətinin daha fəal təşəbbüs göstərməsini təşviq edir. Bu istiqamətdə “Beynəlxalq Ailə QHT Təşkilatları” müəyyən edilməklə əlaqələndirilmiş fəaliyyətə səy göstərilir.

Yuxarıda qeyd edilən Beynəlxalq Ailənin İnkişafı Federasiyası (International Federation for Family Development;BAİF-IFFD) uşaqların təlimi və tədrisi ilə məşğul olan qeyri-hökumət təşkilatıdır. Təşkilatın 70 ölkədə 240 ailə mərkəzi fəaliyyət göstərir. Hazırkı-sonuncu qlobal layihəsi “2024-cü il və sonrası” (TOWARDS 2024 & BEYOND) adlanır.

BAİF Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası (ECOSOC) yanında ümumi məsləhətçi statusuna malikdir və 1998-ci ildə Floridada keçirilən 14-cü Beynəlxalq Ailə Konqresində təsis edilib.

Onun yaranmasında 1978-ci ildə Romada keçirilən III Beynəlxalq Ailə Konqresində təsis edilən “Beynəlxalq Ailə Fondu” mühüm rol oynayıb. Sədr ABŞ-dan Jim Morgan, prezidenti isə belçikalı Marina Robbendir.

Beynəlxalq Ailə profilli QHT Təşkilatları - dünyada vətəndaş cəmiyyəti təşkilatları yerli, regional və beynəlxalq səviyyədə ailə mərkəzli təşəbbüsləri dəstəkləməkdə çox fəaldırlar. 2016-cı ildə Avropa Birliyinin Ailə Təşkilatları Konfederasiyası adlı təşkilat yaradılıb. Hazırda "COFACE Avropa Ailələri" adlanır. Avropa Birliyinə üzv ölkələri təmsil edən” COFACE Avropa Ailələri” (COFACE Families Europe) şəbəkəsi 2019-cu ildə Helsinki şəhərində “Uşaqlar üçün uyğun sağlam mühit formalaşdırmaq” adlı konfransda erkən uşaqlıq təhsili, ətraf mühit riskləri və ailə vəziyyətinin uşaqların sağlamlığı və rifahına təsirlərini nəzərə almağı, müxtəlif siyasət sahələrində uşaq sağlamlığı perspektivini gücləndirmək üçün proqramları reallaşdırmağı irəli sürüb.

Bundan əlavə, qitədəki geniş ailələr üçün birlikləri bir araya gətirən "Avropa Geniş Ailələr Konfederasiyası" (European Large Families Confederation) ailə rifahını dəstəkləmək, ən yaxşı təcrübələri mükafatlandırmaq və təşviq etmək, yerli miqyasda ailə siyasətlərinə dəstək vermək yönündə fəaliyyət göstərir.

Avropanın Ailə Dostu Bələdiyyələr Şəbəkəsi (The European Network of Family-Friendly Municipalities) AB ilə İtaliya arasında 2018-ci ildə Avropada uşaqlı ailələr üçün əlverişli, cəlbedici, mədəni, sosial və iqtisadi mühit yaratmaq üçün yaradılıb.

Kolumbiya La Sabana Universitetinin Ailə İnstitutu (The Family Institute of the Universidad de La Sabana) İFFD ilə birlikdə son 30 ildə ailə və onun kontekstində üç akademik bölmə vasitəsilə ailə və onun daxili dinamikası və s. problemlərlə bağlı qlobal və yerli səviyyələrdə tədqiqatlar aparır. Həmçinin, ailə mövzusunda məsləhətlər və valideynlər üçün təlim-təhsil proqramları təklif edir. İnstitut sonuncu dəfə "Dördüncü sənaye inqilabında ailə problemləri" mövzusunda BMT-nin İnklüziv Sosial İnkişaf bölməsi, UNICEF və Beynəlxalq Ailə İnkişafı Federasiyasının (Division for Inclusive Social Development, UNICEF and the International Federation for Family Development) iştirakçılığı ilə beynəlxalq konqres keçirib. Həmçinin Beynəlxalq Ailə İnkişafı

[21] UN-Women. HeForShe: 2019 Impact Report (New York, 2019). See also www.heforshe.org/en / movement.

Federasiyası, UNİCEF və İnklüziv Sosial İnkişaf şöbəsi ilə ortaq əməkdaşlıq edərək, "Davamlı İnkişaf Məqsədləri və Ailələr" (Sustainable Development Goals and families) adlı qlobal tədqiqat layihəsi həyata keçirib.[22]

Federasiya həmçinin Londonda "Ailənin daha da zənginləşdirilməsi" mövzusunda (Twentieth World Congress on Family Enrichment in London. 2019) 20-ci Dünya Konqresini keçirib. Konqresin mövzusunu "Ailə: insanlığın siması" (Family: The Face of Humanity) təşkil edib. Konqresdə valideynlik, uğurlu evlilik, ailə rifahı, ailə və texnologiya məsələləri, vətəndaş cəmiyyəti və valideynliyə töhfə və s. mövzular geniş müzakirə edilib.

“Anaların önəmini dərk edək" (Make Mothers Matter) təşkilatı Avropa İqtisadi və Sosial Komitəsi ilə birlikdə Beynəlxalq Ailələr Günündə “Dairəvi iqtisadiyyata nail olmaqda ailələrin rolu” adlı bir konfrans təşkil edib.[23] Tədbirdə ailələrin dairəvi iqtisadiyyata keçidinə töhfə verə bilməsi üçün üfüqi və şaquli səviyyələrdə birgə səyləri və əməkdaşlıq mexanizmləri müzakirə edilib.

Tədbirdə Avropa Birliyinin ən böyük elmi tədqiqat layihəsi olan "Horizon 2020" çərçivəsində anaları iqtisadiyyata necə cəlb etmək mövzusunda araşdırmanın nəticələri təqdim edilib.

BMT-nin "UNANIMA International" təşkilatı (mənası: “United Nations” - BMT və latın dilində “anima” - ruh sözlərinin birləşməsi) ailə evsizliyi və travma mövzusunda tədqiqat layihələri həyata keçirir. Təşkilat "Sophia Housing" və Nyu York Universiteti ilə ortaq işləyərək evsiz və köçkün yaşayan insanların ailə problemlərinə diqqəti cəlb etmək üçün istifadəsi vacib olan keyfiyyət və kəmiyyət data bazalarını toplayır. "UNANIMA İnternational" evsiz və köçkün yaşayan insanlar və ailələrin hüquqlarını, dünya səviyyəsində evsizlərin səslərini beynəlxalq səviyyəyə çatdırmaq üçün qlobal üzvlər və tərəfdaşlarla birgə ədbirlər hazırlayır. Təşkilat "Evsizliyə Son İşçi Qrupu"nun (Working Group to End Homelessness) təsisçi üzvüdür. UNANIMA İnternational 2019-cu ildə BMT-nin İnklüziv Sosial İnkişaf Bölməsinin iştirakı ilə təşkil olunmuş ailə evsizliyinin, xüsusilə də evsizlik və / və ya köçkünlük şəraitində yaşayan qadın və uşaqların, qızların sayının qlobal miqyasda yayılmasını, səbəblərini və aradan qaldırılması ilə bağlı intensiv fəaliyyət göstərir.

Özəl sektor, biznes sahəsi, yerli və qlobal transmilli biznes şirkətlərinin beynəlxalq səviyyədə ailə problemlərinin həllinə cəlb edilməsi və onların təşəbbüsləri də maraq kəsb edir. Məsələn, "Walmart" şirkətinin "Ailə və Korporativ Barış Mərkəzi" (Walmart Centre for Family and Corporate Concilation) xüsusilədə pandemiya dövründə iş və ailənin inteqrasiyası sahəsində ən yaxşı təcrübələr sərgiləyib. Həmçinin, iş-ailə balansını təşviq edən dünyanın ən qabaqcıl şirkətləri şəbəkəsi olan "Ailə Məsuliyyətli İşəgötürən İndeksi Klubu"un (IESE Family Responsible Employer Index Club) son on ildə keçdiyi yol və mütərəqqi təcrübəni demək olar. Bu fəaliyyət insanların ailə və iş məsuliyyətlərini tarazlaşdırmasına kömək edən strategiyaları əks etdirir. Biznes sahəsində təşkilati mədəniyyətə "korporativ ailə məsuliyyəti" anlayışını aşılamağı planlaşdıran Argentina şirkətlərinin də bir sıra uğur hekayələri təqdir edilir.

Nyu Yorkun "Ailə üzrə QHT Komitəsi" (The NGO Committee on the Family– New York) ailə ilə bağlı BMT-nin qəbul etdiyi qərar və siyasət sənədlərinin həyata keçirilməsini monitorinq edir. Üzv dövlətlərin siyasət, qanunvericilik və proqramlar vasitəsilə ailələrin yaxşılaşdırılmasına dair öhdəlik götürməsini izləməyə çalışır. Komitə hər ay ailəyə təsir göstərən beynəlxalq məsələlər və siyasətlər barədə ictimaiyyəti maarifləndirmək, uşaqların, valideynlərin və geniş ailə üzvlərinin rifahını təşviq etmək və ailənin möhkəmləndirilməsində cəmiyyətin rolunu dəstəkləmək üçün ailə ilə əlaqəli müxtəlif mövzularda görüşlər təşkil edir.

"Ailə üzrə Vyana QHT Komitəsi" (The Vienna NGO Committee on the Family) pandemiyadan əvvəl, 2019-cu ildə iki beynəlxalq forum təşkil edib. Birləşmiş Millətlər Təşkilatının Narkotik və Cinayətkarlıqla Mübarizə İdarəsi ilə birlikdə təşkil edilən bir forum Davamlı İnkişaf Məqsədləri çərçivəsində 2030-cu ilədək QİÇS epidemiyasına son qoymaq üçün qlobal səyləri birləşdirir. Valideynlərin ortaq səyləri ilə uşaq və

[22] Dominic Richardson.Key Findings on Families, Family Policy and the Sustainable Development Goals: Synthesis Report (Florence, Italy, UNICEF, 2018).

[23] Dairəvi iqtisadiyyat (qapalı tsikl iqtisadiyyatı) - ümumi mənada, resursların bərpasına əsaslanan, ənənəvi, xətti iqtisadiyyata alternativ (dairəvi) olan tullantısız iqtisadiyyatdır.

gənclərin internet mediada qorunmasına yönəldilən iş birliyi yönündə təşkil edilən "Ailələr və rəqəmsal mediadan istifadə" mövzusunda 3 forum keçirilib. Komitə Zalsburg Universiteti ilə erkən nikah praktikasının aradan qaldırılması istiqamətinə diqqət yetirən, rüblük "Beynəlxalq Ailələr" (Families international) bülletenini nəşr edir.

Beləliklə, beynəlxalq təşkilatların, BMT-nin ailənin üzləşdiyi qlobal meqa-trendlərlə bağlı son hesabatından da göründüyü kimi, dövlətlərin səmərəli ailə yönümlü/mərkəzli siyasəti yoxsulluğun azaldılması, gender bərabərliyinin təşviqi, iş-ailə balansının inkişafı, ailə evsizliyinin qarşısının alınması, rəqəmsal cəmiyyət şəraitində ailələrin üzləşdiyi problemlərin, demoqrafik məsələlərin tənzimlənməsi və s. istiqamətləri əhatə etməlidir.

Hər bir dövlətin sosial siyasəti ailə siyasəti ilə eyni mənalı olaraq başa düşülmür. Eyni zamanda, ölkədə ailə nə dərəcədə ahəngdə, tarazlıqdadırsa, uşaqlar firavan, mənəvi cəhətdən zəngin mühit ilə əhatə edilibsə, deməli, ən yaxşı sosial siyasət həyata keçirilir. Ailədaxili problemlər nə qədər azalmağa doğru meyillidirsə, dövlətin sosial siyasəti o dərəcədə uğurlu sayıla bilər. Bununla yanaşı, ailə siyasəti bu sahəyə xas olan özəllikləri ilə sosial siyasətin eyni hesab edilə bilməz. Çox hallarda bəzi dövlətlər məhz belə hesab etdikləri üçün ailə siyasətinin strateji mahiyyətini, spesifikasını dərk etmir. Buna görə də ailə institutu ilə bağlı problemlər artmaqdadırsa, deməli, sosial siyasətə təxirəsalınmaz korrektələr edilməklə yanaşı, müstəqil istiqamət kimi dövlət ailə siyasəti hazırlanmalı və həyata keçirilməlidir.

Digər tərəfdən, sosial siyasət özü də ailə mərkəzli olmalı, ailə kapitalına yatırımlara kömək etməlidir. Nəsillərarası həmrəyliyin təmin edilməsi və uşaqlar üçün firavan böyüyəcəyi təbii mühit qismində ailələrə investisiya qoyulması bu səbəbdən çox vaxt ən yaxşı sosial müdafiə strategiyası hesab edilir.

Qadınlar və kişilər üçün iş-ailə balansının yaxşılaşdırılmasının ailələrin dayanıqlılığına nail olmağa kömək etdiyi barədə yekdil qənaətlər mövcuddur. Bu sahədəki müsbət təcrübələr sırasında uşaqlara görə qulluğa dair məzuniyyətlə bağlı qaydaların təkmilləşdirilməsi, analıq məzuniyyətinin müddətinin artırılması və uşaqlara qulluq sahəsinə daha çox sərmayə qoyulması qeyd edilə bilər. Xüsusilə də, azgəlirli ölkələrdə bu sahədə həyata keçiriləsi çoxsaylı tədbirlər mövcuddur.

Hazırda dünyada yoxsulluq və işsizliklə bağlı olan evsizlik - "ailə evsizliyi" kimi reallıq ən çox narahatlıq doğuran bir fenomenə çevrilib. Üstəlik də, təkanalı ailələrin evsiz qalma riskləri uşaqlı cütlüklərdən daha yüksəkdir. Ailə evsizliyinin ən əhəmiyyətli səbəbləri iqtisadi problemlər, ailədaxili münasibətlərin pozulması və məişət zorakılığıdır.

BMT-nin üzv dövlətlərə tövsiyəsinə görə, qlobal miqyasda ailə evsizliyinin artan xətt üzrə dinamikası dövlətlərin daha çox diqqətini cəlb etməlidir. Çünki bu tendensiya ailələrin, xüsusilə qadınların, uşaqların sağlamlığı və rifahına təsir edən ən çox narahatlıq doğuran istiqamətlərdir. Ailə evsizliyi qlobal və milli səviyyələrdə qarşısıalınmaz, xroniki bir tendensiyaya çevrilərsə, o zaman yetişən nəslin sosial-psixoloji sağlamlığına böyük zərbə ola bilər və onun həll olunmaması perspektivdə ailə institutunun funksiyalarına potensial dağıdıcı təsirlərə malik olar.

Beynəlxalq Ailənin İnkişafı Federasiyasının sözügedən “Ailənin trendləri” (Family trends) adlı Qlobal Hesabatında üzv dövlətlər üçün tövsiyələr təqdim edilib. Azərbaycanda da ailə siyasətində nəzərə alınmalı olan həmin tövsiyələrə nəzər salaq:

**84. Üzv dövlətlərin aşağıdakı tövsiyələri nəzərdən keçirmələri tövsiyə olunur:**

(a) "Beynəlxalq Ailə İli"nin hədəflərini və 2030-cu il üçün Davamlı İnkişaf Məqsədlərinin reallaşmasına imkan yaradan mühiti yaratmaq yönündə səylərini davam etdirmək;

(b) Yoxsulluğun nəsildən-nəslə keçən tendensiyaya çevrilməsinin qarşısını almaq üçün yoxsulluğu hədəfə alan ailə yönümlü siyasətə investisiya qoyuluşuna nail olmaq;

(c) Ailə mərkəzli sosial müdafiə siyasətini, dövlət proqramlarını, həssas sosial müdafiə tədbirlərini təşviq etmək, ailələrin sosial müdafiənin həlledici tə-

minatçıları kimi rolunu tanımaq;

(d) Uşaqlar üçün xidmətlərin genişləndirilməsinə və atalıq məzuniyyətləri də daxil olmaqla valideyn məzuniyyətlərinə yönəldilmiş müxtəlif iş-ailə balans siyasətlərinə investisiya qoyulmasına diqqət yetirmək;

(e) Ailə yönümlü strategiyalarda gender bərabərliyini və ev vəzifələrinin kişilərlə qadınlar arasında bərabər bölüşdürülməsinin təşviq edilməsini və ödənişsiz iş yükünün nəticələrinin tanınmasını təmin etmək;

(f) Bərabər iş üçün bərabər ödəniş təmin etmək üçün səyləri artırmaq;

(g) Cəmiyyətdə tam iştirakı və sosial müdafiəni də əhatə edən müavinətlərdən istifadəni təmin etmək üçün bütün yeni doğulmuş körpələrin qanuni kimliyini və doğum qeydiyyatını qorumaq;

(h) Ailələrə fayda gətirmək və ailə evsizliyinin qarşısını almaq üçün mənzil və nəqliyyat da daxil olmaqla əlçatan və ucuz infrastruktura investisiyaları təşviq etmək;

(i) Yoxsulluq daxil olmaqla ailə evsizliyinin səbəblərini aradan qaldırmaq.

## 2.7. Ailə institutunun dinamikasında qlobal və lokal tendensiyalara dair bəzi statistik məlumatlar

Müasir ailənin üzləşdiyi problemlərin qlobal miqyasını və onun lokal tendensiyalara təsirini anlamaq üçün bəzi statistik məlumatlara nəzər salmaq dünyada və Azərbaycanda mövcud olan real mənzərənin müqayisəli canlanmasına imkan verir.

**Ailə institutunun böhranından bəhs edilərkən, ilk sırada sadalanan problemlərdən biri boşanmaların sayının artması ilə bağlı statistikadır. Elə isə boşanmaların səbəbləri sırasında hansı amillərin durması ilə bağlı statistik göstəricilər nə deyir? "Statista" qlobal təhlil şirkətinin məlumatına görə, boşanma səbəbləri arasında beşlikdə ilk sırada ailədaxili münasibətlərin sosial-psixoloji amilləri durur. Paradoksal olan isə maddi amillərin ilk beşlikdə sonuncu - 5-ci yerdə durmasıdır.[24] Boşanma səbəblərinin ilk beşliyi aşağıdakı kimidir:**

***1. Cütlüklər arasında heç bir öhdəliyin, məsuliyyətin olmaması, formalaşmaması (lack of commitment);***

***2. Güvənsizlik və xəyanət (İnfidelity of extramarital affairs);***

***3. Ailədaxili münaqişələr (Too much conflict);***

***4. Erkən yaşda nikaha daxil olmaq/evlənmək (Getting married too young);***

***5. Maliyyə problemləri (financial problems)***

❑ Ölkələr üzrə boşanma statistikasını qiymətləndirən araşdırmanın nəticələri boşanmanın Qərbdə daha çox yayıldığını göstərir. Rusiya, Latviya və ABŞ kimi ölkələr Şərq ölkələri ilə müqayisədə daha çox boşanma səviyyəsi ilə fərqlənirlər.

❑ Rusiya 1000 nəfərə 4,7 boşanma ilə dünyada ən yüksək boşanma səviyyəsinə malikdir. Sonrakı sırada Guam (4,2) və Moldova (3,7) gəlir (WPR, 2021).

❑ Dünyada yalnız 2 ölkədə boşanma qanunsuz sayılır: Filippin və Vatikan.




[24] Divorce Statistics You Can't Ignore: // https://financesonline.com /divorce-statistics/

❑ ABŞ-da hər 13 saniyədə bir boşanma baş verir (Wilkinson & Finkbeiner, 2020) və boşanma səviyyəsi 1000 nəfərə 2.9 boşanma kimidir.

❑ Mövcud son statistikaya görə, Latviya və Litva AB-də ən yüksək boşanma nisbətinə malikdir. Hər iki ölkədə 1000 nəfərə 3,1 boşanma düşür. Onların ardınca Danimarka (2.6) və İsveç (2.5) sıralanır (Eurostat, 2020).

❑ Asiya ölkələrinə gəldikdə, Çində 1000 nəfərə ən yüksək boşanma səviyyəsi - 3.36 düşür. Çindən sonrakı yerlərdə Qazaxıstan (3) və Honq Konq (2.8) gəlir (BOKT, 2020; OECD, 2019).

❑ Avstraliyada boşanma nisbəti 1000 nəfərə 2 nəfər kimidir.

❑ Kanadada boşanan qadınların sayı tədricən 2015-ci ildəki 2,54 milyondan 2020-ci ildə 2,71 milyona yüksəlib. (StatCan, 2020)

❑ İngiltərədə də boşanma nisbəti yüksəkdir. 1000 evliliyə 8.9 boşanma düşür. Boşanmalarda əsasən qadınlar tərəfindən ilk təşəbbüs səviyyəsi yüksək olub, 69% təşkil edir. Ali təhsilli qadınlar arasında bu rəqəm 90%-ə çatır. Qadınlar üçün boşanma nisbəti 1000 nəfərə 7.7 təşkil edir. Kişilər üçün boşanma ilə sona çatan ilk evlilik müddətinin orta uzunluğu 7.8 ildir. Qadınlar üçün bu müddət 7.9 ildir. Boşanmış qadınların 54%-i kişilərin 30%-i bir daha evlənmək istəmir.

"Valideynlik" və "evlilik" anlayışlarının "ayrılması" baş verib. Nikahdankənar doğulan uşaqların nisbəti demək olar ki, bütün İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı (OECD) ölkələrində əhəmiyyətli dərəcədə artıb.[25]

Dünyada boşanma sayının ən az olduğu ölkələr sırasında Gvatemala (0.4), Qətər (0.4), Peru (0.5), Bosniya və Herseqovina, Venesuela, İrlandiya, Fransa, Makedoniya, Martinika, Özbəkistan, Tacikistan, Sloveniya, Panama, Jamayka və Meksika gəlir (WPR, 2021).

AB-də nikah sayı 1965-ci ildəki 1000 nəfərə düşən 7.8-dən 2017-ci ildə 4.4 nəfərə düşüb; boşanma sayı isə 1965-ci ildə 1000 nəfərə 0,8-dən 2017-ci ildə 2-yə yüksəlib.




**2021-ci il üçün dünyada hər 1000 nəfər evliliyə düşən boşanma sayının ən yüksək olduğu ölkələr sırasında Rusiya ilk yerdədir**

[25] https://www.pewresearch.org/social-trends/2019/11/06/marriage-and-cohabitation-in-the-u-s/




## 2.8. Nikah-evlilik və boşanmalar kontekstində Şərq və Qərb ailə modelinin vəziyyəti

Şərq-islam ölkələri arasında boşanma səviyyəsinin ən yüksək olduğu ölkə Qazaxıstandır. 2011-ci il üçün olan məlumatda Azərbaycan 10-cu sırada yer alıb. [26]




Qlobal Şərq-Asiya məkanı miqyasında Ermənistanın nəinki depopulyasiya (əhali sayının fəlakətli azalması), həmçinin boşanmaların yüksək səviyyəsinə görə bütün Asiya qitəsində birinci olması ölkənin ailə münasibətlərinin çox acınacaqlı olması baxımından diqqəti cəlb edir.




Maraqlıdır ki, bəzi Avropa ölkələri boşanmaları yalnız son 2-3 ildə qanunilәşdirib. Həmin ölkələrdə boşanma səviyyəsi hələ çox aşağıdır. Məsələn, İtaliya 1970-ci ildə, İspaniya 1981-ci ildə, İrlandiya 1995-ci ildə və Malta 2011-ci ildə boşanmağı qanunilәşdirib.




[26] https://divorcescience.org/for-students/world-divorce-statistics-comparisons-among-countries/

İstər Şərqdə, istərsə də Qərbdə evlilik və boşanmaların hazırkı statistikasından göründüyü kimi, bu sosial fenomenə münasibət artıq əvvəlki kimi qalmayıb. Bənzər bir tendensiya dünyanın yarısını əhatə edib, lakin bəzi postsovet ölkələrində evlilik və boşanmalarla bağlı vəziyyət sadəcə fəlakətə çevrilib. Bu, həmin ölkələrdə dövlət idarəçiliyi və sosial siyasət sisteminin səmərəliliyinin çox aşağı olması tezisini bir daha təsdiqləyir.

Dünya statistikasına görə, evlilik və boşanmalarla bağlı ən yaxşı vəziyyət yüksək həyat səviyyəsi, yaxud da konservativ (mühafizəkar) sosial ənənələri olan ölkələrdədir. 2018-ci ildə dünyada ən az boşanma İrlandiyada 1000 nəfərə 0.7-qeydə alınıb. Lakin səbəblər düşündürücüdür. Belə ki, İrlandiyada boşanmalarla bağlı dünyada ən sərt qanunvericilik var. Bu ölkənin qanunlarına görə, boşanma ərizəsi vermək üçün bir cütlük ən azı dörd il ayrı yaşamalıdır. İrlandiyalılar üçün bu ağrılı məsələ ilə bağlı hətta üç il əvvəl ölkə vətəndaşlarının əksəriyyətinin boşanma qanunvericiliyinin liberallaşdırılmasına səs verdiyi referendum keçirilib. Bu baxımdan, ola bilsin ki, yaxın vaxtlarda İrlandiya böyük ehtimalla boşanma reytinqlərində lider mövqelərdən geriləyəcək. Boşanmalar üçün bir çox bürokratik prosedurların mövcud olduğu Yunanıstanda da vəziyyət eynidir. Xüsusilə iş məhkəməyədək gəlib çıxana qədər süründürməçilik prosedurları çox ağrılı keçir. [27]

Bu kontekstdə onu da əlavə edək ki, tarixi və demoqrafik ədəbiyyatda əvvəlcə J.Zainal tərəfindən müəyyən və təhlil edilən iki növ nikah-evlilik davranışı təqdim edilmişdir. Onların əsas diaqnostik parametrləri ilkin evlilik yaşı və son subaylıq faizidir. İki növ ailə davranışı arasındakı əsas psixoloji fərqlər mədəni və iqtisadi şərtlərə bağlıdır. Məsələn, Qərbi Avropada ailə Şərqi Avropa ilə müqayisədə daha çox iqtisadi müstəqilliyə meyillidir. Müasir qlobal cəmiyyətdə baş verən sosial-mədəni və iqtisadi dəyişikliklər evlilik-nikahla bağlı mənəvi şüur və dəyərlərin transformasiyasına təkan verib. Patriarxal və ata-baba ailə dəyərlərinin tədricən aradan qaldırılması, eləcə də nuklear ailənin xüsusilə də urbanizasiya regionlarında aparıcı model olaraq qəbul edilməsi prosesi gedir. Qeyd edilənlər baxımından dəyişiklikləri çoxşaxəli amillərlə yanaşı, Şərq və Qərb ailə modelləri aspektində müqayisəli öyrənməyin vacibliyi son dövrdə geniş yayılıb.

Qərb tipli nikah-evlilik davranışını ənənəvi - Şərqdəki (islam, buddist və Konfutsi sivilizasiyalarında) evlilik davranışları ilə müqayisə edən bəzi araşdırmalar mövcuddur.

Familizm, yəni ailəyə ən ali mədəni dəyər verən yanaşma, “ailəoriyentasiyalı” cəmiyyət olmaq ictimai şüur üçün mənəvi təməllərdən biri sayılır. Ailə həm Şərqdə, həm də Qərbdə qədim zamanlardan günümüzə qədər insanı müşayiət edən bir ictimai birlik forması olaraq qalmaqdadır. Müxtəlif tarixi dövrlərdə fərqli mədəniyyətlərdə fərqli model və formalara, çeşidli quruluş prinsiplərinə, bəzən çox fərqli bir əxlaq anlayışına malik olsa da, ailə institutu demək olar ki, həmişə psixoloji və mənəvi dəyər kimi çıxış edib.

Son yüzillikdə Qərbdə olduğu kimi Şərqdə də dünyada baş verən qloballaşma prosesləri, sosial-mədəni və iqtisadi dəyişikliklər "vesternizasiya-qərbləşmə" tipli modernləşmə, müvafiq olaraq da nikah-evlilik zehniyyətinin modernləşdirilməsinin iri şəhərlərdə intensivləşməsi ardıcıl olaraq davam edib. Tədqiqatçılara görə, Qərbdə ailə institutu tarixən təşkilati fərdiyyətçiliyin və sahibkarlığın inkişafına təkan verib. Şərqdə digər psixoloji xüsusiyyətlər - çoxsaylı qohumlarla məsləhətləşmək, anlaşmaq, ağsaqqala tabeçilik, getdikcə isə ailə və məişətdə nizamı qorumaq üçün öz iradəsini qəbul etdirmək ənənə şəklini alıb. Bununla əlaqədar olaraq, artıq dünyaya gələn hər kəsdə bir növ doğum hüququ ilə minimum hüquq və gözləntilərə (yaşlı nəsil tərəfindən himayəçilik və qayğı) malik olmaq vərdişi formalaşıb.

Qeyd edilənlər baxımından, nəinki ənənəvi qlobal Qərb-Şərq dixotomiyası, o cümlədən "Şərq" sivilizasiyaları daxi-

[27] https://offshore-view.eu/2019/08/30/statistika-brakov-i-razvodov-v-mire-rossiya-snova-v-liderah-antirejtinga/

lində daha bir “Şərq cəmiyyətləri” - buddist və islam mədəniyyətləri daxilində ailə institutunun, nikah və evliliyin inkişaf qanunauyğunluqlarına dair tarixi və demoqrafik araşdırmalara dərin ehtiyac var. Məhz bu kontekstdə yanaşıldıqda, Şərq və Qərb ailələrinin yalnız “xristian-Avropa” ailəsi ilə deyil, daha geniş və çoxşaxəli sosial-psixoloji təhlili mümkündür. [28]

Qeyd edilən analogiyanı Şərq-türkdilli dövlətlərdə nikah-evlilik və boşanma proseslərinin nisbəti ilə bağlı da söyləmək mümkündür. Belə ki, Şərq-Asiya (buddist) dövlətləri daxilində olduğu kimi Şərq-islam (müsəlman) sivilizasiyası daxilində də Türk-islam ailə tipləri ilə yanaşı, ərəb-islam ailə modeli, müvafiq olaraq da tarixi demoqrafik nikah və boşanma davranışları da fərqlidir. Məsələn, yuxarıda qeyd olunduğu kimi, Şərq-türkdilli dövlətlər arasında ən çox boşanma səviyyəsi Qazaxıstanda müşahidə edilir. BMT-nin Qazaxıstandakı Əhali Fondunun dəstəyi ilə hazırlanan tədqiqatda qeyd edilir ki, bu ölkədə nikah-evlilik sayının azalması və boşanma nisbətinin artması davamlı şəkil almaqdadır. Qazaxıstanda evliliklərin 40%-i boşanma ilə nəticələnir.

2013-cü ildən 2018-ci ilə qədər ümumilikdə ölkədə evliliklərin sayı 18%, Şərqi Qazaxıstan vilayətində isə ən çox - 28 % azalıb. 2000-2018-ci illərdə boşanmaların sayı orta hesabla iki dəfə artıb. Artım Şərqi Qazaxıstan bölgəsində 1,3 dəfə, Almatı vilayətində 2,8 dəfə qeydə alınıb. Tədqiqatda qeyd edilir ki, əgər 2000-ci ildə ölkədə boşanmaların sayı evlilik sayının 30%-ni təşkil edirdisə, 2018-ci ildə bu nisbət pisləşərək yüzdə 40-45-%-ə yüksəlib. Qazaxıstanda doğum nisbətinin 2014-cü ildən bəri ardıcıl olaraq azaldığı qeyd olunur. 2017-2018-ci illərdə doğum nisbəti 2008-ci ildən bəri ən aşağı səviyyəyə düşüb. Ümumi doğum nisbətinin azalmasının əsas səbəbi kimi son illərdə aktiv reproduktiv yaşda olan qadınların sayının və nisbətinin azalmasıdır: 90-cı illərdə doğulanların azsaylı kontingenti reproduktiv yaşa daxildir. [29]

Bəzi hallarda Şərq-müsəlman dünyasından uzaq insanlar ərəb-islam ailələrinin ümumiyyətlə boşanmaması ilə bağlı təsəvvürlərə malikdir. Yaxud da belə düşüncələr var ki, boşanmalar olsa belə, bu, yalnız kişilərin təşəbbüsü ilə baş verir və qadınlar burada çox passivdir. Əslində isə belə deyil. Boşanmalar islamda "halal", yəni məqbul sayılır. Baxmayaraq ki, dini və mühafizəkar sosial qaydalar boşanmağa açıq şəkildə maneə törədir, hər iki tərəfin - ər və arvadın boşanmaq hüququ var və bu günah sayılmır. Ayrılma səbəbləri "fikir ayrılığı" kimi bəsit və tamamilə sıradan bir səbəb ola bilər. Şəriət məhkəməsi həyat yoldaşlarını zorla bir araya gətirə bilmir və bəzi standart prosedurlardan sonra boşanma prosesi başlanır.

Sünni məzhəbə məxsus (Səudiyyə Ərəbistanında üstünlük təşkil edən) dini kəsimdə ümumən formalaşmış təsəvvürlərdə olduğu kimi, ardıcıl olaraq üç dəfə "səni boşadım" deməklə boşanmaq mümkün deyil. Bu, mərhələlər üzrə baş verir. Hər "boşadım" frazası arasında ən azı bir ay vaxt keçməlidir ki, tərəflər hər şeyi ətraflı düşünüb qərar verə bilsinlər. Digər şərtlərdən biri odur ki, qadın son boşanma müddətinə qədər, yəni ən azı üç ay əri ilə eyni evdə yaşamağa davam etmək hüququna malikdir. Eləcə də ər ona əvvəlki kimi dəstək olmaq məcburiyyətindədir. Yalnız üçüncü dəfə deyilən sözdən sonra evlilik artıq etibarsız sayılır. İslam qanunlarına görə, həyat yoldaşını heç bir səbəb olmadan boşamaq hüququ olan kişilərin üstün hüquqlarına qarşı qadınlar eyni hüquqa malik olmasa da, boşanmaq üçün məhkəməyə müraciət edə bilirlər. [30]

Səudiyyə Ərəbistanının boşanma statistikasına gəldikdə, 2012-ci ildə aparılan tədqiqatlara görə, bu ölkə boşanma və subay qadınların sayına görə dünyada lider yerlərdən birini tutur. Rəsmi rəqəmlər göstərir ki, krallıqda 2010-cu ildə bağlanan evliliklərin təxminən beşdə biri dağılıb. Yəni qeydiyyatdan keçən 90.983 nikahdan 18.765-i dağılıb. Mütəxəssislərin fikrincə, səudiyyəli cütlüklər arasında boşanma sayının azalmasına digər ölkələrdə tətbiq edilən, evlənən gənclər üçün hazırla-

[28] Носевич В. Л. Еще раз о Востоке и Западе: структуры семьи и домохозяйства в истории Европы // Круг идей: Историческая информация в информационном обществе: Тр. VII конф. Ассоциации «История и компьютер»: - М., 2001, с. 15-38. http://vn.belinter.net/model/10.html.

[29] https://tengrinews.kz/kazakhstan_news/40-protsentov-brakov-zakanchivaetsya-razvodami-kazahstane-391959/ 40 проце нтов браков заканчивается разводами в Казахстане - исследование

[30] https://www.bbc.com/russian/blog-arabia-37551252

nan xüsusi maarifləndirmə təlim sistemi kömək edə bilər. Statistikaya görə, hazırda Səudiyyə Ərəbistanında təxminən 1,5 milyon subay qadın var. Təhlillərə görə, önümüzdəki beş ildə boşanma nisbətinin yüksək olması səbəbindən onların sayı 4 milyonu keçə bilər. [31]

Yaponiyanın Səhiyyə, Əmək və Sosial İnkişaf Nazirliyinin statistik məlumatlarına görə, bu gün ölkədə hər üç evlilikdən biri dağılır ki, bu, heç də kiçik rəqəm hesab edilmir. Maraqlı və əhəmiyyətli olan məqam müasir yapon cəmiyyətində mədəni ənənə və ailə dəyərlərinin itirilməsinin nəticəsi, boşanmaların təşəbbüskarlarının əsasən qadınlar olmasıdır. Bu tendensiyanın demoqrafik tənəzzülə və nəticədə iqtisadiyyat üçün potensial təhlükəyə səbəb olması yaponları narahat edir. Tədqiqatçıların fikrincə, Yaponiyada boşanmaların artmasına təkanverici amil Qərbdən gələn modernləşmə, gender və qadın azadlıqlarının təbliği, əmək bölgüsünün kişi və qadın əməyi arasındakı tarixən mövcud olan qütbləşmənin zəifləməsi olub. Bu transformasiya XX əsrin ikinci yarısında dövlətin gender siyasətini dəstəkləməsi ilə başlayıb. Çünki gender azadlığı, boşanmağa ənənəvi olaraq maneə törədən əsas amillərdən birinin - "yapon utanc mədəniyyəti"nin ("hajdzi-no-bunk") zəifləyərək sıradan çıxmasına səbəb olub. [32]

Son bir neçə onillikdə, Ümumi Boşanma Əmsalı (Crude Divorce Rate (CDR)) ilə ölçülən boşanma səviyyəsi həm Şərqdə, həm də Qərbdə kəskin şəkildə artıb. Lakin son zamanlar bəzi ölkələrdə bu istiqamətdə səngimə və ya azalma müşahidə edilib. Ümumi Boşanma Əmsalının son illərdə bəzi ölkələrdə azalması və ya sabitləşməsinin boşanma riskindəki real tendensiyaları əks etdirib-etdirməməsi ətrafında son illərdə bəzi təhlillər aparılıb. Belə ki, ailə demoqrafiyasında nikah və boşanmalara çoxşaxəli və çeşidli səbəblər təsir etdiyi üçün tədqiqatçılar artma, yaxud da azalma tendensiyasının birmənalı meyarlarla ölçülməsini qeyri-məqbul, hətta fövqəladə dərəcədə mürəkkəb məsələ hesab edirlər.

Yalnız evlilik deyil, boşanmalar da da ənənələr, dəyərlər, inanc sistemləri, sosial strukturlar, sosial nizam və mədəni normalarla şərtlənir. Boşanma proseslərinin bütün mədəniyyətlər və cəmiyyətlərdə eyni dərəcədə qəbulu və dəyərləndirilməsi mümkün deyil. Ümumi olan cəhət isə odur ki, boşanma bütün dünyada müxtəlif sosial problemlərə səbəb olan ən arzuolunmaz bir sosial fenomen hesab olunur. Boşanmalar dövlətin və cəmiyyətin sosial nizamını laxladır. Üstəlik, boşanmalar şəxsi həyatda uzunmüddətli sosial, hüquqi, şəxsi və iqtisadi nəticələrə səbəb olan əhəmiyyətli bir "qara həyat zolağı" transformasiyadır.

Son bir neçə onillikdə Ümumi Boşanma Əmsalı təkcə Qərbdə deyil, həm də Şərq ölkələrində boşanmalarda dramatik bir artım yaşandığını göstərir. Bununla yanaşı, 1990-cı illərdən bəri ABŞ, İngiltərə və İsveç kimi bəzi Qərb ölkələrində Ümumi Boşanma Əmsalının azalması tendensiyası müşahidə edilib. Məsələn, Qərbdə müşahidə olunan boşanma tendensiyalarına rəğmən Tayvan, Cənubi Koreya və Yaponiya kimi bəzi Asiya ölkələrinin Ümumi Boşanma Əmsalı 2000-ci illərin əvvəllərində sabitləşdi və ya aşağı düşməyə başladı. İlk baxışda belə bir təəssürat yarandı ki, evli cütlüklərin boşanma riski azalır və evlilik keyfiyyəti yaxşılaşır. Bununla yanaşı, boşanmış ailələrin rifahı ilə əlaqədar potensial ciddi nəticələrlə bağlı narahatlıqlar yeni tədqiqatlara təkan verdi.

"Sinqapur, Tayvan, Cənubi Koreya, İngiltərə və Avstraliyada Ümumi Boşanma Əmsalının təfərrüatlı təhlili" adlı tədqiqatda müəlliflər dekompozisiya (decomposition) metodundan istifadə edərək fərqli nəticələr əldə ediblər. [33] Tədqiqatçılar Ümumi Boşanma Əmsalındakı son azalma və ya sabitləşmənin boşanma riskinin real tendensiyalarını əks etdirdiyini öyrənmək üçün son 20 ildə baş verən dəyişiklikləri Qərb (İngiltərə, Avstraliya) və Şərqi Asiya (Tayvan, Koreya və Sinqapur) ölkələrində müqayisəli təhlil ediblər. Təhlil nəticəsində aşağıdakılar müşahidə olunub: 1990-cı illərdə İngiltərə və Avstraliya-

[31] Странная статистика Саудовской Аравии.- https://golosislama.com/news.php?id=6981

[32] https://mgimo.ru/upload/2019/09/vorkina-diss2.pdf

[33] Decomposing the crude divorce rate in five countries: Singapore, Taiwan, South Korea, the UK, and Australia Sinqapur. Asian Population Studies. April 2018. 14(1):1-16

da, 2000-ci illərdə isə Tayvan və Koreyada boşanmaların Ümumi Boşanma Əmsalında azalması meyli əsasən boşanma riskinin azalması ilə deyil, evlənən-nikaha daxil olan əhalinin nisbətinin azalması ilə əlaqəli olub. Yalnız Avstraliyada 2001-2011-ci illər arasında boşanma riskində real azalma müşahidə edilib. 1990 və 2010-cu illər arasında Sinqapurda boşanma nisbətən davamlı olaraq artıb ki, bu da hökumətin evliliyi təşviq etmək siyasətini reallaşdırmasını şərtləndirib.

Nəticə olaraq, tədqiqatçılar belə bir qənaətə gəliblər ki, əhalinin yaş quruluşundakı dəyişiklik və daha önəmlisi evlilik sayının kəskin azalması Ümumi Boşanma Əmsalını ciddi şəkildə təhrif edərək boşanma tendensiyalarını izləmək və dəyərləndirmək üçün etibarsız bir indikator halına gətirir.

Belə ki, bəzi ölkələrdə müşahidə olunan boşanmaların yüksəlişi, yaxud da aşağı düşməsinin (və ya sabitləşməsinin) arxasında metodoloji yanaşmalardan asılı olaraq, son onilliklərdə ailə davranışında digər əhəmiyyətli dəyişikliklərin olduğu ya üzə çıxa, ya da kölgədə qala bilər.

Həm Qərbdə, həm də Şərqdə hal-hazırda getdikcə daha çox insan evlənmir və ya daha gec yaşda ailə qurur. Əgər bu proseslər Qərb cəmiyyətlərində alternativ birgəyaşam ailə modellərinin, formalarının artması və qeyri-qanuni doğum səviyyəsinin üstünlük təşkil etməsi ilə müşayiət olunursa, Şərq cəmiyyətlərində bu, insanların nikahı ildən-ilə təxirə salması, subaylıq-evlilik yaşını daha da uzatması ilə bağlıdır.

Ümumi Boşanma Əmsalının volatilliyini - dalğalanmasının əsasını təşkil edən bütün ölkələrdə nikaha daxil olan insanların sayının əhəmiyyətli dərəcədə azalmasdır. Bu kontekstdə, əgər evli əhalinin sayı nisbətən azalırsa, deməli, müvafiq və məntiqi olaraq, boşanmaların da sayı azalmağa doğru gedə bilər. Çünki evlənənlərin sayı azalır. Məhz bu məqamda azalmanın mütərəqqi hesab edilməsi boşanma meyillərinin dəyərləndirilməsində təhriflərə yol verə, cütlüklər arasında boşanma risklərinin yanlış qiymətləndirmə ehtimalı yüksək ola bilər. Deməli, Ümumi Boşanma Əmsalının müşahidə edilən yüksəlişinin və ya azalmasının (və ya sabitləşməsinin) arxasında son onilliklərdə ailə davranışlarında başqa və yeni daha böyük transformasiyaların olduğunu vurğulamaq lazımdır. Birmənalı demək olar ki, həm Qərbdə, həm də Şərqdə getdikcə alternativ birgə yaşayış formalarının artması, "evlənmək, lakin uşaq sahibi olmamaq" meyli, yaxud Şərq cəmiyyətlərində "subaylığın ömrünü daha da uzatmaq" tendensiyaları artan xətt üzrə davam edəcək. Əksinə, bir qrup ölkələrdə evliliyin yaxşılaşdığını, digər qrupda isə pisləşdiyini göstərməyə əsas ola bilməz. Bu səbəbdən ABŞ, İngiltərə və Avstraliya kimi Qərb ölkələrində bəzi illərdə müşahidə olunan Ümumi Boşanma Əmsalındakı azalma ehtiyatla şərh edilməlidir. Son iyirmi il ərzində Şərq və Qərb ailə modellərinin boşanma və evlilik tendensiyalarının yüksəlişi və aşağı düşməsinin səbəbləri və parametrləri haqqında çox məhdud sayda empirik tədqiqatlar aparılıb. Bəzi azsaylı mənbələrdə bu məsələ müzakirə edilsə də, bu transformasiyaların arxasında duran potensial hərəkətverici qüvvələrin aşkara çıxarılması üçün Şərq və Qərb nümunəsində müayisəli-sistemli araşdırmalara böyük zərurət yaranıb. Bundan əlavə, fərqli sosial və yaş qruplarının statusu da boşanma riskinə təsir edən mühüm amillərdəndir. [34]

Ailə institutunun struktur transformasiyasında digər xoşagəlməz istiqamət təkvalideynli ailələrin sayının artmasıdır. Bütövlükdə təkvalideynli ailələrin artan dinamikası qlobal trendlərdən biridir.

"Pyu" Araşdırmalar Mərkəzinin (Pew Research Center) məlumatına görə, dünyada təkvalideynli (tənha) ailə sayına görə sıralamaya ABŞ liderlik edir. 2018-ci ildə ABŞ-da 18 yaşınadək uşaqların təxminən dörddə biri təkvalideynli ailələrdə yaşayıb. ABŞ-da uşaqların təxminən 20%-i yalnız anaları, 5%-i isə yalnız ataları ilə yaşayır. 2019-cu ildə ABŞ-da qaradərili uşaqların 49%-i, İspan əsillilərin 28%-i, ağdərili uşaqların 21%-i tək bir valideyni ilə yaşayıb. [35]

[34] Jones, G. (1997). Modernization and divorce: Contrasting trends in Islamic Southeast Asia and the West. Population and Development Review, 23(1), 95–114. doi:10.2307/2137462 Jones, G. (2007). Delayed marriage and very low fertility in Pacific Asia. Population and Development Review, 33(3), 453–478. doi:10.1111/j.1728-4457.2007.00180.x

[35] https://www.statista.com/chart/21655/share-of-children-living-with-single-parents-worldwide/

İnkişaf etmiş ölkələrin çoxu birgə cütlüklərin az olması səbəbindən tək valideynlərin sayına görə dünyada liderlik edir. Amerikadan sonra Böyük Britaniya ikinci ən yüksək tənha valideyn sayına malikdir. Sonrakı yerlərdə ada ölkələr olan San Tome və Prinsipi, Rusiya və Danimarka sıralanır. Fransada mövcud olan cəmi 7,598 milyon ailə sırasında tək ata valideynli ailələrin sayı 529,730 min, tək ana valideynli ailələrin sayı isə 2,434,140 milyondur. Dünyada tənha valideynlik səviyyəsinin ən aşağı olduğu ölkələrdən bəziləri Əfqanıstan, Mali və qardaş Türkiyədir.




**2.9. İnternet və sosial şəbəkələrin ailədaxili münasibətlərə təsiri. Ailə informasiya inqilabının episentrində**

Qeyd edildiyi kimi, BMT-nin "Beynəlxalq Ailənin İnkişafı Federasiyası" 2024-cü ildə "Beynəlxalq Ailə İli"nin təsis edilməsinin 30-cu ildönümünə hazırlıq tədbirləri çərçivəsində tərtib etdiyi "Ailənin trendləri" (Family trends) adlı qlobal hesabatda yeni texnologiyalar və rəqəmsallaşdırmanın ailə həyatına gətirdiyi çağırışlara cavablar ilk sırada yer alıb.

XXI yüzilliyin 3-cü onilliyinin başlanğıcıdır və sosial şəbəkələr ildırım sürəti ilə ailədaxili münasibətlərə müdaxilə etməkdədir. İnternet, sosial şəbəkələr, smartfonlar yeni nəslin ənənəvi sosiallaşma məkanı olan evdə də, məktəbdə də münasibətlərdə şərtləri diktə edir. Valideyn-uşaq münasibətlərində mövcud olan çətinliklərə mürəkkəbliyi ilə seçilən smartfonlar və sosial şəbəkələr problemi də əlavə olunub. Real və canlı valideyn-uşaq münasibətlərini virtual məkanda əksər hallarda səmərəsiz vaxt itkisi əvəz edir. Bunun mənfi nəticələri ilə bağlı kifayət qədər geniş müzakirələr mövcuddur. Eyni zamanda, hər bir ailə internet və smartfonların öz həyatına gətirdiyi problemlər yükünü aşkar olaraq üzərində hiss edir.

İctimai rəy sorğusu sahəsində qlobal mərkəz olan "İPSOS"-un apardığı araşdırmalara görə, artıq ailədə 6-12 yaş arası uşaqlar sosial şəbəkələrlə maraqlanır və bu yöndə olduqca aktiv olmağa çalışırlar. "İPSOS"-un əldə etdiyi nəticəyə görə, əksər sosial şəbəkə saytları 13 yaşdan kiçik üzvlərə icazə verməsə də, 6-12 yaş arası uşaqların əksəriyyətinin internet dəstəkli cihazlardan istifadə fəallığı belədir: 81% notbuklardan, 69% mobil telefonlardan, 37% planşetlərdən və s. istifadə edir.[36]

[36] Ipsos MediaCT's syndicated LMX Family Study data.




Ailədaxili münasibətlərə smartfonların ikiqat ziyanı həm valideynlərin, həm də uşaqların sosial şəbəkələrdə çox vaxt keçirməsi ilə bağlıdır.

**Valideynlərin və uşaqların smartfonlardan asılılığı statistikasına dair göstəricilər aşağıdakı kimidir:** [37]

❑ İstifadəçilərin 66%-i smartfondan asılılıq, yəni “nomofobiya” əlamətlərinə malikdir. Gündə azı 2.200 dəfə klikləmə hərəkəti icra edilir; "Nomofobiya" (İngiliscə: Nomophobia "no mobile-phone phobia"; "telefonsuz qalmaq qorxusu", “telefonsuz qalmaq fobiyası” sözünün ixtisar edilmiş forması olan termin) 2008-ci ildə İngiltərənin "YouGov" sorğu mərkəzinin tədqiqatlarında istifadə edilib;

❑ Smartfonlara gündəlik yalnız 1 saat sərf edən gənclərlə müqayisədə 5 və daha çox saat sərf edən gənclərin intihar riski ehtimalı 71% daha yüksək olur;

❑ Sorğuda iştirak edən valideynlərin 47%-i övladının smartfon asılılığının olduğunu təsdiq edib;

❑ Sorğuda iştirak edən müəllimlərin 67%-i mobil cihazların şagirdlərə mənfi təsir göstərdiyini deyib;

❑ Valideynlərin 89%-i övladının mobil telefon istifadəsinə görə məsuliyyət daşıdığını etiraf edib;

❑ 18-29 yaş kateqoriyasında olan respondentlərin 22 %-i öz smartfonlarını 1-2 dəqiqədən bir yoxladığını bildirib;

❑ 2000-ci illərin nəsillərinin 36%-i gündə iki və ya daha çox saatını sosial media üçün telefona baxmağa sərf edir;

❑ Yeniyetmələrin 41%-i gündəlik aldıqları bildirişlərin miqdarından əziyyət çəkirlər;

❑ İngiltərədə sorğuda iştirak edən valideynlərin 46%-i mobil cihazlardan asılılığa düşdüyünü etiraf edib;

❑ Gənclərin 33%-i yaxın dostları ilə şəxsi-canlı ünsiyyətdən daha çox onlayn ünsiyyət qurmağa vaxt ayırır;

❑ Yeniyetmələrin 52%-i uzun müddət smartfonlarla vaxt keçirir;

❑ Müasir insan orta hesabla həyatının 5-6 ilini smartfonlara həsr edir.

Hazırda demək olar ki, hər gün internet istifadəçilərinin sayı artmaqdadır. Böyük Britaniyada illər üzrə smartfonlardan istifadə asılılığının artan dinamikası aşağıdakı kimi olub:

[37] https://www.slicktext.com/blog/2019/10/smartphone-addiction-statistics/

**Smartfonlardan istifadə asılılığının ortalama dinamikası**

**Çoxtərəfli iş yükündən asılı olmayaraq smartfonlardan istifadə**
Vaxt: Dəqiqə ilə göstərilib.




**Mənbə**: eMarketer 2016

**Azərbaycanda son illərdə internet istifadəçilərinin sayının getdikcə artan dinamikası müşahidə edilir. 2021-ci ilin yanvar ayına olan məlumata görə, Azərbaycanda 8,26 milyon internet istifadəçisi var. Son 1 ildə internet istifadəçilərinin sayı 202 min (+ 2,5%) nəfər artıb.**

**Mobil, internet və sosial mediadan istifadənin artan dinamikası**

**Azərbaycan**
2021-ci il yanvar

⚠ Hazırkı göstəricilər əvvəlki hesabatlarla müqayisə edilməmişdir

**Ümumi əhali**
**10.18 mln.**
Urbanizasiya**: 56.6%**

**Mobil istifadəçilər**
**11.30 mln.**
Əhali üzrə**: 111.0%**

**İnternet istifadəçiləri**
**8.26 mln.**
Əhali üzrə**: 81.1%**

**Aktiv sosial media istifadəçiləri**
**4.30 mln.**
Əhali üzrə**: 42.2%**

Qeyd edilən dinamika internetin və smartfonların ailə münasibətlərinə təsiri ilə bağlı adekvat tədbirlər görülməsini olduqca aktual məsələyə çevirib.

# III HİSSƏ.

## Müasir dövlət ailə siyasəti: ümumi məqsədlər, fərqli strategiyalar

Hər dövrün üzləşdiyi çağırışlar yalnız ailənin deyil, müvafiq olaraq dövlətin ailə siyasətinin də transformasiyasına gətirib çıxarır. Burada tarixi-siyasi quruluş, sosial-iqtisadi mühit, ailənin sosial vəziyyəti, dövlət-ailə münasibətləri, cəmiyyətdə ailənin qəbul etdiyi dəyərlər sistemi və s. daxili və xarici amillərin nisbəti mövcuddur. Məsələn, indiki yaşlı nəsil sovet və postsovet ailə siyasətinin fərqini aydın şəkildə xatırlaya, ayırd edə bilir.

Ailə institutunun yaradılması və inkişafı həm "yuxarıdan" - dövlət ailə və sosial siyasətin hüquqi-qanunverici bazasının təmin edilməsi yolu ilə, həm də "aşağıdan" - cəmiyyət həyatında formalaşmış yeni sosial-mədəni norma və dəyərlərin qəbulu yolu ilə həyata keçirilir.

Müasir ailənin formalaşması üçün ən vacib kanallardan birincisi dövlət siyasətidir.

"Dövlət ailə siyasəti" sosial siyasətin müstəqil istiqaməti olub, dövlətin ailə institutuna yönələn, institusional maraq və mənafeyini möhkəmləndirmək, inkişaf etdirmək, ailəni qorumaq, sosial subyekt kimi status və rolunu artırmaq, ailə-dövlət münasibətlərinin hüquqi tənzimlənməsi əsasında ailənin suverenliyi və rifahını təmin edən dövlətin kompleks fəaliyyəti və tədbirlər sistemidir.

"Dövlət ailə siyasəti" konsepsiyası sosial elmdə qəbul edilmiş elmi anlayış kimi təsdiqlənib. "Dövlət ailə siyasəti" elmi termin kimi xarici tədqiqatlarda uzun müddət tətbiq edilib. MDB məkanı ölkələrində bu istiqamətdə tədqiqatlar XX əsrin 70-ci illərində geniş istifadə olunmağa başlayıb. Ötən yüzilliyin 90-cı illərində baş verən qlobal transformasiyalar fonunda tədqiqatçı və siyasətçilərin diqqəti ailə problemlərinə yönəldi. Dövlət ailə siyasəti ailə institutunun və ailə dəyərlərinin möhkəmləndirilməsi, problemlərinin həlli, ailənin öz sosial funksiyalarını yerinə yetirməsi üçün lazımi şərait yaradılması məqsədilə bütün tədbirlər sistemini əhatə edir.

Sosial institut kimi nisbi müstəqilliyə malik olan ailənin "institusionallaşması", tənzimlənməsi ilə bağlı tədbirlər və müvafiq infrastrukturun formalaşdırılması bilavasitə "yuxarıdan" dövlət ailə siyasəti ilə müəyyən edilir.

Dövlət tərəfindən həyata keçirilən "ailənin institusionallaşması" siyasəti nəticəsində ailə cəmiyyətdə təyinatı və missiyasının, həm də taleyüklü problemlərinin həlli üçün lazım olan zəruri şərtlərə malik olur. Dövlət siyasəti nəticəsində ailə mühitin və zamanın çağırışlarına müvafiq olaraq yeni keyfiyyət və xüsusiyyətlər qazanır, sosial münasibətlərdə gərginliyi azaldan, cəmiyyətdə ahəngi təmin edən həlqə qismində çıxış edir. Ailə-dövlət-cəmiyyət münasibətlərində "ailənin inkişafı" termini ilə ifadə edilən fəaliyyət həyata keçirilir.

"Ailənin inkişafı" siyasətinə onun fəaliyyətində strateji hədəflərinin həyata keçirilməsi yönündə bütün əsas indikator və parametrlər - iqtisadi, demoqrafik, mənəvi, təhsil, psixoloji və s. istiqamətlərdə daha yüksək həyat səviyyəsinə, yeni keyfiyyət mərhələsinə keçməsini təmin edən amillər daxildir.

Dünyada dövlət ailə siyasətinin çoxsaylı modelləri mövcuddur. Həmin sahəyə qısa nəzər salmaqla Azərbaycanda həyata keçirilən dövlət siyasətinin hansı modelə uyğun gəldiyini müəyyən etmək, mütərəqqi və korreksiya edilməli istiqamətlərə dair təsəvvürlər əldə etmək olar.

İstənilən dövlət və cəmiyyət üçün ailə institutu və onun dəstəklənməsi yönündə dövlət siyasəti həyati vacib əhəmiyyətə malikdir. Belə ki, mənəvi, ailə təməllərinin möhkəm olduğu ölkələr həm də iqtisadi cəhətdən inkişaf edə, milli varlığını qoruyub saxlaya, qloballaşma dövrünün təzyiqlərinə müqavimət göstərməyə qadir ola bilirlər.

Bu gün dünyada ailə siyasətinin olmadığı çox az ölkə mövcuddur. Ailə siyasətinin prioritet sahələri demoqrafik, sosial, gender və ekzistensial istiqamətlərdir.

Demoqrafik aspektdə dünyada həm doğum nisbətini artırmağa, həm də

azaltmağa yönəlmiş ailə siyasəti sistemləri mövcuddur. Həm də bu, ölkədəki doğum səviyyəsindən heç də mütləq asılı deyil. Ailə siyasəti hər şeydən çox konkret zamanda hansı ölkədə hansı ideologiyanın olmasından asılıdır. Ümumi doğum səviyyəsinin eyni səviyyədə olduğu bəzi dövlətlər doğum nisbətini kritik dərəcədə aşağı hesab edir və onu artırmağa çalışırlar. Digərləri müdaxilə etmir (bu, yalnız siyasi deyil, həm də iqtisadi səbəblər ola bilər) və 3-cü qisim ölkələr problemi mövcud səviyyədə saxlamaq, 4-cülər onu azaltmaq istəyir və s.

XIX əsrin ikinci yarısı ailənin “özəl deyil, ictimai bir məsələ olaraq, dövlətin müdaxiləsini tələb edən sahə kimi qəbul edilməyə başladığı zaman, Avropada ailə siyasətinin simvolik bir başlanğıc nöqtəsi kimi qəbul edilir. Sözügedən dövrdə müəyyən ailələr üçün ilk uşaq müavinətləri tətbiq olunmağa başlayıb, həmçinin uşaqların anaları işləyərkən bütün günü keçirə biləcəyi ilk məktəbəqədər təhsil müəssisələri meydana çıxıb. Avropada uşaq bağçalarının dövlət tərəfindən maliyyələşdirilməsinə 1870-ci illərdə başlanılıb. Dövlət məktəbəqədər müəssisələri ilk dəfə XIX-XX əsrlərin əvvəllərində Avstriyada və Fransada meydana gəlib və həmin dövrdə ən yüksək qadın məşğulluq nisbəti müşahidə edilib. 1900-cü ildə Avstriyada qadınların ümumi işçi qüvvəsindəki payı 43.2% idi. Fransada 1866-cı ildə ictimai istehsalda çalışan qadınların payı işçi qüvvəsinin 25%-i idisə, 1901-ci ildə artıq 35%-ə çatmışdı.

Demoqrafik siyasət və əhali sayının azalması Avropa ölkələrində ailə siyasətinə təkanverici qüvvə olub. 1940-cı ildə Fransada “Evdar qadınlar üçün müavinət” verilməyə başlanılıb. Avropada dövlət ailə siyasətinin institusionallaşmasının birinci mərhələsinin simvolik olaraq müxtəlif dövlət ailə qurumlarının və təşkilatlarının yaranması ilə başladığı qeyd edilə bilər. İlk dəfə Almaniyada 1953-cü ildə Ailə Məsələləri Nazirliyi yaradılıb. Avropada ailə siyasətinin növbəti mərhələsi “rifah dövləti” (welfare state) strategiyası ilə bağlı olub, əsasən yoxsulluqla mübarizəyə hədəflənib. 3-cü mərhələdə vahid Avropa miqyasında 1961-ci ildə “Avropa Sosial Xartiyası” qəbul edilib və Avropa ailə siyasətinin strateji prioritetlərini - ailənin və uşaqların sosial, hüquqi və iqtisadi qorunma hüquqlarını özündə cəmləşdirib. Bu mərhələdən başlayaraq gender bərabərliyi meynstrimə çevrilib.[38]

**Həll ediləcək sosial problemlərin əhatəsindən, habelə hansı ailə funksiyalarının həyata keçirilməsindən, hansı növ yardımın göstərildiyindən asılı olaraq dövlət ailə siyasətinin aşağıdakı istiqamətləri fərqlənir:**

- ❑ Demoqrafik siyasət - doğum nisbətini stimullaşdırmağa yönəldilmişdir;
- ❑ Sosial siyasət - ailədəki yoxsulluqla mübarizə məqsədi daşıyır (hal-hazırda əsas vurğu uşaq yoxsulluğuna edilir);
- ❑ Gender siyasəti - ailə sahəsində və peşə məşğulluğunda gender bərabərliyinə nail olmaq;
- ❑ Ekzistensial siyasət - ailəyə həssas və risk qruplarına, əmək qabiliyyəti olmayan kateqoriyalara (uşaqlar, qocalar, əlillər) qayğı göstərməkdə kömək etmək.

Familistik tədqiqatlar sahəsində tanınmış tədqiqatçı Franz Kaufmana görə, bütün Avropa ölkələri arasında yalnız Fransada ailə siyasəti sosial siyasət quruluşunda mərkəzi yer tutur. O, ailə həyatına dövlətin müdaxilə dərəcəsindən asılı olaraq Avropada dövlət ailə siyasətinin üç formasını fərqləndirir:

- ❑ Dövlətin funksiyası müstəsna olaraq maliyyə mənbələri və onlardan səmərəli istifadə imkanları ilə məhdudlaşdırıldıqda dövlətin fəal iştirakçılıq mövqeyi (sosial demokrat ailə siyasət modeli);
- ❑ Ailəyə dövlətin minimal müdaxiləsini nəzərdə tutan şəxsi həyatın özəlliyi baxışına uyğun olaraq minimal dövlət iştirakçılığı mövqeyi (mühafizəkar-konservativ ailə siyasəti);
- ❑ Dövlətin yalnız sosial cəhətdən zəif, həssas ailələrə kömək etdiyi zaman seçici iştirakçılıq mövqeyi (liberal ailə siyasəti).

**Dövlətin hansı ailə modelini dəstəkləməsinə görə Avropanın ən yaxın dövlətlərində inkişaf etmiş üç ailə siyasəti strategiyası fərqləndirilir:**

- ❑ Ailə rolларının ənənəvi gender böl-

[38] Носкова А. Эволюция семейной политики в Европе: меняющиеся проблемы, приоритеты и практики. // http://ehd.mgimo.ru/IOR-ManagerMgimo/file?id=9cd9ae-

güsü və yaxşı inkişaf etmiş ailə dəstək siyasəti kimi "rifah siyasəti" (Avstriya, Belçika, Almaniya, İrlandiya, İtaliya, Hollandiya);

❑ Hər iki valideynin işlədiyi ailəyə dəstək verən dövlət siyasəti (Danimarka, Norveç, Finlandiya, İsveç);

❑ Bazar yönümlü model (Böyük Britaniya, İsveçrə).

Qeyd edilən dövlət siyasət modelləri başqa sözlə "defamilizasiya" və "refamilizasiya" terminləri ilə də ifadə edilir. Birinci halda dövlət analara işləməyə deyil, özünü ailəsinə və övladlarına həsr etmək imkanı yaradır. İkinci halda isə, əksinə, analara işləmək imkanı yaradılır. Mütərəqqi hesab edilən bu siyasətlərin də öz “zəif nöqtələrinin” olduğu qeyd edilir. Belə ki, güclü dövlət qayğısı tədricən valideynlərin uşaqların tərbiyəsində ictimai dəstək və yardımdan sabit asılılığını yaradır. Nəticədə bu, uşaqlara qulluq, onlarla ünsiyyət və ailədaxili valideyn-uşaq münasibətləri kimi mühüm ailə (tərbiyə) funksiyasının tədricən tənəzzülünə gətirib çıxarır. Yaxud xüsusilə sosial sahənin dövlət tərəfindən maliyyələşdirilməsi imkanlarının kəskin azaldığı və ya kəskin iqtisadi böhran mərhələsində sosial-iqtisadi qeyri-sabitlik şəraitində cəmiyyət, ailə və üzvləri üçün gözlənilməz-qəfil sosial nəticələrə səbəb ola bilər.

XXI əsrlərin əvvəlindən başlayaraq, yeni demoqrafik ailə və sosial-iqtisadi problemlərin kəskinləşməsi, hər üç nikahdan birinin boşanma ilə nəticələnməsi və s. Avropa dövlətlərini "Rifah" (Welfare) ailə siyasəti üzərində yenidən düşünməyi şərtləndirib. Hazırda ailə siyasətində sosial müdafiədən sosial tərəfdaşlığa keçid və uşaq hüquqlarının gücləndirilməsi, “atalıq məzuniyyətinin verilməsi” və s. vektorlar üstünlük təşkil edir.

## 3.1. Ailə siyasətində ən yeni yanaşmalar və istiqamətlər

Ailə siyasətinin qeyd edilən klassik tipologiyası liberal, sosial-demokrat və korporativ modellər olaraq mövcuddur. Liberal rejim ingilisdilli ölkələr üçün daha tipik olub, yalnız ən çox ehtiyacı olan ailələrə dəstəklə fərqlənir. Qalan ailələr bazar iqtisadiyyatı qanunlarına uyğun yaşamalıdır. Bu, İngiltərədə hələ 1598-ci ildə "Kasıblar haqqında" Qanunun qəbul edilməsindən başlayıb.

Eyni yanaşmanı, ideologiyanı inkişaf etməkdə olan ölkələrdə tətbiq etməyə çalışan beynəlxalq maliyyə qurumları da istifadə edir. Sosial demokratik ailə siyasəti tipində cəmiyyətin bütün üzvlərinin həmrəyliyi prinsipindən çıxış edilir. Bu siyasət müəyyən dərəcədə keçmiş Sovet İttifaqının sosialist həmrəyliyi və bərabər paylanma siyasətini xatırladır. Bu tip sosial siyasət hazırda klassik İsveç və digər Skandinaviya ölkələri üçün səciyyəvidir.

Korporativ siyasət tipi üçün də universallıq xarakterik olsa da, dəstək bölgüsü fərdlərin milli iqtisadiyyata verdiyi töhfə ilə nisbətdə müəyyən edilir. Sonra tədricən bütün cəmiyyətə yayılır. Əgər liberal rejimdə yardımlar əsasən cəmiyyətin yoxsul, imkansız təbəqələrinə verilirsə, korporativ rejimdə, əksinə, cəmiyyət üçün ən faydalı olanlara və yalnız bundan sonra hər kəsə kömək edilir. Bu siyasət iqtisadi inkişafda qabaqcıl sayılan ölkələr - Almaniya və Yaponiya üçün səciyyəvidir. Tarixən bu, Fransa üçün də tipik olsa da, bu ölkədə mürəkkəb və uğurlu (bəlkə də dünyanın ən uğurlu) ailə siyasətinin olması fikri qəbul edilib. Eyni zamanda, həmin siyasəti sadəcə götürüb mexaniki olaraq başqa siyasət çərçivəsinə sığdırmaq nəinki çox çətindir, hətta mümkünsüzdür.

Cənubi Avropa ölkələrini əhatə edən coğrafiyada ailə siyasətinin "Aralıq dənizi modeli" də seçilir. Sadə dillə deyilsə, halda ailələrə minimal kömək edilir.

Dövlət ailə siyasətinin yarandığı son iki əsr müddətində klassik siyasət tipləri tənqid edilməyə, bir sıra dəyişikliklər edilməyə başlanılıb. Yeni təsnifatların yaranmasını şərtləndirən səbəblər də var. Onlardan biri Danimarkada universitet alimləri tərəfindən 2009-cu ildə hazırlanıb, gender bərabərliyi və ailəyə dəstək siyasətinə əsaslanır. Əsas məqsəd işləyən valideynlərin ailə ilə iş arasında tarazlığının qorunmasıdır. Bu qisim ölkələrə doğum səviyyəsinin hazırda çox aşağı olduğu İtaliya, İspaniya və Yunanıstan daxildir. Fransada ailələrə dəstək məktəb yaşında uşaqları da əhatə edir.

Yeni ailə siyasətində mərkəzi məqam analıq məzuniyyəti və uşağa qulluğa görə məzuniyyəti tənzimləməklə doğum səviyyəsinin artmasına təsiri təmin etmək də adlandırıla bilər. Tədqiqatçılar ailə siyasətinin bu yöndə bir neçə qrupunu müəyyənləşdiriblər.

**1-ci qrup:**

Ailə siyasəti uzunmüddətli valideyn məzuniyyətini, yarımştat cədvəlini təmin edir - ailə siyasətinə ən çox maliyyə xərcləyən Almaniya, Avstriya və Lüksemburqda tətbiq edilir. Uzunmüddətli valideynlik məzuniyyəti yaxşı ödənişlə təmin edilir.

**2-ci qrup:**

Ailəyə dəstək modeli qısamüddətli analıq məzuniyyəti və yarımştat məşğulluğu nəzərdə tutur. İngiltərə və Niderlandda tətbiq edilir. Məzuniyyəti kifayət qədər qısadır (orta hesabla 6 ay çəkir), ödəniş yüksək deyil, uşaq baxımı müəssisələri azsaylı, bahalı və qısamüddətlidir. Körpələr evi, uşaq bağçası və analar üçün yarımştat işin birgə kombinasiyası, əmək bazarının bir çox qadının işləmək imkanlarına uyğunlaşdırılması təmin edilir.

Uşaqlara qulluq xidmətləri, günərzi qayğı mərkəzləri və özəl bağcalar analar üçün yarım gün işləmək imkanı verməyə məcburdurlar. Bu vəziyyətdə olan əmək bazarı bir çox qadının yarım gün işlədiyinə görə reallığa uyğunlaşmalı olur.

**3-cü qrup:**

Geniş ailə siyasəti modeli - Danimarka, İsveç, Fransa və Belçika üçün xarakterikdir. Bu dövrdə kifayət qədər səxavətli əmək haqqı ilə işləyən əhalinin demək olar ki, bütün kateqoriyası üçün valideyn məzuniyyəti hüquqları, çox sayda uşaq bağçası və körpələr evi var, bazar iqtisadiyyatı şəraitində anaların yüksək səviyyədə məşğulluğu və ailə siyasətinə böyük büdcə xərclənir.

**4-cü qrup:**

Ailəyə qayğı siyasəti modeli Cənubi Avropa ölkələri və iki Baltikyanı ölkədə tətbiq edilir. Valideynlik məzuniyyətinin müddəti müxtəlifdir. Ödəniş çox deyil, bu da anaları müvəqqəti asılılığa məcbur edir. Uşaq baxımı müəssisələri az, iş saatları qısa və işləyən valideynlər üçün əlverişsiz, ödənişi isə yüksəkdir. Bir çox analar ümumiyyətlə işləmir. Əgər işləyirlərsə, yalnız ən azı bir miqdarda gəlir əldə etmək üçün bunu etməyə məcbur olduqları hallarda, uşaqlara baxa biləcək nənələr və s. qohumlar kimi ailə dəstəyi olmaq şərti ilə çalışırlar.

**5-ci qrup:**

Uzunmüddətli valideynlik məzuniyyəti modeli - Macarıstan, Polşa, Çex Respublikası, Litva və Finlandiyada tətbiq edilir. Valideyn məzuniyyəti çox uzun, hər uşaq üçün üç ilə qədərdir. Finlandiya istisna olmaqla, körpələr evi/uşaq bağçası sistemi az inkişaf edib. Məzuniyyətdən sonra uşaqlara özəl bağcalar və ya dayələr baxır. Finlandiya ən inkişaf etmiş körpələr evi və uşaq bağçası sisteminə malikdir. Müxtəlif tədqiqatlar nəticəsində müəyyən edilib ki, analıq məzuniyyətinin orta uzunluğu doğum nisbətinə ən yaxşı təsir göstərir. Bir ildən çox olmayan məzuniyyət sistemi optimal hesab olunur. Eyni zamanda, tətil çox qısadırsa, ilk aylarda valideynlər üçün çox çətin olur, uşaqsızlığa üstünlük verən qadın və kişilərin sayı artır.

Avropa ölkələrini nəzərə alsaq, ən yüksək məhsuldarlıq Fransa və Skandinaviyada, yəni ilk aylardan gender bərabərliyi və körpələr evi olan ölkələrdə müşahidə olunur. Körpələr evləri kifayət qədər keyfiyyətli fəaliyyət göstərir. Fransada İsveçdən fərqli olaraq uşağı bağcaya vermək və ya verməmək seçimi var. İstənilən halda ana dəstəklənir.

Digər tərəfdən, məsələn, Skandinaviyada, İsveçdə məcburi atalıq məzuniyyəti var. Ata ana ilə birgə deyil, tək uşaqla oturmalıdır. Onu götürməmək də olar. Bu halda məzuniyyətin ümumi müddəti 2 həftə azalır. Məzuniyyəti ata götürdüyü halda, uşaq körpələr evində deyil, sadəcə evdə daha çox qala bilir. Doğum səviyyəsini artırmaq üçün bəzən bonuslar ödənilir. Burada ən maraqlı nümunə bir uşaq doğulduqdan dərhal sonra ödənilən "körpə mükafatı" (baby-bonus) verilən Avstraliya təcrübəsidir.

Rusiyada tətbiq edilən analıq kapitalı da bonus sayıla bilər. Lakin Rusiyada hökumət insanlara tam etibar etmir və doğuşdan yalnız 3 il sonra "real" pulları almağa imkan verir.

Yeni yanaşmalarda valideynlər həm-

çinin müxtəlif uşaq müavinətləri, valideyn məzuniyyətləri, uşaq bağçaları üçün ödənişlər, uşaq baxımı üçün subsidiyalar, vergi endirimləri, mənzil subsidiyaları, çevik iş saatları ilə təmin edilirlər. Məsələn, bir neçə ana, yaxud ər və arvad eyni işi paylaşa bilər. Bu qisim ailə siyasəti tətbiq edən ölkələrin çoxu Avropadadır.

Xarici ölkələrin ailə siyasətinin təcrübəsini ümumiləşdirsək deyə bilərik ki, əgər dövlət doğum nisbətini artırmaqda həqiqətən maraqlıdırsa, onda aşağıdakı bir neçə amil nəzərə alınmalıdır:

- valideynlik məzuniyyətini uzunmüddətli etmək sərfəli sayılmır;
- uşaq bağçası ilə yanaşı körpələr evi infrastrukturu olmalıdır;
- uşaq pulu, yaxud müavinət ödənilməlidir;
- xüsusilə məktəb yaşında böyük uşaqlar üçün də əlavə pul ödənilməlidir.
- əsas odur ki, valideynlərə işləmək və pul qazanmaq imkanı verilsin, hər kəsin ailədə işləməsi üçün əlverişli bir rejim yaradılsın. Optimal ailə siyasəti maliyyə və gender bərabərliyinin təmin edilməsini tələb edir.

# IV HİSSƏ.

## Azərbaycanda ailə institutu və ailədaxili münasibətlər: son illərin tendensiyalarına qısa nəzər

Bu hissədə keyfiyyət əsaslı təhlilə, Azərbaycanda ailə məsələləri ilə bağlı mövcud olan yerli və xarici tədqiqat mənbələrinə istinad edilməklə baş verən proseslərə qısa nəzər salınır.

Ənənəvi olaraq, Azərbaycan ailəsi nəinki regionda, həmçinin dünyada ən yaxşı ailə modellərindən biri kimi qəbul edilib. Xalqımız əsrdən-əsrə keçən ailə dəyərlərinin, ailə həyat tərzinin cəmiyyətdə statusuna verilən yüksək qiymət, geniş ailə modeli və möhkəmliliyi ilə seçilib.

Müəyyən dərəcədə deyə bilərik ki, sivilizasiya və coğrafiyaların kəsişməsində, ən mürəkkəb tarixi sınaqlarla üzləşən dövlətçiliyimizin təməllərinin qorunub saxlanılmasında ailə modelimizin birmənalı və böyük xidmətləri mövcud olub. 70 illik sovet ailə modelinin formalaşdığı illərdə sovet hakimiyyətinin ailədaxili münasibətlərə güclü təsir göstərməsinə baxmayaraq, Azərbaycan ailəsi özünəməxsus xüsusiyyətlərini qoruyub saxlaya bilib.

Azərbaycanda müasir ailə siyasətinin yaranması, təkamülü və inkişaf tarixini şərti olaraq 3 dövrə ayırmaq olar: sovet, postsovet və müasir (modern/postmodern) dövrlər.

Ötən əsrin 80-90-cı illərindən ailə institutumuzu qəfil, hazırlıqsız yaxalayan sosial eksperimentlər, keçid sarsıntıları, sovet modelinin dağılması, demokratikləşmə və modernləşmə yönündə milli quruculuq prosesləri ailənin statusunu, sosial və mənəvi əsaslarını kəskin təsirlərə məruz qoydu. Ailədaxili münasibətlərdə yeni, eyni zamanda gərgin meyillərin formalaşmasına təkan verdi.

Qeyd edilən dövrdən Azərbaycan ailəsi postsovet-milli quruculuq mərhələsinə keçid aldı. Ailə sistemimiz 30 il davam edən işğalçı müharibə, qaçqın və köçkünlük həyatı, bir-birindən radikal şəkildə fərqlənən siyasi quruluşların əvəzlənməsi kimi ağrılı və taleyüklü, epoxal, tarixi və geosiyasi proseslərdən keçib, eyni zamanda, paralel olaraq da sürətli modernləşmə dalğasına daxil olub.

Ailə dəyərlərinin tarixdən keçib gələn dayanıqlılığına cəmiyyətimizdə olan inam fonunda ailə institutunun üzləşdiyi problemlərin öhdəsindən özünün gələ biləcəyi ilə bağlı əminlik mövcud olub.

Cəmi beş-altı il əvvələ qədər ailədaxili münasibətlərimizdə birlik, həmrəylik, fədakarlıq və məsuliyyət, böyük-kiçik, ər-arvad, valideyn-övlad münasibətlərinin nizam və ahəngi və s. kimi Azərbaycan ailəsinə xas olan keyfiyyətlərin olması bu sahənin aidiyyəti rəsmiləri tərəfindən fəxrlə vurğulanıb.

Bununla yanaşı, son bir neçə ildə müstəqilliyin bərpasından sonra ailə modelimizin qət etdiyi üç onilliyin yekunları diqqəti cəlb etməyi, ekspert ictimaiyyətini ciddi düşündürməyi, ailə və nikahın təkamül və dinamikasının izlənilməsi bir sıra narahatlıq doğuran tendensiyaların, bəzi istiqamətərdə isə həyəcan təbili çalınacaq meyillərin aşkarlanmasını şərtləndirib.

Ailə tədqiqatlarından, familistikadan bəhs edilən bölmədə qeyd edildiyi kimi, XXI əsrdə Azərbaycan cəmiyyətində ailə institutunda baş verən modernləşmə/postmodernləşmə proseslərinin, informasiya cəmiyyətinə keçid mərhələsinin özəllikləri ailə tədqiqatları aspektində hələlik geniş araşdırmaların mövzusu olmayıb. Azərbaycan ailəsinin transformasiyasına bu prosesin fasiləsiz, ümumdünya xarakterli fenomen kimi təsiri nəzərə alınmaqla, informasiya cəmiyyətinə xas olan yeni və ağrılı tendensiyaların təhlili ayrı-ayrı aspektlərdə işıqlandırılsa da, sistemli, kompleks və akademik tədqiqatlar aparılmayıb.

Üstəlik də bu vəziyyət gender, qadın hüquqları və bərabərliyi, məişət zorakılığı və s. ilə bağlı xaricdən maliyyələşdirilən çoxsaylı layihələrlə müqayisədə ailə modeli və dəyərlərimizin sistemli inkişaf tendensiyalarının əsas tədqiqat mövzusu hesab edilmədiyi şəraitdə davam edib. Halbuki, reallıqda ailə sisteminin üzləşdiyi sistemli problemlər təkcə demokratikləşmə, qadın azadlığı, gender bərabərliyi məsələləri ilə əhatə edilə, səciyyələndirilə bilməzdi.

Hazırda Azərbaycan qloballaşma və Qərb sivilizasiyasına xas olan münasibətlər sisteminə fəal şəkildə cəlb edilir. Ailə institutunun vəziyyəti böyük dərəcədə XXI əsrin əvvəllərindən baş verən qlobal siyasi və sosial-iqtisadi proseslərlə əlaqədardır. Son illərdə adi gözlə sezilən nikah sayında azalma və boşanma sayında artım dinamikası Azərbaycan ailəsinin ənənəvi modeldən bütün parametrlərinə görə əhəmiyyətli dərəcədə fərqlənən yeni modelə doğru istiqamətləndiyini deməyə əsas verir.

**Hazırda ölkəmizdə Azərbaycan ailəsinin inkişaf tendensiyalarının təhlilinə həsr edilən araşdırmalarda mövcud proseslərə üç əsas yanaşmanın olmasını demək olar:**

**1.** Sosial-mədəni modernləşmə proseslərinin təsiri nəticəsində Azərbaycanda ənənəvi ailə modelinin müasir-modern/postmodern ailəyə çevrilməsi kimi təbii transformasiyası baş verir;

**2.** Azərbaycanda ailə institutunun böhranı baş verir, tənəzzül prosesləri getməkdədir;

**3.** Ailənin transformasiyası qlobal, ümumdünya miqyaslı labüd prosesin bir hissəsidir. Azərbaycan ailəsinin postmodern demokratik ailə modeli mərhələsinə keçidi bu böhran şəraitində baş verir.

Ölkədə vətəndaş cəmiyyəti institutlarının, məsələn, "Himayədar" Humanitar Tərəqqi İctimai Birliyinin apardığı araşdırmanın nəticələrinə görə, "Azərbaycanda avtoritar ailə modelinin demokratik ailə modelinə çevrilməsi prosesi gedir." [39]

**Bu yanaşmalardan çıxış edərək Azərbaycanda ailə institutunun transformasiyası problemlərinin öyrənilməsində ortaya çıxan əsas iki istiqamət də aşkar şəkildə ayırd edilir:**

**1.** Baş verən proseslərə böhran aspektində yanaşma;

**2.** Ailə problemlərinin təbii təkamül və dinamika prosesləri aspektində araşdırılması.

Qeyd olunanlar göstərir ki, ailənin son onilliklərdə dinamikası birmənalı qiymətləndirilmir və onun həm müsbət, həm də mənfi məzmunlu vektorlara meyillənməsini ifadə edən mövqelər mövcuddur. Bu vəziyyət fikir müxtəlifliyi baxımından məqbul hesab edilsə də, ailənin real vəziyyətinin dəyərləndirilməsində gerçək tendensiyaların aydın vurğulanması müvafiq qərarların qəbul edilməsi üçün son dərəcə mühüm məsələdir.

Bu, dünyada modernləşmə adlanan ənənəvi cəmiyyətlərdən müasir cəmiyyətə keçid adlı proseslərin birmənalı müsbət səciyyələndirilməsi, ailə institutuna çoxsaylı təsirlərin kölgədə qalması demək olardı. Belə ki, XXI əsrdə milli dövlətlərin ailə siyasəti geosiyasi güclərin rəqabəti, qloballaşma və informasiya inqilabının verdiyi manipulyasiya imkanları, milli-müstəqil dövlətlərin daxili işlərinə müdaxilə, siyasi quruluş və elitaların xaricdən "rejim dəyişikliyi", "inqilab ixracı", "rəngli inqilablar" və s. siyasi xaos texnologiyalarının geniş tətbiqi və təzyiqi şəraitində həyata keçirilir.

Eyni zamanda, sosioloji araşdırmalarda ailə problemlərinə böhran və təkamül paradiqmalarından yanaşmalarda ailə institutu inkişaf və dinamikada deyil, əsasən funksiyaların öyrənilməsinə yönəlmiş institusional yanaşma nöqteyi-nəzərindən təhlil olunur. Yeni formalaşan neo-institusionalizm yanaşması çərçivəsində ailə institutunun öyrənilməsi üçün bu iki istiqamət bir-birini nəinki istisna edir, əksinə sintez şəklində tamamlayır.

Sintez yanaşma isə transformasion yanaşma kimi tətbiq edilə bilər ki, Azərbaycanda bu yanaşmanın nəzəri və metodoloji əsasları hələlik geniş tədqiqatların mövzusu olmayıb.

Ölkəmizdə ənənəvi ailənin böhranı, cəmiyyətin bütövlükdə patriarxal sisteminin dəyişməsi ilə əlaqədar olan proseslər, müasir ailə dəyərlərinin və münasibətlərinin formalaşması, sivilizasion, sosial-mədəni, qloballaşma, siyasi, hüquqi, fərdi-subyektiv və s. amillərin təsiri nəticəsində cəmiyyətdə ailə inkişafının kəmiyyət və keyfiyyət parametrləri radikal dəyişikliyə uğrayıb. Transformasiya və onun tipoloji müxtəlifliyinin əsas vektoru ailədaxili münasibətlərin eqalitarizasiya, yəni bərabərləşdirilmə müstəvisinə keçid alması kimi ifadə edilə bilər.

**Yekun olaraq, XXI əsrin 21-ci ilində ailənin problemləri əhəmiyyəti baxımından ən vacib problemlər sırasına yüksəlib. Çünki:**

[39] Azərbaycanda ailə instutunun möhkəmləndirilməsi sahəsində mövcud vəziyəti qıymətləndırmək məqsədilə keçirilən ekspert sorğusunun sərhi. Bakı, 2019 / https://www.himayadar.org/ekspertl-r-aras-n-da-keciril-n-sosiolo-ji-r-y-sor-usunun-s-rhi.html

**1.** Ailə həm insan-vətəndaş, həm də bütün cəmiyyət üçün ən vacib sosial institutdur;

**2.** Hazırda ailəyə nüfuz edən və ya məqsədyönlü aparılan dərin böhrandan çıxması üçün onun dövlət və cəmiyyətin dəstəyinə ehtiyacı var.

Azərbaycan ailəsinin hazırda yaşadığı bütün müxtəlif problemləri bir neçə qrupda ayırd etmək olar: sosial-iqtisadi, sosial-məişət, sosial-psixoloji, müasir ailənin sabitlik problemləri, ailə tərbiyəsi problemləri, demoqrafik vəziyyət problemi və nəhayət, həssas risk qruplarına aid ailələrin problemləri.

Postsovet milli quruculuq mərhələsinə qədəm qoyulması suveren Azərbaycan ailəsinin, cəmiyyətinin formalaşma və dinamikaya uğramasına əminlik yaratsa da, qloballaşma prosesi, informasiya inqilabı və sosial şəbəkələr fenomeni bu gözləntilərdə nəzərə alınmayıb. Valideynlik institutu ailə siyasətinin modernləşdirilməsi ilə müşayiət olunub.

Belə ki, ənənəvi ailə modelinin böhranı bir tərəfdən də onun dəyişdirilməsinin zəruri olan meyillərinin, müasir ailənin inkişafını, qadınların cəmiyyətdə daha fəal və daha mütərəqqi rolunun güclənməsini ləngidən, mentalitet müstəvisində görülən bəzi aspektlərinin zəifliyini, çağırışlara adekvat olmamasını simvolizə edib.

**Gerçəklikdə eqalitar (qarşılıqlı hörmətə əsaslanan imkanlar bərabərliyi) yalnız qadın hüquqlarının deyil, ailə münasibətlərinin keyfiyyəti, ailə institutunun üç sütunu sayılan:**

**1.** ər-arvad münasibətlərinin;

**2.** valideyn-uşaq münasibətlərinin;

**3.** ailədə tərbiyə prosesinin keyfiyyəti kimi taleyüklü sahələrdən qarşılıqlı vəhdətdə və asılılıqda olub, dövlətin ailə siyasətinin əsas istiqamətlərini ifadə edir.

Hər üç istiqamətin diqqət mərkəzində olması şərtdir. Əks təqdirdə böhran yaşayan ailə münasibətləri uzaq perspektivlərdə nəticələrinə görə istənilən digər sahədəki böhranın nəticələrindən qat-qat ağır ola, milli varlığı təhlükə altına ala bilər.

Müasir Azərbaycan cəmiyyəti ailə modellərinin tipoloji plüralizmi-müxtəlifliyi ilə xarakterizə olunur. Burada qeyd edildiyi kimi, tam və natamam, nikah əsaslı və nikahdankənar, çoxuşaqlı, azuşaqlı və uşaqsız, ikikaryeralı (hər 2 valideynin çalışdığı) və təkkaryeralı, monoetnik və qarışıq, əcnəbi (millətlərarası) və s. ailə tipləri mövcuddur.

## 4.1. Ailə siyasətinin institusionallaşması. Ailə məsələləri üzrə administrasiya

Ayrı-ayrı dövlətlərin ailə məsələləri sahəsində siyasətini həyata keçirən rəsmi orqanların adları müxtəlif cürdür. Məsələn, Polşada və Türkiyədə “Ailə və Sosial Xidmətlər Nazlirliyi”, İngiltərədə “Dövlət Uşaq və Ailə Nazirliyi”, ABŞ-da “Dövlət Ailə və Uşaq Administrasiyası”, Fransada “Dövlət Ailə və Uşaq Nazirliyi”, Almaniyada “Federal Ailə Məsələləri, Yaşlı Vətəndaşlar, Qadınlar və Gənclər Nazirliyi”, İtaliyada “Ailə və Əlillik Nazirliyi“, Gürcüstanda “Əmək, Səhiyyə və Sosial İşlər Nazirliyi“, Rusiyada "Əmək və Sosial Məsələlər Nazirliyi nəzdində qurum" və s. adlanır.

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə 1998-ci ildə təsis edilən Qadın Problemləri üzrə Dövlət Komitəsi əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Həmin vaxtdan fəaliyyət göstərən Komitə rəhbərliyi 2020-ci ildə yenilənib.

26 sentyabr 2000-ci ildən Nazirlər Kabinetinin 176 nömrəli qərarı əsasında hər bir nazirlik və dövlət qurumunda gender məsələləri üzrə məsul şəxs, koordinator vəzifəsi təsis edilib.

AQUPDK-nin 9 şöbəsi, 76 əməkdaşı var. [40] Komitənin nəzdində fəaliyyət göstərən 11 uşaq və ailələrə dəstək mərkəzlərinin (UADM-lər) BMTİP-lə əməkdaşlıq layihəsi çərçivəsində 2011-2020-ci illərdə 9 Qadın Resurs Mərkəzi (QRM-in 3000-ə yaxın üzvü var) fəaliyyət göstərir. 2020-ci ildə Komitənin yeni rəhbərliyi tərəfindən aparılan struktur islahatları çərçivəsində "İctimaiyyətlə əlaqələr sektoru" yaradılıb, "İnformasiya və analitik araşdırmalar" şöbəsinin Əsasnaməsi dəyişdirilib.

Təsis edildiyi 2006-cı ildən keçən 15 il müddətində Komitə dövlətin ailə siyasəti sahəsində cəmiyyətin diqqətinin ailə məsələlərinə yönəldilməsi, milli-mənəvi və ümumbəşəri dəyərlərin, ailə mədə-

[40] https://www.adb.org/sites/default/files/institutional-document/546166/azerbaijan-country-gender-assessment-2019.pdf, p.12

niyyətinin qorunub-saxlanılması, gənclərin yaşlılara hörmət, kiçiklərə qayğı ruhunda tərbiyə olunması, ailədə sülh və dözümlülük mədəniyyətinin, sağlam həyat tərzinin, nümunəvi çoxuşaqlı ailələrin təbliği, xüsusi qayğıya ehtiyacı olan şəxslərin və onların ailələrinin cəmiyyətə adaptasiyası, reproduktiv sağlamlıq, ailə həyatına hazırlıq, insan alveri, erkən nikah və ziyanlı vərdişlərin yaratdığı fəsadlar üzrə məlumatlandırma və maarifləndirmə məqsədli bir sıra tədbirlər həyata keçirib.

Ailə siyasəti sahəsində taleyüklü, kompleks problemlərin həllinə yönəlik, ən son dövrdə qəbul edilən qərarlardan, 2020-ci ildə təsdiq edilmiş "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"; "Azərbaycan Respublikasının uşaqlara dair 2020–2030-cu illər üçün strategiyası", "Məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı" əhəmiyyəti baxımından qeyd edilə bilər.

Komitənin yaranmasından keçən 15 il müddətində gördüyü işlərin, həmçinin son 5 ilin hesabatı qurumun internet saytında yerləşdirilib.[41] Həmin hesabatlar əsasında görülən işlərin təhlili ölkədə vahid, problemlərin kompleks və miqyaslı şəkildə həllinə əsas yaradan ailə strategiyasının hazırlanması və həyata keçirilməsinə olan əlavə ehtiyacları da müəyyən edir.

Hesabatlara və Komitənin adına görə əsas fəaliyyət istiqamətləri: 1.Dövlət ailə siyasəti, 2.Qadın siyasəti və 3.Uşaq siyasəti kimi əksini tapıb.

Komitə beynəlxalq təşkilatlarla əlaqələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstərmiş və BMT-nin Uşaq Fondu, Əhali Fondu, Ərzaq Fondu, BMT-nin Avropa üzrə İqtisadi Komissiyası, BMT-nin İnkişaf Proqramı, UNESCO, Asiya İnkişaf Bankı, İslam Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Qızıl Xaç Komitəsi, Beynəlxalq Miqrasiya Təşkilatı, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) və s. təşkilatlar ilə əməkdaşlıq etmişdir."

Qeyd edək ki, Azərbaycan əhalisinin 26,2%-ni, yəni 2020-ci il üzrə 2636,8 min nəfərini uşaqlar təşkil edir. "Azərbaycan Respublikasının uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası"nın əsas məqsədi aşağıdakı kimi müəyyən edilib: "Azərbaycan Respublikasında uşaqların müdafiə sistemini Azərbaycan Respublikası Konstitusiyasının tələblərinə və BMT-nin "Uşaq hüquqları haqqında Konvensiyası"-nın prinsiplərinə tam uyğunlaşdırmaq; "uşaqları müdafiənin işlək mexanizminin yaradılması, erkən uşaqlıq dövründə onların inkişafına dövlət dəstəyi göstərilməsi, çətin həyat şəraitində olan uşaqların müdafiəsi, uşaqların sağlam mühitdə böyüməsi və tərbiyəsi".

Bütün bunlara baxmayaraq, dövlət ailə siyasətinin vahid konsepsiyasının olmadığı şəraitdə, onun reallaşdırılması da müvafiq olaraq fraqmentar, pərakəndə xarakteri daşıyıb. Ailə dəyərləri, ənənəvi ailə modelinin mütərəqqi cəhətlərinin qorunması ilə müqayisədə, liberal və neoliberal qadın azadlığı, gender bərabərliyi, hüquq və azadlıqlarla bağlı fəaliyyət olduqca intensiv şəkil alıb. Bu fəaliyyət beynəlxalq xarici təşkilatlar tərəfindən böyük dəstəklə reallaşdırılıb.

Beləliklə, Azərbaycan ailə modeli qlobal informasiya məkanında gedən proseslərin hədəfinə çevrildiyi, ailə dəyərlərinə qarşı güclü əks təbliğatın getdiyi, ailə sisteminin üzləşdiyi hazırkı böhran vəziyyətində vahid ailə siyasəti anlayışı olmadığı üçün strateji sənədlərdə ailə dəyərlərinin qorunması əksini tapmayıb, ailə institutu hazırkı arzuolunmaz nəticələrlə üzləşib.

Bununla yanaşı, son illərdə ailənin üzləşdiyi problemlər, boşanmaların sayının artması, məişət zorakılığı, selektiv abortlar nəticəsində cinslərin perspektiv disbalansının formalaşması və s. təhdidlər əvvəllər qəbul edilmiş konsepsiya və proqramların yenidən nəzərdən keçirilməsi, müasir çağırışlara cavab verə bilən adekvat bir ailə siyasətinin axtarışlarına təkan verib. Son bir neçə ildə Komitə tərəfindən ailə modelində müşahidə edilən böhran tendensiyaları ilə bağlı təhlillər açıqlanıb.

Azərbaycanda çoxuşaqlı ailələrə dövlət dəstəyi bu və ya digər normativ hüquqi aktlarda nəzərdə tutulsa da, ailə institutu üzrə aparılan araşdırmalar, təhlillər və eyni zamanda beynəlxalq praktikada bu dəstəyin məlum kateqo-

[41] http://www.scfwca.gov.az/store/media/Komite_illik_Hesabat%20_2020.pdf

riyadan olan ailələrin hərtərəfli dəstəklənməsi üçün yetərli olmadığı göstərilib.

Qeyd edilənlər ailə məsələləri sahəsində dövlət siyasətini həyata keçirən rəsmi dövlət qurumunun adında əksini tapan, problemlərə kompleks-sistemli deyil, fraqmentar yanaşmanı ifadə edən "ailə, qadın və uşaq" istiqamətlərinin gerçəklikdə də əks olunmasını şərtləndirib. Komitənin təsis edilməsi zamanı bir çox dillərdə "məsələləri" kimi məna verən ifadə "problemləri" kimi anlaşılıb. Qeyd edilənlər və dövlətin vahid ailə siyasətini ifadə etmək baxımından Komitənin adının "Ailə Məsələləri Nazirliyi" adlandırılması və ona nazirlik statusunun verilməsi məqsədəuyğun olardı.

## 4.2. Azərbaycan ailə institutunun dinamikasında bəzi tendensiyalarla bağlı statistik mənzərə

***"Mənim ən böyük əsərim ailəmdir."***

**Mir Cəlal Paşayev**
**Xalq yazıçısı**

Azərbaycanda Qərb ölkələrindən fərqli olaraq dövlətin statistik data bazası ailələrin bir sıra mühüm struktur göstəricilərinin dinamikasını təfərrüatlı izləməyə imkan vermir. Bununla yanaşı, ənənəvi ailə modelinin böhran yaşaması və arzuolunmaz tendensiyaların çoxalmasına dəlalət edən bəzi statistik göstəricilərin xatırlanması keçirilən yeni ictimai rəy sorğusunun nəticələri ilə müqayisəli dinamikanın aşkarlanması baxımından faydalıdır.

Dünya Bankının məlumatına görə, son 50 il ərzində Azərbaycanda nəsilvermə əmsalı kəskin şəkildə tənəzzülə uğrayıb. Bölgədə Türkiyə və Gürcüstanla müqayisədə xeyli geriləyib.



"Həyat keyfiyyəti baxımından ən yaxşı ölkələr" reytinqində Azərbaycanda dövlət ailə siyasəti "Ailə mərkəzli (yönümlü)" hesab edilməyən, yaxud bu indikatoru çox aşağı olan ölkələr sırasına aid edilib." [42]




Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi son 10 ildə (2010-2020) nikah və boşanmaların sayını müvafiq olaraq, azalan və artan dinamika üzrə təqdim etmişdir.[43]




Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin (ETSİM) apardığı "Əhalinin təbii artımına gender disproporsiyasının təsiri" adlı tədqiqatların nəticəsinə görə, "əhalinin təbii artımında nəsilvermə əmsalı" böyük əhəmiyyət kəsb edir. Müxtəlif illərə görə nəsilvermə əmsalının göstəricisi aşağıdakı şəkildən göründüyü kimi, 1961-ci ildə 5,6 olmuş və bu əmsal 2001-ci ildə minimum səviyyəyə - 1,8-ə enmişdir. 2010-cu ildə isə bu əmsal artaraq 2,3-ə yüksəlmişdir. Hazırda ümumi nəsilvermə əmsalı 2,1-ə bərabərdir. Nəsilvermədə olan regional fərqlərə əsasən ən aşağı göstəricilər Bakıda (1,8), ən yuxarı göstəricilər isə Yuxarı Qarabağ bölgəsində (2,6) müşahidə edilmişdir.[44]

Ümumi nəsilvermə (fertillik) əmsalı doğum qabiliyyəti olan qadınlara orta hesabla neçə uşaq düşdüyünü müəyyənləşdirmək üçündür. Əgər göstərici 2-dən az olarsa, ölkə demoqrafik problemlə üzləşə bilər. 2-dən az uşağın dünyaya gəlməsi təhlükəli tendensiya sayılır. Mövcud durumun stabil olması üçün toplam doğum əmsalı 2-yə bərabər və ya 2-dən çox olmalıdır.

Digər narahatlıq doğuran tendensiya 1990-cı ildən başlayaraq doğulan uşaqların cins nisbətində pozulmanın müşahidə olunmasıdır. 1998-ci ildən isə cins nisbətinin pozulması halları artmışdır.

Təhlillərə istinadən qeyd etmək olar ki, Azərbaycan 116/100 nisbətində olmaqla doğulan uşaqların cins nisbətinə görə dünyada Çin Xalq Respublikasından sonra ikinci yerdədir. AQUPDK-nin apardığı araşdırmada qeyd olunur ki, "BMT-nin son dövrdə açıqladığı rəsmi məlumatlara görə, Azərbaycan artıq dünyada birinci yerdə qərarlaşıb." Doğulan uşaqların cins nisbətinin pozulmasının qarşısı alınmazsa, bu, gələcəkdə qadınların sayının daha da azalmasına səbəb ola, nəticədə gender disproporsiyasına gətirib çıxara bilər.

[42] https://www.usnews.com/news/best-countries/azerbaijan

[43] https://www.azstat.org/portal/tblInfo/TblInfoList.do;JSESSIONID=74BCF097E57352D63F5BFF5818F1B621#994_001

[44] Əhalinin təbii artımına gender disproporsiyasının təsiri. // http://etsim.az/az/research/15




Uşaqların cins nisbətinin pozulması demoqrafik tarazlığın pozulmasına doğru apara bilər. Problemin qarşısını almaq, həmçinin qız uşaqlarının doğulmasını stimullaşdırmaq məqsədilə sosialyönümlü maarifləndirici tədbirlərin həyata keçirilməsi, maddi müavinətlərin ödənilməsi müsbət təsir göstərə bilər.

AQUPDK-nin "Azərbaycanda məişət zorakılığı və doğulan uşaqlar arasında cins nisbətinin pozulmasına dair" təhlilində ailə modelinin böhran yaşayan istiqamətləri əksini tapıb: "Son illər nikahların azalması, boşanmaların artması, doğulan uşaqların sayının, ümumnəsilvermə əmsalının aşağı düşməsi, o cümlədən doğulan uşaqlar arasında cins nisbətinin pozulması ailədaxili münasibətlərin tənzimlənməsi sahəsində bir sıra boşluqların olmasını sübut edir. Bu tendensiyanın davam etməsi gələcəkdə bir sıra demoqrafik problemlərin, eyni zamanda, genefonda mənfi təsirlərin və daha ağır fəsadların yaranmasına səbəb ola bilər".

Əhalinin təbii artımına təsir edən amillərdən digəri nikahlar və boşanmalarla bağlıdır.



**Cədvəl 3. Rəsmi orqanlar tərəfindən qeydə alınmış nikah və boşanmalar**

| İllər | Nikahlar | Boşanmalar | Əhalinin hər 1000 nəfərinə | |
|---|---|---|---|---|
| | | | Nikahlar | Boşanmalar |
| **1960** | **46635** | **2910** | **12,0** | **0,7** |
| 1970 | 35222 | 6786 | 6,8 | 1,3 |
| 1980 | 60134 | 7116 | 9,8 | 1,2 |
| 1989 | 71874 | 11436 | 10,4 | 1,7 |
| 1990 | 73119 | 14040 | 10,4 | 2,0 |
| 1991 | 74378 | 10679 | 10,4 | 1,5 |
| 1992 | 68740 | 9465 | 9,5 | 1,3 |
| 1993 | 60028 | 6564 | 8,1 | 0,9 |
| 1994 | 47147 | 6256 | 6,3 | 0,8 |
| 1995 | 43130 | 5669 | 5,7 | 0,7 |
| 1996 | 38572 | 5598 | 5,0 | 0,7 |
| 1997 | 46999 | 5806 | 6,1 | 0,8 |
| 1998 | 40851 | 5657 | 5,2 | 0,7 |
| 1999 | 37382 | 5013 | 4,7 | 0,6 |
| 2000 | 39611 | 5478 | 5,0 | 0,7 |
| 2001 | 41861 | 5382 | 5,2 | 0,7 |
| 2002 | 41661 | 5738 | 5,2 | 0,7 |
| 2003 | 56091 | 6671 | 6,9 | 0,8 |
| 2004 | 62177 | 6914 | 7,6 | 0,8 |
| 2005 | 71643 | 8895 | 8,7 | 1,1 |
| 2006 | 79443 | 7817 | 9,5 | 0,9 |
| 2007 | 81758 | 8340 | 9,7 | 1,0 |
| 2008 | 79964 | 7933 | 9,3 | 0,9 |
| 2009 | 78072 | 7784 | 8,8 | 0,9 |
| 2010 | 79172 | 9061 | 8,9 | 1,0 |
| 2011 | 88145 | 10747 | 9,7 | 1,2 |
| 2012 | 79065 | 11087 | 8,6 | 1,2 |
| 2013 | 86852 | 11730 | 9,3 | 1,3 |
| 2014 | 84912 | 12088 | 9,0 | 1,3 |
| 2015 | 68773 | 12764 | 7,2 | 1,3 |

| | | | | |
|---|---|---|---|---|
| 2016 | 66771 | 13114 | 6,9 | 1,4 |
| 2017 | 62923 | 14514 | 6,5 | 1,5 |
| 2018 | 62484 | 14857 | 6,4 | 1,5 |
| **2019** | **63869** | **17148** | **6,4** | **1,7** |

Ölkə əhalisinin sayının artması mənzərəsini yaradan əsas səbəb əhalinin hər 1000 nəfərinə düşən ölüm əmsalının stabil qalması (artıq neçə ildir ki, 5,9 olaraq qalır, lakin pandemiya və Vətən müharibəsini nəzərə alsaq 2020-ci ildə bu göstərici 7,6 promil olmuşdur), miqrasiyanın müsbət saldo ilə izlənilməsi və doğulanda gözlənilən ömür uzunluğunun yüksəlməsidir. Digər göstəricilər üzrə isə statistika narahatedicidir. Son 10 ildə əhalinin hər 1000 nəfərinə nikahların ümumi əmsalı 8,9-dan 3,5-ə düşmüşdür. Həmin müddət ərzində isə əhalinin hər 1000 nəfərinə boşanmaların ümumi əmsalı 1-dən 1,5-ə qədər artmışdır. Belə ki, 2010-cu ildə nikahların sayı 79.172, boşanmaların sayı 9.061, 2020-ci ildə isə nikahların sayı 35.348, boşanmaların sayı 14.628 olmuşdur. Ölkədə ümumnəsilvermə əmsalında da azalma müşahidə edilir. Belə ki, 2010-ci ildə bu əmsal 2,3 idisə, 2020-ci ildə 1,7-ə qədər düşmüşdür. Son illərdə ölkə üzrə doğum səviyyəsinin aşağı düşməsi müşahidə olunur. Belə ki, 2010-cu ildə əhalinin hər 1000 nəfərinə bu göstərici 18,5 idisə, 2020-ci ildə bu göstərici 12,7-yə qədər enmişdir.

Ailə məsələləri sahəsində digər araşdırmalarda Azərbaycanda çoxuşaqlı ailələrə dövlətin sosial dəstəyi ilə bağlı tədbirlərin yetərli olmadığı dünya ölkələri ilə müqayisəli şəkildə göstərilib.[45]

Təsadüfi deyil ki, çoxuşaqlı ailələrin hərtərəfli dəstəklənməsi ilə bağlı cəmiyyətimizdə olan gözləntilər son dövrdə “uşaq pulu” mövzusu ilə gündəmdən düşmür. Ekspertlərin fikrincə, bu gün Azərbaycanda üç övladı olan ailələr artıq çoxuşaqlı sayıla, onlara müavinətlər ayrıla bilər. Əks təqdirdə, Azərbaycanda təkuşaqlı ailələrin sayının artması tendensiyası davam edə bilər. Hazırda 5-dən çox uşaq dünyaya gətirib tərbiyə edən qadınlara uşaqların sağ olması şərtilə və axırıncı uşaq 1 yaşına çatdıqda hər uşağa görə 55 manat müavinət verilir. Halbuki bu rəqəm Rusiyada 400 dollar, Almaniyada 270 avro, Britaniyada 150 funt sterlinq təşkil edir. [46]

1992-ci ildən “Aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi haqqında” Prezident fərmanı əsasında uşaq pulu ödənilib. 2006-cı ildən indiyədək aztəminatlı ailələrdə böyüyən uşaqlara görə sosial müavinət verilməsi dayandırılıb. Rəsmilər bunu Azərbaycanda demoqrafiya probleminin olmaması və aztəminatlı çoxuşaqlı ailələrə başqa sosial müdafiə proqramları çərçivəsində aylıq vahid ödəniş edilməsi ilə izah edib.

“Son 20 ildə Azərbaycanda uşaqların sayı 236 min 2 yüz nəfər azalıb. Azərbaycanda hazırda tətbiq edilən sosial müdafiə proqramları çərçivəsində uşaqların 85%-nə yardım edilmir. Belə ki, DSK-nın məlumatına görə, 2020-ci ilin 1 yanvar tarixinə sosial müavinət alan uşaqların sayı 401.249 nəfər olub. Bir nəfərə düşən orta aylıq məbləği 118,4 manat təşkil edib ki, bu da 18 yaşa qədər uşaqların 15,2 %-i deməkdir. Deməli, 85%-ə qədər uşaq sosial müdafiə proqramlarından kənarda qalır.” [47]

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmisi bildirib ki, “hazırda Azərbaycanda uşaqlarla bağlı ailələrə 14 növ sosial müavinət verilir. İl ərzində bunun üçün 494 milyon manat ayrılır. Bu müavinətlər 585 min uşağı əhatə edir". Nazir müavini əlavə edib ki, təkcə bu il ərzində ölkədə ünvanlı sosial yardımdan 160 min uşaq faydalanıb, dövlət vəsaitindən səmərəli, ünvanlı şəkildə istifadə olunmalıdır. "Uşaq pulu" isə ünvanlılıq prinsipinə tam cavab vermir".[48]

Qeyd edilməlidir ki, 8 yaşadək uşaqların sosial müdafiəsinin effektiv təşkili məsuliyyətli və hesabatlı hökumətlər üçün strateji vəzifədir. Çünki yoxsul uşaqların təmin olunmuş yaşıdlarına nisbətən öz potensiallarını realizə etmək imkanları daha məhdud olur. Maddi səbəblər üzündən öz qabiliyyətini re-

[45] http://scfwca.gov.az/store/media/%C3%87oxu%C5%9Faql%C4%B1%20ail%C9%99l%C9%99rl%C9%99%20ba%C4%9Fl%C4%B1%20t%C9%99hlil..pdf

[46] https://publika.az/news/qirmizi/44664.html

[47] https://www.turan.az/ext/news/2021/4/free/analytics/az/2935.htm

[48] https://banco.az/az/news/usaq-pulu-berpa-edilecek-resmi-cavab

alizə edə bilməmiş yeni nəsil ölkə üçün itirilmiş, yeri heç bir resursla doldurula bilməyəcək insan kapitalıdır.

**Hazırda sosial müdafiə tədbirləri çərçivəsində uşaqlara ödənişlər, "Sosial müavinətlər haqqında" [49] Qanuna əsasən 18 yaşadək uşaqların aldığı sosial müavinətlər və onların məbləği aşağıdakı kimidir:**

❒ Şəhid statusu olan şəxslərin 16 yaşınadək uşaqları. 23 fevral 2018-ci il tarixli Prezident sərəncamından sonra müavinətin məbləği 21 manatdır.

❒ Müddətli həqiqi hərbi xidmət qulluqçularının 16 yaşınadək uşaqları. 23 fevral 2018-ci il tarixli Prezident sərəncamından sonra müavinətin məbləği 100 manatdır.

❒ Müharibədə əlil olmuş şəxslərin 16 yaşınadək uşaqları. 23 fevral 2018-ci il tarixli Prezident sərəncamından sonra müavinətin məbləği 15 manatdır.

❒ 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərin 16 yaşınadək uşaqları. Hazırda bu müavinətin məbləği 15 manatdır.

❒ Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin 16 yaşınadək uşaqları. 23 fevral 2018-ci il tarixli Prezident sərəncamından sonra müavinətin məbləği 15 manatdır.

❒ Aztəminatlı ailələrin 1 yaşınadək uşaqlarına ödənilən [50] müavinətin məbləği 55 manatdır.

❒ Ailə başçısını itirən ailələrin uşaqlarına təyin olunan müavinətlər. Bu müavinət vəfat etmiş, lakin işləməyən ailə başçısının 18 yaşı tamam olmamış hər bir övladına (təhsil aldıqda 23 yaşınadək) təyin edilir. 23 fevral 2018-ci il tarixli Prezident sərəncamından sonra müavinətin məbləği 80 manatdır.

❒ Sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqlara təyin edilən müavinətlər. 23 fevral 2018-ci il tarixli Prezident sərəncamından sonra müavinətin məbləği 150 manatdır.

❒ Uşağın anadan olmasına görə birdəfəlik müavinət. Bu müavinət valideynlərdən biri işlədikdə işəgötürənin hesabına, heç biri işləmədikdə Sosial Müdafiə Fondu vasitəsilə ödənilir, məbləği 200 manatdır.

"Uşaq pulu" mövzusu ətrafında müzakirələrdə ekspertlərin əksəriyyəti büdcədə bu qisim müavinətin ödənilməsi üçün kifayət qədər mənbə olduğunu düşünür. Rəsmilər isə hesab edir ki, demoqrafik problemin olmadığı ölkələrdə uşaq pulu verilmir. Azərbaycanda xeyli ailə ünvanlı sosial yardım alır və bu, çoxuşaqlı ailələr üçün nəzərdə tutulub. Çoxuşaqlı ailələr həm də aztəminatlı ailə hesab olunur.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən illik fəaliyyəti haqqında hesabatlar verir. Komitənin 2019-cu il üzrə olan hesabatda ailələrdə karyera və iş balansının təmin edilməsi, uşaqlara müavinət və qulluğun daha da təklmilləşməsi yönündə bir sıra problemlər əksini tapmışdır: "Ümumən dünyada gender bərabərliyinin tam təmin edilməsi prosesini ləngidən bir sıra amillər eynilə Azərbaycanda da mövcuddur. Erkən yaşda evlilik, məişət zorakılığı, mənfi gender stereotipləri, selektiv abortlar hələ də problem olaraq qalmaqdadır. Növbəti illərdə bu problemlərin qarşısının alınması üzrə tədbirlərin daha da gücləndirilməsi nəzərdə tutulmuşdur".

**Hesabatın "Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində həyata keçirilməsi zəruri olan tədbirlər" adlı yekun hissəsində mövcud boşluqların aradan qaldırılması və ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə aşağıdakı tədbirlərin görülməsi zəruri hesab edilib:**

*- Doğulan uşaqlar arasında cins balansının pozulması hallarının qarşısının alınması ilə bağlı tədbirlərin gücləndirilməsi;*

*- Ailə öhdəliyi olan işçilərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə məktəbəqədər təhsil infrastrukturunun inkişafı üzrə tədbirlərin davam etdirilməsi;*

*- Həyat yoldaşlarının uşaq dünyaya gətirməsi ilə əlaqədar atalara verilən 14 günlük ödənişsiz məzuniyyətin ödənişli əsaslarla olması və s.*

[49] https://www.sosial.gov.az/post_381246-3814

[50] "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanuna əsasən ünvanlı sosial yardım almaq hüququ olan ailələrin 1 yaşınadək uşaqlarına verilir. (23 fevral 2018-ci il tarixli Prezident sərəncamı)

# NƏTİCƏ

❖ XXI əsrdə Azərbaycan cəmiyyətində ailə institutunda baş verən modernləşmə/postmodernləşmə proseslərinin, informasiya cəmiyyətinə keçid mərhələsinin özəllikləri ailə tədqiqatları aspektində hələlik geniş araşdırmaların mövzusu olmayıb. Azərbaycan ailəsinin transformasiyasına bu prosesin fasiləsiz, ümumdünya xarakterli fenomen kimi təsiri nəzərə alınmaqla, informasiya cəmiyyətinə xas olan yeni və ağrılı tendensiyaların təhlili ayrı-ayrı aspektlərdə işıqlandırılsa da, sistemli, familistika istiqamətində kompleks və akademik tədqiqatlar aparılmayıb.

❖ Son onilliklərdə müstəqilliyin bərpası və demokratikləşmə prosesləri ilə müşayiət olunan milli quruculuq dövründə ailə problemlərinin tədqiqində bu institutun vahid sistem kimi qarşılıqlı əlaqədə tədqiqi ilə müqayisədə əsas aparıcı istiqamətini gender bərabərliyi məsələləri, qadın və uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığı və s. mövzular təşkil etmişdir. Bu mövzular, xüsusilə də beynəlxalq təşkilatların ölkəmizdə həyata keçirdiyi tədqiqat və sorğu layihələri çərçivəsində demək olar ki, yeganə aktuallıq kəsb edən sahəyə çevrilmişdir. Özlüyündə böyük elmi əhəmiyyətə malik olan bu tədqiqatlarda məntiqi olaraq Azərbaycan ailəsi, onun mənəvi təməl və dəyərləri, modernləşməsi və transformasiyaya uğramasına ailədaxili münasibətlərin müstəsna olaraq məişət zorakılığı prizmasından baxılmışdır

❖ Müasir ailə institutunun böhranı ilə bağlı proseslər qlobal miqyaslıdır. İnformasiya sivilizasiyası və sosial şəbəkələr fenomeninin cəmiyyət həyatına aşırı təsiri və müdaxiləsi nəticəsində ailənin üzləşdiyi böhran müxtəlif dövlətlərdə bənzər cəhətlərə malikdir. Azərbaycan ailəsi sözügedən proseslərin bilavasitə nüfuz dairəsindədir və baş verən transformasiya prosesləri qarşılıqlı bağlılıq təşkil edir.

❖ Ailənin sosial institut kimi tarixi transformasiyasının birinci mərhələsində familizm (ailə) dəyərləri individualizm (fərdiyyətçilik) üzərində tamamilə üstünlük təşkil edib. Çoxuşaqlı (uşaqmərkəzli) ailə modeli legitim-norma hesab edilib. Nikahdankənar uşaqların dünyaya gəlməsi sosial baxımdan qeyri-məqbul sayılıb.

❖ Ailənin sosial institut kimi tarixi transformasiyasının ikinci mərhələsində familizm (ailə) dəyərlərinin fərdiyyətçilik üzərində qismən üstünlüyü baş verir. Orta uşaq sayı (bir ailədə üç və ya dörd uşaq) qanuni norma halına gəlir. Nikah şəxsi seçim üzrə, eyni zamanda valideynlərin razılığı ilə bağlanır. Cəmiyyətin bütün təbəqələrində sosial akt olaraq boşanmalara yalnız obyektiv qəbul edilən səbəblərə görə icazə verilir. Ailə strukturu ailələrin qismən nuklear (ata, ana və övladdan ibarət) formaya meyilliliyi ilə xarakterizə olunur.

❖ Ailə institutunun tarixi transformasiyasının üçüncü mərhələsində əksistiqamətli proseslər - fərdiyyətçiliyin ailə dəyərləri ilə müqayisədə önə çıxması, qismən üstünlük təşkil etməsi meyli baş verir. Uşaqların azsaylı olması geniş yayılmış şərti sosial normaya çevrilir. Nikah artıq sırf şəxsi seçimlə edilir. Boşanma subyektiv, lakin cəmiyyət tərəfindən qəbul edilə bilən səbəblərdən (ər-arvadın ayrılması və ev idarəçiliyi, ər-arvaddan birinin anormal sosial davranışı, ağır sağalmaz xəstəliklər və s.) baş verir.

❖ Müasir ailənin təkamül və dinamikasının əsas istiqamətlərindən biri ailənin kollektiv-sosial institut formatından qrup formatına doğru meyillənməsidir. Bu o deməkdir ki, müasir ailədə iqtisadi funksiyaların zəifləməsi baş verir. Ailədə aparıcı yeri psixoloji atmosfer, ər-arvadın şəxsi qarşılıqlı münasibətləri tutur. Maraqlı məqam kimi tədqiqatçılar tərəfindən ailənin ən vacib funksiyaları qismində tanınan reproduktiv (nəsil artımı) və tərbiyə funksiyalarının zəifləməsi ilk növbədə ailənin sosial statusunun tənəzzülü və böhranı kimi ifadə edilirsə, başqa ailə funksiyalarında baş verən dəyişikliklər daha çox transformasiya kimi qiymətləndirilir.

❖ Ailə strukturundakı son dəyişikliklər, ənənəvi ailənin tənəzzülünü göstərən əlamətlərdən biri də alternativ ailə formalarının ortaya çıxması və yayılmasıdır. Alternativ ailə formalarına birvalideynli (natamam) birgə yaşayan cütlüklər, eynicinsli ailələr, könüllü övla-

dsız evliliklər (subay valideynlik), nikahsız birgə yaşayan cütlüklər və s. aiddir. Bu yeni formalar bir tərəfdən birgə yaşamaq, ortaq yaşayış məkanını bölüşməklə, heç bir hüquqi-qanuni, mədəni və ya dini sanksiya olmadan mövcud olan yaxın münasibətlərə əsaslanır. Digər tərəfdən, “eynicinsli nikahlar” kimi qanuni-leqal əsaslar tələb edən alternativ ailə formaları da mövcuddur.

❖ Tədqiqatçılar tərəfindən yeni ailə formalarının heç də mütərəqqi sayılmaması təsadüfi deyil. Belə ki, yeni “ailə innovasiyaları” ilə ailənin tarixən formalaşan sosial funksiyalarının sıradan çıxmasını heç nə əvəz etmir, ortada böyük və təhlükəli bir boşluq yaranır. Təsadüfi deyil ki, artıq araşdırmalarda belə bir qənaət də qəbul edilir ki, “XXI əsrdə ailənin üzləşdiyi ən böyük problem ailənin ümumiyyətlə olmaması, tədricən yoxa çıxmasıdır

❖ Hesab edilir ki, XXI əsrdə birgəyaşayışın bu ailə forması yeni bir sosial institut kimi, xüsusən də karyera və professional seçimə üstünlük verən həyat yoldaşları arasında geniş yayıla bilər. Əsas kimi əmək bazarındakı coğrafi disbalans səbəbinə görə ər-arvadın başqa bölgələrdə, hətta ayrı ölkədə işləmək üçün ayrılmaq məcburiyyətində qalması gətirilir.

❖ Hər bir dövlətin sosial siyasəti ailə siyasəti ilə eyni mənalı olaraq başa düşülmür. Eyni zamanda, ölkədə ailə nə dərəcədə ahəngdə, tarazlıqdadırsa, uşaqlar firavan, mənəvi cəhətdən zəngin mühit ilə əhatə edilibsə, deməli, ən yaxşı sosial siyasət həyata keçirilir. Ailədaxili problemlər nə qədər azalmağa doğru meyillidirsə, dövlətin sosial siyasəti o dərəcədə uğurlu sayıla bilər.

❖ İstənilən dövlət və cəmiyyət üçün ailə institutu və onun dəstəklənməsi yönündə dövlət siyasəti həyati vacib əhəmiyyətə malikdir. Belə ki, mənəvi, ailə təməllərinin möhkəm olduğu ölkələr həm də iqtisadi cəhətdən inkişaf edə, milli varlığını qoruyub saxlaya, qloballaşma dövrünün təzyiqlərinə müqavimət göstərməyə qadir ola bilirlər. Bu gün dünyada ailə siyasətinin olmadığı çox az ölkə mövcuddur. Ailə siyasətinin prioritet sahələri demoqrafik, sosial, gender və ekzistensial istiqamətlərdir.

❖ BMT-nin üzv dövlətlərə tövsiyəsinə görə, qlobal miqyasda ailə evsizliyinin artan xətt üzrə dinamikası dövlətlərin daha çox diqqətini cəlb etməlidir. Çünki bu tendensiya ailələrin, xüsusilə qadınların, uşaqların sağlamlığı və rifahına təsir edən ən çox narahatlıq doğuran istiqamətlərdir.

❖ Ailə institutunun böhranından bəhs edilərkən, ilk sırada sadalanan problemlərdən biri boşanmaların sayının artması ilə bağlı statistikadır. Elə isə boşanmaların səbəbləri sırasında hansı amillərin durması ilə bağlı statistik göstəricilər nə deyir? “Statista” qlobal təhlil şirkətinin məlumatına görə, boşanma səbəbləri arasında beşlikdə ilk sırada ailədaxili münasibətlərin sosial-psixoloji amilləri durur. Paradoksal olan isə maddi amillərin ilk beşlikdə sonuncu - 5-ci yerdə durmasıdır

❖ Valideyn-uşaq münasibətlərində mövcud olan çətinliklərə mürəkkəbliyi ilə seçilən smartfonlar və sosial şəbəkələr problemi də əlavə olunub. Real və canlı valideyn-uşaq münasibətlərini virtual məkanda əksər hallarda səmərəsiz vaxt itkisi əvəz edir. Bunun mənfi nəticələri ilə bağlı kifayət qədər geniş müzakirələr mövcuddur.

❖ XXI əsrlərin əvvəlindən başlayaraq, yeni demoqrafik ailə və sosial-iqtisadi problemlərin kəskinləşməsi, hər üç nikahdan birinin boşanma ilə nəticələnməsi və s. Avropa dövlətlərini "Rifah" (Welfare) ailə siyasəti üzərində yenidən düşünməyi şərtləndirib. Hazırda ailə siyasətində sosial müdafiədən sosial tərəfdaşlığa keçid və uşaq hüquqlarının gücləndirilməsi, “atalıq məzuniyyətinin verilməsi” və s. vektorlar üstünlük təşkil edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT VƏ İSTİNADLAR:


1. Prezident İlham Əliyevin Dünya dini liderlərinin II Sammitinin açılış mərasimində nitqi. - https://president.az/articles/34790/print

2. Mehriban Əliyeva. Ön söz. Azərbaycanın İnsan İnkişafı Hesabatı.// Azerbaijan Human Development Report. 2007, p. 4. - http://hdr.undp.org/sites/default/files/nhdr2007gendereng.pdf

3. "Azərbaycan Respublikasının gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunu. 2006, N. 150-IIIQ

4. “Azərbaycan Respublikasının regionlarında uşaq bağçalarının tikintisi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2018-ci il tarixli, 3667 saylı sərəncamı

5. “Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin gender bərabərliyinə münasibətinə dair tədqiqatın (IMAGES) nəticələri üzrə hesabat”. UNFPA/AQUPDK, 2018. Bakı, Azərbaycan

6. Azərbaycan Respublikasında cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə saziş qurumlarının tövsiyələrinin icra vəziyyətinin qiymətləndirilməsi. UNFPA Azerbaijan, 2015

7. Azərbaycan Respublikasında illik qanunvericilik və dövlət siyasətinin gender aspektinin qiymətləndirilməsi üzrə hesabat, 2020

8. Azərbaycan Respublikasında psixi sağlamlıq sistemi haqqında Ümumdünya Səhiyyə Təşkilatının və AR Səhiyyə Nazirliyinin hesabatı. Bakı, 2007, 36 s.

9. Azərbaycan Respublikasının milli qanunvericilik və dövlət siyasətinin gender aspektinin qiymətləndirilməsi üzrə hesabat. /Xalisə Şahverdiyeva, Günel Mehdiyeva, Taliyə İbrahimova/, 2020.

10. Azərbaycanda ailə institutunun möhkəmləndirilməsi sahəsində mövcud vəziyyəti qiymətləndırmək məqsədilə keçirilən ekspert sorğusunun şərhi. Bakı, 2019 // https://www.himayadar.org/ekspertl-r-aras-nda-keciril-n-sosioloji-r-y-sor-usunun-s-rhi.html

11. Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat. UNFPA Azerbaijan, 2018

12. Azərbaycanda doğulanların cins nisbətinin müxtəlif ssenariləri. // https://www.nhc.no/en/growing-domestic-violence-endangers-womens-lives-in-azerbaijan/?fbclid= IwAR1sH7Usg2BV1x27CimKKa8dmHGIxS JSP55PMyl-8kcIO18A-oYdndIijakQ

13. Azərbaycanda gender-həssas Dayanıqlı İnkişaf Məqsədləri üzrə məlumatların (2008-2019-cu illər) toplanması və təhlili. Tədqiqat işi. Avropa İttifaqının maliyyələşdirdiyi, BMT-nin İnkişaf Proqramının qismən maliyyələşdirdiyi və icra etdiyi “Gender-həssas Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılması” layihəsi. Bakı, 2019, 32 s.

14. Azərbaycanda özəl sektorda qadınlar: imkanlar və çətinliklər. UNFPA, UNDP, 2018

15. Azərbaycanda qadınların ədalət mühakiməsinə çıxışı üçün maneələr, hüquqi müdafiə vasitələri və ən yaxşı təcrübələr, 2017

16. Dəmirçiyeva M.D. Ailə hüquqlarının məhkəmə müdafiəsi (kazuslar). Bakı: Şərq-Qərb, 2012, 120 s.

17. Demoqrafik proqnozlar, 2014-2050: Azərbaycanda doğulan uşaqların cins nisbətinin müxtəlif ssenariləri. UNFPA Azerbaijan, 2018

18. Demoqrafiya və sağlamlıq sorğusu, 2013. İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), Səhiyyə Nazirliyi, Bakı, 2011.

19. Dövlət Statistika Komitəsinin metaməlumatları. // https://www.stat.gov.az/menu/7/

20. Əhalinin təbii artımına gender disproporsiyasının təsiri. /Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi. - http://etsim.az/az/research/15

21. Əlizadə H., Mahmudova R. Sosial pedaqogika. Bakı, 2014

22. Mehdiyev E. Azərbaycanda ailə dəyərləri. Bakı, 2018, 65 s.

23. Məmmədov R. Azərbaycan ailəsi: dünən və bu gün, sabah. Bakı, 2018

24. Oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması və qızların dəyəri-

nin təşviq edilməsi üzrə Qlobal Proqram: Cənubi Qafqaz və bir sıra Asiya ölkələrində doğulan uşaqlar arasında cins nisbətinin tənzimlənməsi. Azərbaycan üzrə Ölkə İcmalı. UNFPA, 2018.https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/UNFPA_Azerbaijan_ country_profile_AZE.pdf

25. Quliyeva N. Azərbaycanda müasir kənd ailəsi. Bakı: Elm, 2005, 176 c.

26. Azerbaıjan country profıle. Global Programme to Prevent Son Preference and the Undervaluing of Girls: Improving the sex ratio at birth in select countries in Asia and the Caucasus Baku, 2018, 21 p.

27. Divorce Statistics You Can't Ignore: //https://financesonline.com /divorce-statistics/

28. Dominic Richardson. Key Findings on Families, Family Policy and the Sustainable Development Goals: Synthesis Report (Florence, Italy, UNICEF, 2018).

29. European Observatory on Homelessness (EOH), Family Homelessness in Europe: EOH Comparative Studies on Homelessness (Brussels, 2017).

30. Growing Domestic Violence Endangers Women's Lives in Azerbaijan /20.05.2021; // Gender Based Violence in Azerbaijan 2020.Norwegian Helsinki Committee 20-05-2021; Azerbaıjan Country Gender Assessment December 2019

31. Hortaçsu, Nuran, Sharon Ş. Baştuğ and Ovezdurdi B. Muhammetberdiev. 2001. Desire for Children in Turkmenistan and Azerbaijan Son Preference and Perceived Instrumentality for Value Satisfaction.

32. Jean Quinn. "The impact of personal and family circumstance on homelessness ", paper presented at the expert group meeting on affordable housing and social protection systems for all to address homelessness, Nairobi, 22–24 May 2019.

33. National Alliance to End Homelessness, State of Homelessness database, available at https://endhomelessness.org/homelessness-in-america/homelessness-statistics/state-ofhomelessness-report/ (accessed on 27 August 2019); and Quinn, "The impact of personal and family circumstance on homelessness"

34. Preventing More "Missing Girls". A Review of Policies to Tackle Son Preference. World Bank, 2018

35. Suzanne Speak. "The state of homelessness in developing countries", paper presented at the expert group meeting on affordable housing and social protection systems for all to address homelessness, Nairobi, May 2019.

36. Szinovacz, M. (1984). Changing family roles and interactions. In M. E. Szinovacz (Ed.), Women and the family: Two decades of change. Haworth Press, 1984

37. The Child Protection System in Azerbaijan: Situation Analysis Available Resources, Referral Mechanisms, Gaps and Risks seen from a Child Rights Perspective.UNİSEF Azerbaijan, 2005, 51 p.

38. Trost J. LAT relationships now and in future. In: K. Matthijs (Ed.), The family: Contemporary perspectives and challenges. Leuven University Press,1998

39. UNICEF, "Family-friendly policies: redesigning the workplace of the future", policy brief, July 2019

40. United Nation. General Assembly Economic and Social Council. Seventy-fifth session. Implementation of the objectives of the International Year of the Family and its follow-up processes Report of the Secretary-General. Economic and Social Council Seventy-fifth session 2020 session /25 July 2019–22 July 2020// https://undocs.org/A/75/61%E2%80%93E/2020/4

41. UN-Women. HeForShe: 2019 Impact Report (New York, 2019). See also www.heforshe.org/en /movement.

42. Value Satisfaction. Journal of Cross-Cultural Psychology /32 (3): 309–21. // https://doi.org/10.1177/0022022101032003004.

43. Williams. J. (2000). Unbending gender: why family and work conflict and what to do about it. New York: Oxford University Press, 251 p.

44. Women In The Prıvate Sector In Azerbaıjan: Opportunıtıes And Challenges Gender Assessment Report. /Aysel Vazirova/. 2018, 64 p

45. Антонов А.И., Сорокин С.А. Судьба семьи в XX1 веке. − М.: «Грааль», 2000

46. Главная проблема семьи XXI века: отсутствие семьи. // https://regnum.

ru/news/society/2522716.html
47. Голод С. Современная семья: мачизм, феминизм, трибадизм // Человек, 2006, № 6, с. 69-81
48. Кузьменко Т. Прогноз семейно-демографической ситуации // Вестник Московского университета. Сер. 18, «Социология и политология», 2008, № 2, с.133-145.
49. Лактюхина Е.Г. Развод в молодых семьях в условиях трансформации ценностей: автореф. дис. ... канд. социол. наук. - Волгоград, 2013, 28 с.
50. Микросоциология семьи (методология исследования структур и процессов). М.: Издательский Дом «Nota Bene», 1998, 360 с.
51. Мустаева Ф. Социальные проблемы современной семьи. // Социологические исследования, 2009, №7, с.109-113
52. Носкова А. Эволюция семейной политики в Европе: меняющиеся проблемы, приоритеты и практики. // http://ehd.mgimo.ru/IORManagerMgimo/file?id=9cd9aeef-2bd4-63ad-dc3e-2411b91fe396
53. Рябова В.В.Трансформация функций семьи в современном российском обществе. // https://brstu.ru/static/unit/journal_2/docs/number-17/106-112.pdf
54. Семья как объект и предмет социологического анализа. // Известия Российского государственного педагогического университета им. А.И.Герцена. – № 132, 2011, с. 169–179
55. Формирование фамилистической культуры студентов педагогических вузов. 2008
56. Шилов И.Ю. Фамилистика (Психология и педагогика семьи). Практикум, 2012
57. Шубович М. Семейная педагогика в системе междисциплинарной интеграции гуманитарного знания. // https://core.ac.uk/download/ pdf/197369095.pdf
58. https://www.un.org/en/observances/international-day-of-families
59. 1st International Conference “Family-responsive policies in the Digital Era”// https://www.youtube.com /watch ?v=wA8IoSapyIE
60. https://www.pewresearch.org/social-trends/2019/11/06/marriage-and-cohabitation-in-the-u-s/
61. https://www.statista.com/chart/21655/share-of-children-living-with-single-parents-worldwide/
62. Ipsos MediaCT's syndicated LMX Family Study data.
63. https://www.slicktext.com/blog/2019/10/smartphone-addiction-statistics/
64. https://www.adb.org/sites/default/files/institutional-document/546166/azerbaijan-country-gender-assessment-2019.pdf; page 12
65. http://www.scfwca.gov.az/store/media/Komite_illik_Hesabat%20_2020.pdf
66. https://www.usnews.com/news/best-countries/azerbaijan
67. http://scfwca.gov.az/store/media/%C3%87oxu%C5%9Faql%C4%B1%20ail%C9%99l%C9%99rl%C9%99%20ba%C4%9Fl%C4%B1%20t%C9%99hlil..pdf
68. http://scfwca.gov.az/page/komitenin-esasnamesi
69. https://apa.az/az/xeber/sosial-xeberler/xeber_aile__qadin_ve_usaq_problemleri_uzre_elm_-303307

# QEYDLƏR

